NOVRUZ töhfələri



82.3(5Azə)
M.67

Ağalar Mirzə

İntiqam Mehdiyev

NOVRUZ TÖHFƏLƏRİ

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 64650

XƏZƏR
2009

Ağalar Mirzə, İntiqam Mehdiyev. Novruz töhfələri.
Bakı: Xəzər, 2009. – 152s.

A $\frac{4602020400}{2009-03}$

© "Xəzər" nəşriyyatı, 2009

MÜƏLLİFLƏRDƏN

Bayramlar... Onların bir çoxunu insanlar təbiət, cəmiyyət üzərində qələbələrini təsdiq etmək üçün yaradıblar. Qədimdən üzü bu günə inkişaf edə-edə gələn həyatımızın özünün diqtə etdiyi rəsmi günlər, tantanalar də insanların hər il qeyd etdikləri bayramlara daxildir.

Zülm, istismar üzərində xalqların qələbəsi, dünya fatehlərinə qarşı birləşənlərin zəfər günləri ayrı-ayrı xalqların, millətlərin böyük tantana ilə qeyd etdikləri bayramlardandır.

Lakin bu bayramlar sırasında elələri də var ki, taleyimiz kimi bizə təmənnasız bəxş olunub. Özü də bu bayramların tantanəsinə insan daxili, ruhi oyanışın təsiri ilə hazırlaşır. Bu, hər bir xalqın milli bayramıdır. Bir ağacın budaqları olan dünya xalqlarının milli bayramları da çox vaxt eyni dövrə təsadüf edir. Müxtəlif zaman kəsiyində qeyd olunan bayramların özündə belə ruhi yaxınlıq duyulur.

Xeyirlə şərin mübarizəsi üzərində qurulmuş dünyamızın yeganə nicatı insandır. Təbiət, onun ecazı qarşısında bir çox hallarda aciz qalan insan nəsil-nəsil ictimai şüuru formalaşdırmış, bütün dövrlərdə əldə etdiyi elmi-mədəni nailiyyətləri öz sələfinə ötürmüş, cəmiyyətin daha təkmil, demokratik formalarını işləyib hazırlamış, həyatın daha məzmunlu olmasını təmin etmişdir. Bu mənada hər doğulan gün, insanın təbiətlə ünsiyyətində yeni addım hesab olunub. O, bu gün bəlkə də qəribə görünən, lakin cəmiyyətin min illik inkişafı nəticəsində başa gələn təqvimi yaradıb, ili günlərə, həftələrə, aylara bölüb, fəsillər üstə köklәyib. İnsanla təbiət arasında körpü olan vaxtın mənasını, məzmununu kəşf etməklə təbiət sirlərinə açar salıb.

O, gündəlik əmək fəaliyyətini də vaxtın imkanlarına bölüb, yaz, yay, payız, qış qayğıları beləcə paylaşdırılıb.

Təbiət üzərində aparılan vaxt paralelləri insana uğurlu və nəhs günün xəbərini verib «Gün çıxanda—çıx, gün batanda—bat», «Gecənin xeyirindən səhərin şəri yaxşıdır», «Bugünkü işi sabaha qoyma», «Əldən qalan, əlli il qalar» və s. kimi məsəllər vaxtın insana diqtəsi və

insanın min illik sınaqları bahasına yaranmışdır.

İnsan qısa ömrü ərzində hiss etmişdir ki, günəş 24 saat ərzində çıxdığı yerdən bir də çıxır, Vahid zaman kəsiyində qış gəlir, yaz gəlir, yay, payız özünü hər il təkrar edir.

Bu təkrar və özünütəsdiqin içərisində gündüzlə gecənin boyunun birləşdiyi vaxt—martın 21-dən 22-nə keçən gecə də insanın nəzərindən yayınmadı. Bu, qışın sonu, yazın ilk gününə təsadüf edir.

İlimiz bu günə yaxınlaşdıqca insanlar da toxum kimi içərisindən cücərməyə, ruhi oyanışa başlayırdı. Budaqlarda tumurcuqlar oyandığı kimi insan ürəyində də həyat eşqi cücərirdi. Təbiətlə insan ruhunun oyandığı gün bir vaxta təsadüf etdiyindən qədim ellilərimiz həmin vaxtın bayram edilməsini məsləhət gördülər. Belə hesab elədilər ki, yalnız həmin günün təntənəsi xalqa həqiqi xoşbəxtlik, firavanlıq gətirə bilər.

Zərdüştün dini təlimində qeyd olunan yeddi bayramın ən təntənəlisi fars mənbələrində «Novruz» («Yeni gün») adı ilə qeyd olunanıdır.

Bu bayramda varlı-kasıb eyni şəkildə, eyni hüquqla iştirak edir, umu-küsünü unudub dostluq münasibətlərini möhkəmləndirməyə çalışırdılar.

Bir maraqlı faktı qeyd edək. Məşhur şair və alim Ömər Xəyyam (1048—1131) «Novruznamə» adlı əsərində özündən əvvəlki müəlliflərə və astronomik tədqiqatlara əsaslanaraq göstərmişdir ki, qədim Yeni il bayramının yaranması günəş təqvimi ilə bağlıdır. Ö. Xəyyam Novruz bayramının qeyd edilməsini Günəşin iki dövrü ilə əlaqələndirir. Birinci dövr belədir: 365 gün və sutkanın bir qədəri keçdikdə Günəş Qoç bürcünün ilk dəqiqələrinə qayıdır. Bu dövr ildən-ilə qısalır.

«Yaz bayramı» adı ilə Novruzun qeyd edilməsi haqqında ilk yazılı məlumat eradan əvvəl 505-ci ildən məlumdur. Novruz bayramından yazan orta əsr müəllifləri göstərirlər ki, hətta Şərq ölkələrində islam dini yarandıqdan sonra da bu bayramda yaz əmək ənənələri möhkəm yer tutmaqda idi. Məsələn, Kəsvəri nəql edir ki, Novruz bayramı günu padşahın süfrəsində buğda, arpa, darı, qarğıdalı, noxud, mərcimək, düyü, küncüt, paxla və lobya unundan bişirilmiş qoğallar düzülürdü. Süfrənin ortasına müxtəlif ağaclardan kəsilmiş yeddi budaq qoyulur, müxtəlif vərəqələrdə «artıb», «artacaq», «artan» sözləri yazılırdı.

Novruz bayramının kütləvi xalq bayramı olduğuna XI əsr tarix-

çilərindən Nizam əl-Mülkün «Siyasətnamə»sində də rast gəlirik. (Ön sözdəki faktlar H. Quliyea, Ş. Həsən və İ. Mahmudovun «Qobustan»ın 69-cu nömrəsində dərc olunmuş məqaləsindən götürülmüşdür).

Təqdim olunan bu kitabda milli bayramımız Novruzun xalq yaradıcılığında, folklorumuzda və gündəlik məişətimizdəki işləri haqqında söhbət açılır.

Heç şübhəsiz ki, yazıya alınmış bu yaddaş bütövlüyü tələbkar oxucunu tam razı sala bilməz. Bu, bir tərəfdən bayramın son dərəcə qədimliyi və tarixi cəhətdən bu günümüzdən çox uzaq olması ilə bağlıdırsa, digər tərəfdən bu ulu xalq abidəsinə uzun illər göstərilən biganəliklə bağlıdır.

Aşkarlıq və yenidənqurma mərhələsində xalqın milli adət-ənənələrinə münasibət kimi meydana çıxan bu kitab ilk təşəbbüs olduğu üçün diqqətcil oxucu yaddaşına və təkliflərinə böyük ehtiyac duyulur. Bütün bunlar yeni nəşrlərin təkmilləşməsinə və faktoloji cəhətdən zənginləşməsinə səbəb olardı.



YAZ GƏLİR

İnsan həyatın dan sökülənindən «yağı», «dost», təbiətlə, çevrə ilə özü arasındakı ayrılığı, oxşarlığı ibtidai şəkildə də olsa götür-qoy etməyə çalışmışdır. Sözsüz ki, belə götür-qoylar, düşünmələr bir çox onilliklər, ola bilsin ki, yüzilliklər boyu çəkmiş, biçimlənmiş, öz yoluna düşmüşdür.

Təbiətlə insanın dürlü şəraitdə (xoş və əksinə) qarşılaşması sonra yazla bağlı törənlərin, — mərasimlərin də meydana gəlməsinə səbəb olmuşdur. Belə bir mərasimin yaranmasında mifik görüşlərin, animist baxışların, natur fəlsəfənin, təbiətə təbii baxışın böyük rolu vardır, yazla ilişkəli ilkin görüşlərin araşdırılması əski insanın təbiətə münasibətinin və bundan doğan görüşlər düzümünün də üzə çıxarılmasına yardım edir. Belə münasibətdə, duruşda, görüşlərdəki «reallıq», «gerçəklik», «qeyri-reallıq», «uydurma»da öyrənilir və bunların ictimai, mifoloji təfəkkürlə, həyatla bağlılığı da imkan daxilində araşdırılır.

Bir çox gündoğar və Avropa xalqlarında, o sıradan azərbaycanlılarda yazın qışı əvəz etməsi mifoloji təfəkkürdə «vuruş» kimi təsəvvür olunmuşdur. Bu təbii hadisə xalqın soy-psixoloji yaddaşında özünə ayrıca yer tutmuş, mərasimlərdə, şifahi ədəbiyyatda əks olunmuşdur. Azərbaycan və onunla etnik yaxınlığı olan xalqlarda yazla bağlı olan görüşlər, nəğmələr, yaz təqvim törəni-mərasimi yaranmışdır. Əski azərbaycanlılar təqvimlə bağlı vaxt anlayışını hərdən animistləşdirmiş, hərdən insan kimi gözə çarpdırmış, hərdən isə zoomorfik aləmlə bağlamışlar. Yazla qışın bir-birini əvəz

etməsi, onların ölüm-dirim vuruşu elə bil zamanı, vaxtı irəli aparır, təbiətlə, çevrə ilə qarşılaşmadan, gündəlik tələbatdan doğan, yeni-yeni düşüncələr təbiətə daha ayıq baxmaq hissini yaradır. Xalq təfəkkürünə görə, bu təbii əksliklər əvəzlənmə, təbii vuruş elə bil çarxın, dövranın hərəkətinə təkan verir. Qışın yazla əvəzlənməsi, gecə-gündüz kimi, insanda vaxt anlayışının da yaranmasına istər-istəməz, kortəbii şəkildə olsa da yardım edir. Təbii əvəzlənmə, təbii vuruş olmasa «yaz gəlməz», əsl insan inanmışdır ki, belə halda onun heyvanı qırılar, əkin-biçin-olmaz, özü də yaşaya bilməz. Əkslik-lərin—qışla yazın əvəzlənməsi həyatı, yaşayışı, var olmağı «təmin» edir. Vaxtı irəli aparır. Yazın və onun istisinin gəlişinə azərbaycanlılar (Xızır İlyas), Kosa-kosa töreni keçirirlər. İstər Xızır, istərsə də Kosa-kosa törəninin yaranması azərbaycanlıların soy kökündə duran əski qəbilə birləşmələrinin təbiətə, hər bir təmasda olduqları çevrədəki olaylara—hadisələrə təsir etmək cəhdi ilə yaranmış, sonralar zənginləşmiş, şaxələnmişdir. Belə törənlərin—mərasimlərin yaranmasını, ilkinini yad görüşlə, təsirlə bağlamaq gerçəklikla səslənməz. Bu hər şeydən qabaq hər bir xalqın kökündə, mayasında duran soyun, qəbilənin özünə aiddir. Onun ilkin ibtidai ictimai quruluşundan, həyat tərzindən, təsərrüfatından asılıdır. Doğrudur, yazın gəlişi, yazın qışı əvəz etməsi ilə bağlı törənlər Orta Asiyadan, Dağlıq Altaydan, Azərbaycandan tutmuş Avropaya qədər yayılmışdır. Bu törən—mərasim hər xalqın təbiətə yanaşmasının təsiri ilə yaranmışdır. Soyların, qəbilələrin, qəbilə birləşmələrinin, xalqların bir-birindən məsafə baxımından yaxın, uzaq olmasından asılı olmayaraq onların yaz törənində oxşarlıq, bənzəyiş özünu açıqca göstərir. Misal üçün, əski şumerlərin yazın gəlişinə həsr etdikləri törən bir çox

xalqlardakına oxşayır. Şumerlərdə Amu («ata» deməkdir) baş tanrıdır. Amunun və ana tanrı anlamlı Nimmixanin Tamuz adlı oğlanları vardır. Tamuz—«sadiq oğul» deməkdir. Tamuz hər il payız fəslinin sonunda «ölür» və yazda «dirilir». Onun ölümünə və dirilməsinə şumerlər ayrıca törən keçirirdilər, qurban kəsirdilər, çalıb-oynayırdılar. Əski xalq yazın yaxşı, bərəkətli gəlməsi istəyini bildirirdi. Təbiətin ölüb-dirilməsi dövranın, çərxin dövr etməsi inamı ilə səsləşirdi.

Yazın gəlişini ovçuluqla, maldarlıqla, əkinçiliklə uğraşan bütün soy birləşmələri, qəbilə birləşmələri, xalqlar, o sıradan azərbaycanlılar səbirsizliklə gözləyirdilər. Ulu babalarımız elə buna görə də yazı qarşılamaq üçün onun istisinin—xızının (qızmaq) şərəfinə törən keçirirdilər. Yazla ilişgəli törəndə xalq odun—istinin gəlişini gözlədiyini gözə çarpdırır:

Xızır, Xızır, xız gətir,
Var dərədən od gətir.
Xızıra Xızır deyərlər,
Xızıra çıraq qoyarlar.

İlkin soy qəbilə birləşməsi Xızırdan od istəmişdir. Müqəddəslərin, ululaların mindiyi boz atla gələn Xızır od, istilik gətirən kimi yaz olur:

Xızır Nəbi, Xızır İlyas,
Bitdi çiçək, oldu yaz.

Göründüyü kimi, əski insan yaratdığı mifik obrazla, mifik müqəddəslə özü arasında yaxınlıq görür. İnsanla mifik personaj arasındakı yaxınlıq diqqəti çəkir. Aşağıdakı örnəyə diqqət yetirək:

Xızır batdı palçığa,
Çıxartdılar haraynan...

Yazın istisinin—xızırın, gününün qutunun insanlaşmışı Xızır yazı gətirərkən qışla vuruşa-vuruşa gəlir. Onun palçığını basa-basa gəlir. Xızırın uğurla gəlib mənzilə çatması üçün insanlar ona kömək edirlər. Deyəsən, elə buradaca Xızırla—mifik personajda, müqəddəslə adi insan arasındakı fərq götürülür. İnsanda öz gücünə inam əmələ gəlir. Beləliklə, yazla bağlı bayramda, törəndə nəinki dini görüş yoxdur, hətta yüksəlmək istəyi var. İnsanın mənəvi baxımdan ucalması, ululaşması əks olunmuşdur. Ola bilsin ki, bu, köləliyə qarşı mübarizənin formalarından biridir. İnsanı irəliyə aparan, işığa yönəldən, düşüncələrlə ilişgilidir. Bu mübarizlik hissi zaman keçdikcə daha da güclənir, biçimlənir, inkişaf edir.

Dedik ki, Xızır yazın istiliyinin insanlaşdırılmış formasıdır. Elə ona görə də onunla bağlı nəğmədə deyilir: «Xızıra çıraq qoyarlar». Deyimdə əski insanın belə bir inamı ifadə olunur ki, yazın uğurlu olmasını təmin etmək üçün od, isti yardıma çağrılmalıdır. Odun, istinin bölgəsi isə çıraqdır.

Kosa-kosa töreni də bu baxımdan, ayrıca maraq doğurur. Burada xalqın gündəlik həyatı daha aydın şəkildə ifadə olunur. Belə ki, insanın təbiət hadisələrinə ilişgili çalışmaları ilə sıx bağlı olaraq çevrədəki mühitə gerçək, hərdənbir isə uydurma münasibəti yaranırdı. Biz «uydurma» deyərkən xəyalı uydurma ilə, real gercək uydurmanın bir-birinə qaynayıb qarışdığını göz qarşısına gətiririk. Bir də unutmaq olmaz ki, əski insan üçün hər iki uydurma gerçəklik kimi idi. O, uydurmanın uydurma olduğunun fərqinə varmırdı. İnsan təbiəti dilə tutmağa çalışırdı. Elə buradaca tarixin belə çağında

Kosa-kosa törəninin ilk variantı, sxemi yaranırdı. İnsan bu çağlar yaratdığı ilkin mövsüm-təqvim törənlərində özünün təbiətə yardım etməsilə (Xızırı palçıqdan çıxarması kimi) fəxr edir, eləcə də təbiətdən yardım diləyirdi... Elə bu durum Kosa-kosada əksini tapıbdır. O, Kosanı—qışı pisləyir, yazın bölgəsi keçini alqışlayır.

Təbiətlə ilk qarşılaşmada insan ondan çəkinməyə başladı və bu ilkin enimist baxışı, sonralar ilkin onqonları, inamları yaratdı. Bu çağlar təbiətdən, çəkinmə ilk baxışda, ilk inamda ikilik, əksliklər göruşünü yaratdı. İnsan ona yardım və yamanlıq edən təbii hadisələr haqqında düşünməyə başladı.

Kosa-kosa kimi, yaz mövsüm təqvimi ilə bağlı görüşlər illər keçdikcə daha da yetkinləşmiş, yazla ilişgili törəni bir çox xalqlar sıradan şumerlər, fransızlar, italyanlar, belçikalılar, skandinavlılar keçirmiş və keçirirlər. Kosa-kosa oyununda Kosa qışın, Keçi isə yazın bölgəsidir. Törənin—mərasimin sonunda Keçi yaz Kosanı qışı öldürür. Törəndə xalq Kosaya yalnız qışın bölgəsi kimi baxmır, onu eləcə də əksliklərlə də ilişgiləndirir:

Mənim Kosam canlıdır,
Qolları mərcanlıdır.
Kosama əl vurmayın,
Kosam ikicanlıdır.

Yazıq ki, burada öz əksini tapmış əski təfəkkür araşdırıcıların diqqətindən yayınmışdır. Əski azərbaycanlının görüşünə görə Kosa-qış ikicanlıdır. Biz bu ifadəni iki anlamada başa düşür və hər ikisinin əski mifdən doğduğu qənaətindəyik. Birinci, Kosa—qış yazı doğacağı üçün ikicanlıdır. Yaz qışdan doğulur. Qış istəsə də, istəməsə də bu «uşaq»—yaz

doğulmalıdır. Doğulacaq «uşaq»—yaz əkinçiliklə, maldarlıqla uğraşanlar üçün həyat idi. Xalq elə buna görə yazın istisini—Xızırı çağırır və istini-xızı gətirməsini xahiş edir. «Kosa ikicanlıdır» ifadəsinin ikinci anlamı belədir: Qışda əkslik-lər—yay və qış, isti və soyuq toplanmışdır. Biri aktivdir (qış), o biri isə passivdir (yay), Qışın (Kosanın) bir yönü mərcan, qollu, buz qollu qışdır, soyuqdur. Vaxt onun bu yönünü yavaş-yavaş dəyişir və qışın o biri yönünü, yazı-istini gətirir.

Yazın bol məhsul verməsi üçün insan ona əlindən gələni edir. Kosa-kosa yaz təqvim anlayışı və onunla ilişgili yaz bayramı get-gedə elə bil günəşin, işığın qələbəsinə həsr olunur.

MİRƏLİ SEYİDOV,
filologiya elmləri doktoru, professor.

AĞIL KƏŞDİNDƏN

«NOVRUZLAMA»

Bir nəlbəki kişmişi gətir araya
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.
Yağış yağsa yığışarıq saraya
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.

Hər qapını cüt-cüt gəzək, təkbətək,
Günüz, həftəz, ayız, iliz mübarək.
Baxçamızdan nübar apar, nübar çək
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.

Bizim yerdə güllü bostan əkərlər,
Əkib onu şəhərlərə tökərlər.
Qız-gəlinlər dəstə-dəstə səkərlər,
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.

Bu ayda çox olur darçın, quluncan,
Cavanlar seyr edər, gəzər doyuncan.
Hələk düşdük qoz-fındığı yığıncan,
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.

Ay qız, Bəsrə, tovus kimi səkərsən,
Gələn ildən dəstəni sən çəkərsən.
Novruz qabaq səməni də əkərsən,
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.

Əziz gündü, nə kəs-kəsə toxunsun,
Gələn ilsə göynəklər al toxunsun.
Bir ağızdan novruzlama oxunsun:
Bahar Əhməd, Bahar Əhməd, xoş Əhməd.

Hər dəfə ilimiz gəlib Novruz məqamına yetəndə dünyanın rəng-rufu gözgörəsi dəyişir. Atalar deyir: daş həmin daşdı, zaman dəyişib. Belədə zaman atlıdı, qanadlıdı, hər nədisə dünyanın beli uzunu çapıb, bax, bu günümüzə yetəndə dağların, düzlərin, çayların, irmaqların səsi səhləmi dəyişir ki, dəyişir! Pəri nənə demiş bu bahar gecəsində ağaclar torpağa səcdəyə gəlir, barınır torpaqdan. Bu gecənin aydınlığında irmaqların suyu şirinləşib bala dönür. Saflığında fal aşkarlanır, düyün açılır, mətləblər murada yetir.

Hər dəfə ilimiz gəlib bu məqama yetişəndə bilməzsən südü axdı, bilməzsən otdu-göyərdi, bir onu görərsən el-camaat yaşılın çıxarıb al geyindi, qaradan-nazdan arındı, yasın gizlədi, şadlığa səslədi, yeddi yerdən göz açdı, dil açdı, diləк dilədi. Müsafirlər gəlib belə gördülər, səyyahlar belə yazdılar, illərə əmanət qoyub getdilər. Di gəl səyyahlar yazanı, alimlər yazanı xalq illərnən, qərinələrnən nə oxuyar oldu, nə də eşidər. Sudandımı, havadandımı, qandandımı, nədəndisə hər dəfə ilimiz gəlib bu məqama yetişəndə, gecəylə gündüz bərabərləşəndə, yazın görüş, qışın ayrılıq çağı dünyanın rəng-rufu kimi insanlar da dəyişir, mehriban olur, şadlıq

кеçirir, yaxşıya alqış, ağrı-yamana qarğış deyirlər.

Bina-qədimdən bizim ellərin yazı yaraşıq hesab olunur. Atalar ilin dörd cəhətini tanıyıb: yaz, yay, payız, qış. Yaz bitirir, yay yetirir, payız yığıb gətirir, qış vurub dağıdır. Yaza pənah gətirən insanlar gör nə deyiblər: «Yaz qışdan bəlli olar, qış yazdan. Yaz ilə qışa bir ağıl neyləsin? Yaz getdi, qış gəldi, vay titrəmək dərdi. Yazda çalan, qışda oynar. Yazda -gələn, qışda deyər. Tələsmə, yaz olar yonca bitər. Yaza çıxan mal-davarın yiyəsindən minnəti olmaz...»

QAR ÇİÇƏYİ

Yazın gəldim xəbərini qar çiçəyi yetirər. Birinci görüşü çobanlara verər bu çiçək. Qışdan bezara qalmış çoban göy üzü açılan кimi yetirər özünü köhnə örüş yerlərinə. Görər, ayə, yamacın ala-talasında bir çiçək üşərgiyir. Çomağını daşlara çırpıb sındırar кi, qadam, yaz gəlib!

Bu çiçək yazın ilкindən xəbəri olar, özü güneydə bitər. Elə кi, yaz günəşi çıxıb yamacların quluncunu qırdı, bir də görərsən qarın ala-tala yerindən bu çiçək boy göstərir. Oyanmış anamız torpağın yaz nəfəsidi, Novruzun gəldim xəbəridi. Heyif кi, ömrü az olar qar çiçəyinin, qəfil bitкisiylə, qəfil itgisi bir neçə-gün çəкər, di gəl xətri yaddaşlarda Novruzgülüylə, bənövşəylə bir yaşayır.

Yaz gəlib xəbərin el-camaat bir də nədən bilər: gecələrin bir ömrü qısalmasından, gündüzlərin bir şam işığı artmasından, havaların ılıqlanmasından, çayların bulanmasından, budaqların düymələnməsindən... camaatın rəmmallığıdı кi, axır çərşənbə ötüşər-ötüşməz havaların eyni nişanlı qızın bətbənizinə dönər. Xumarlıq-xuramanlıq yağar çöl-bayırdan. Bəs, bu gözəl gülləri arzulamazlarmı, gözdəməzlərmi? İllərin, əsrlərin sınağında xalqımıza əyan olub кi, yaznan qışın döyüşü qışın axır ayına, yəni boz aya düşür.

BOZ AY

Rəvayətə görə qədim zamanlarda aylar yoxuymuş, bu səbəbdən ilin günləri qat-qarış düşüb camaatı çaşdırırmış. Belədə günlərini bölürlər aylara. Hər aya otuz iкi gün qalır, amma «Boz ay»a on dördü. Boz ay кüsür кi, bu nə təhər olur, hamıya çox, mənim payımasa az düşür? Görürlər кi, inciyir, hərədən bir gün verirlər Boz aya кi, xətri qalmasın, olur iyirmi beş gün. Bu səfər də razı qalmayanda o biri aylar deyir, elə özümüzdə də azdı, sənə nə verək?

Ayların bir yarısı isə bir günündən də кeçir, axır кi, Boz ayın iyirmi səккiz, iyirmi doqquz günü olur, başlayır özüçün dövranını sürməyə.

Məsələ burasındadır кi, Boz ay günləri o biri aylardan aldığına görə-biri payızı, biri qışı, bir başqasısa yazı xatırladır. Biri gün deyəndə, o biri şaxta deyir. Oncu da məsəldi кi, «Boz ay»a etibar yoxdu. Boz ay ən nibətli, nəs, qaşqabaqlı, çisкinliqaramatlı olduğundan belə hesab eləyiblər кi, həmin ayın qəzəbindən qorunmaq gərəкdi. Bundan ötrü də boz ayı çəmələrə, yəni həftələrə bölüblər. Çəmələrə ad da seçiblər: ab, atəş, хак, bad. Həftələrin tamamı çərşənbə günlərində qeyd olunub. Yerindən asılı çərşənbələri tək, cüt, gül, кül çərşənbə də çağırıblar. Söz yox, bu deyilişlərin ayrı-ayrılıqda yozumu var. Xalq ağır hesab elədiyi boz ayı xoşluqnan ötürməкçin çərşənbələri toylu-düyünlü, ürf-adətli, yar-yaraşıqlı кeçirməyi məsləhət bilib. İnanışa görə axır çərşənbə günündə sular təzələnir deyin gözəllər sənəк alıb çeşmə başına getməкdə, aşiqlər də bulaq daşına diz qoyub gözləməкdə, seçməкdə sonalamaqda:

Çərşənbə günündə çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, кeçdi sinəmdən.
Nazu-qəmzələri qanıma düşdü.

Çərşənbə axşamlarında alagöz ocaqlar çatılanı cavan-comrul səməndərə dönüb od üstündən atılhaatılda! Kimsə də bu dəygini dildən qoymadı, yaddan çıxarmadı: «ağırlığım, uğurluğum hamısı odun üstünə!»

İnama görə bunnan da ilin ağrı-acısı, кin-кidurəti, uğursuzluğu adamın yaxasından əl çəкməli, oda düşüb yanmalıdı. Quba, Dərbənd tərəflərdə axır çərşənbə gecəsi üzərliк yandırırlar кi, yerli camaat arasında üzəriyə püləmbəri deyənlər də var. Üzərliyi göz qaytarmaqdan, nəzər sındırmaqdan, xatabalanı uzaq eləməкdən ötrü yandırırlar. Axır çərşənbə günü süfrələrə azı yeddi löyün şirniyyat düzülməli, süfrələr göz doyduran olmalıdı.

Çərşənbə axşamlarında ət, yarma yeməyi bişirməк, qovurğa qovurmaq, yumurta bəzəməк dəbdir. Ocağın bişmişindən qonşu payı göndərməк, кöməксizi şadlandırmaq da bu günlərin adına yazılıb. Bu əməlin adına savablıq deyilib. Xalq inanıb кi, bu axşamlarda кasıba, кöməксizə verdiyi bir pay nə vaxtsa on qat artıb ocağına qayıdacaq.

SƏMƏNİ, SAXLA MƏNİ...

Ulularımızın, ağbirçəklərimizin yaz arzusu, bərəкət nişanəsi səməni boylanar aynalardan. Bu aynalardan yaz baxır çölün taxta boranına, torpağın qış yuxusuna. İnsanın yaz arzusu vaxtı yetişəndə əvvəl-əvvəl səməni şəкlində sinilərdə göyərər, sonra ayaq tutub bağlar, çöllər, çəmənlər uzunu yeriyər, təbiətin yanına hopar, yerdən din vurub çıxar, dünyanı ətri-ənbər qoxusu bürüyər. Novruza üç həftə qalmış səməninin himi qorular. Başlar ürəкlərin arzu-niyyəti sinilərdə yaşıl-yaşıl göyərməyə. Səməni boy verdiкcə ürəкlərin yaz niyyəti gerçəкləyər, ilin bolluğuna, bağların, çöllərin ruzusuna inam artar. Səməni boy verdiкcə ürəкlərdə söz göyərər, bu bir əlcə yaz nəfəsində sözün sığalı gəzər:

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməni, sazana gəlmişəm,
Uzana-uzana gəlmişəm.

İstər tarixin yazılı, yazısız soraqlarında, istərsə də insanların yaddaşlarında, vərdişlərində qoruyub saxladıqlarından bəlli olur кi, səməni göyərtməк, ondan halva bişirməк söz-söhbəti eramızdan oyanlara gedib çıxır.

«Avesta»nın özündə dirilиk mənbəyi кimi qələmə verilən həyat ağacının çiçəкlərinə «xaom» «hum» deyilirmiş. Güman eləməк olar кi, bu «xaom» xeyli əvvəl mənbələrdə özünü nişan verən «səm» bitкisinin bir azca dəyişilmiş şəкlidir.

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 64650

Bir iş var ки, ta qədimdən bu günəcən arzu-niyyət nişanası ки-mi yetişdirilən səməni nəhayətdə insanda öz gücünə, hünəri-nə inam oyadır, onu torpağa, işə, zəhmətə bağlayır.

Arzu-niyyət şamı səməni-dən bu əziz günlərdə halva bişir-мək idi. Səməni halvası dadda-ləzzətdə başqalarına bənzəməz. Bundan ötrü yetişmiş səməni-ni biçib əzər, suyunu süzüb mis qa-zanlarda asar, gecədən səhərəcən qulluğunda dururlar. İnanışa görə bu halvanı əməli-saleh adamlar bişirməlidi. Novruz ax-şamları məhəllənin qız-gəlini yığışardı bir evə. Başlardılar hərə bacardığından bu işə rəvac verməyə; ки-mi səməni döyərdi, ки-mi suyun sıxardı, ки-mi də əli çömçədə, dili söhbətdə. De ки deyə-sən, gül ки, güləsən! Dəstə qız uşaqları da ortalıqda şirin-şəкəri, xoruzquyruğu çay əysiк eləməzdi.

Evində səməni qazanı asdıran ürəyində niyyət eləyirdi, inanırdı ки, bu bayram səməni-sinin savablığı onu niyyətinə yetirəcəк, çətindən, dardan qurtaracaq.

Elə ки, qızlar cəmləşib işi sahmana saldılar, mis qazanı qaldırıb qoydular ocağın üstünə, başlardı beкarçılıq. Bu vaxt çənələr duşərdi işə, ağız deyəndən qulaq tutulardı. Bu yerdə qız-larağası qayıdardı ки, a qapınızı qəfil elçilər döysün, bir ma-far verin söz danışaq, söz eşidin.

Deyərlər, a Gülsüm, de görəк nə deyirsən, arvadlanma!

O da fiкrini cəmləyib bir tapmaca söylər:

—Bax, qızlar, tapana nəmər düşəcəк.

Bir gün bir bölüк qaz uçub gedirmiş. Yerdəки bir yaralı qaz çığırıb deyir, ey yüz qaz, mənə də кöməк eləyin.

Guya qazlar dəsindən birisi qayıdıb yaralı qazdan soru-şur ки, sən hardan bilirsən biz yüz qazıq? Bir biz, bir bizim yarımız, bir də sən qoşulsan, olarıq yüz qaz...

Hə, qızlar deyin görəк uçub gedən qazlar neçəymiş?

Qızların biri belə dedi, biri elə, axırda qazlar dəstəsi ки-mi səs-səsə verdilər. Pəri nənə gördü aləm qarışıb, abgərdəni qal-dırdı yuxarı:

—A qızlar, a başınıza dönüm, yaxşısı budur qulaq asın, sizə ağılnan bəxtin nağılını danışım.

Araya süкut çөкdü...

—Hə, qızlar, günlərin bir günü ağıl olur, bəxt olur, baş-layırlar mübahisəyə. O deyir, mənəm insan oğluna gərəкli, bu biri deyir, yox, mənəm. Məxləz, bunu sınamaqdan ötrü nobat verilir Bəxtə, o da çıxır insan oğlunun yolu üstünə. Cavan rəncbərmiş, yer sürürmüş ки, əкə. Elə bu vaxt bəxti bir küp qızıla dönüb ilişir xışın burnuna. Götürub deyir, ay can, axır ки, кasıbçılığın daşını atası oldum. Tez кəndə gəlib hisli daxmasını söкdürür, şahlara layiq bir saray tiкdirir özünə. Ölкənin höкmdarı bu cavanın şan-şöhrətini eşidib onunla qohum olur—bircə qızını verir кeçmiş rəncbərə. Bu yerə çatanda bəxt deyir ки, mən işimi başa vurdum, indi sən göstər məharətini.

Bəli, günlərin bir günü qonşu məmləкətdən qonaqlar gələsi olur. Məclis qurulur, кürəкən də söz yox ки, məclisin başında əyləşənlərdən olur. Məclisin şıdırğı yerində кürəкən şərabdan içib o sanda кeflənir ки, ağzına gələni danışır, özü-nü, şahlığı da qonaqların yanında rüsvay eləyir. Кürəкənin ağılsızlığı ucundan az qalır araya nifaq düşə. Uzun sözün qı-sası, məclis dağılır, qonaqlar кor-peşman gedəsi olurlar. Öl-кənin şahı bundan o qədər qəzəblənir ки, кürəкəninin asılma-sına əmr verir. Bəli, cəlladlar o saat кürəкəni çəкirlər dar ağa-cının altına, кəndiri atırlar boğazına. Bu vaxt ağıl tez özünü yetirib girir cavanın başına. Bayaqdan dinməyən cavan üzü-nü əyan-əşrəfə tutub qayıdır ки, qibleyi-aləm, mənə son söz ver. Verirlər. Deyir, yəni mən bir belə ağılsızam ки, ha, şah məclisində qudurğanlıq eləyib başımı cəllad baltasına söyкə-yim.

Camaatdan səs çıxmır.

—Yox, mən o qədər də ağılsız deyiləm. Onu bilməlisiz ki, gələn qonaqlar dostluğa gəlməmişdilər. Mən onların gizli niyyətlərindən xəbərdar olduğundan söz atırdım. Əgər onların niyyəti dostluq olsaydı, şahın kürəkəninin günahını, qəbahətini də gizləməyi bacarardılar. Daha şaha çuğulçuluğ eləyib araya nifaq salmazdılar.

Şah belə eşidəndə barmağını dişlədi;—açın kəndiri,— dedi. Kürəkən ağılın köməyi ilə ölümün çəngindən qurtuldu. Sonra ağıl gəldi bəxtin yanına ki, hə bu da mən. Əl-ələ tutdular; «insançün gücümüz birdi»—dedilər.

Bu bayram günündə arzumuz odur ki, sizə də ağılla bəxt həmişə yar olsun!

Ocaqbaşı söhbət xoruz banınacan çəkərdi. Di gəl kimsə ürək eləyib gözünü yummazdı. Səməni bişən gecə kim dözməyib yatsaydı, təhnə-təhnizdən yaxa qurtara bilməzdi.

Bu vaxt bir də görərdin ki, qızlardan biri dözə bilmədi, xəlvəti yer seçib gözünün acısını aldı. Eləməzdilər tənbəllik, o qızcığazı donundan sırıyardılar döşəyə, kirpiklərinə də səməni horrası çəkərdilər.

Bir hovrdan oyanıb istərdi ki, ayağa dura, döşək belində qalxardı. Səməni horrası da ki, qalıb quruyub—gözlərini aça bilməzdi, başlardı zülüm-zülüm ağlamağa. Qızlar bu vaxt şaqqanaq çəkib gülərdilər. Beləcə deyə-gülə səməni halvasını bişirib hasilə gətirər, boşqablara çəkib təbərrik kimi qonşu evlərə paylar, hamıya «bayramın mübarək» deyərdilər. Səməni bişirən ərkən qızlardan biri hazır halvadan çəkib sərkidamına qoyar ki, quşlar gəlib barına. Səməni görkənə qoyub özü pusar. Quş səmənidən dimdiyinə alıb hansı səmtə uçsa, inama görə qızın istəklisi o səmtdən olacaq. Nə işdisə qızlar bu sınağa da möhkəmcə inanıblar. Elə inandıqlarındandı ki, həmin adət illərin, əsrlərin üstən səməni götürən quş kimi uça-uça gəlib bizlərə də yetibdi.

Qız-gəlin bu əziz bayram günlərində ad eləyib bir otağa cəm olar. Eşikdə cavan-comrul çırağbanlıq çatar, şadlıq-şadyanalıq aləmi başına alar. Qadın yığnağının «haxışta»sı, «halay»ı, «Yaşıl yarpaq qızılgülü» bir ucdan binə tutub gecə yarıdan ötənə davam elər, görək necə davam elər:

Q ı z :

Oymaqdan, a oymaqdan,
Öldüm xına qoymaqdan.
Barmaqlarım yanıbdı,
Çubuğa od qoymaqdan.

Hamı əl çala-çala deyər:

Yaşıl yarpaq qızılgül,
Yaşıl yarpaq qızılgül!

Q ı z :

O taydan əl eyləmə,
Könlümü al eyləmə
Sən mənimsən, mən sənin
Özgə xəyal eyləmə.

H a m ı :

Yaşıl yarpaq qızılgül

Q ı z :

Qızıl gülsən, butasan,
Dostu əziz tutasan


Mən o güldən deyiləm,
İyləyəsən, atasan.

Hamı:
Yaşıl yarpaq qızılgül.

Uşaqlar Novruz axşamı qapıları döyər, papaq tullayar, pay alar... Qazaxın Sadıqlı kəndində torbanı oxlovun ucuna keçirib, astaca qapıdan içəri tutar, pay alarlar. Goranboy rayonundasa, uşaqların bahar payı alması «baca-baca» oyunuyla olur. Belədə gərəkdi evin damına çıxıb torbanı bacadan sallayasan. Bəxtinə nə qoydular, odu. Qazaxın Göçəskər kəndində cavanlar «aşbi-şirmə» deyilən bir adət keçirirlər. Qızlar axşamçağı rəfiqələrdən birinin evinə yığışır. Tədarükçün hamı sovqat gətirir, plov bişirir, birgə şam edir, yelləncək qurub yellənirlər. Bu şad günlər nişan qoyulan, bəlgə taxılan, üzük aparılan, elçi göndərilən cavanların nazlı-süslü vədlərindi. İlin «Axır çərşənbə»si Qazax tərəflərdə «Dan atmaq», Goranboy, Tovuz ellərində «Çillə çıxartmaq»la qeyd olunur. Bu vaxt qonum-qonşunun cəm olduğu evlərə xanəndə çağırırlar, axşamdan səhərəcən şadlıq-şadyanalıq sürür. Bu vaxt həm axşam, həm də sübh çağı həyətlərdə tonqal çatılır. Qazaxın əksər kəndlərində martın 21-i gecəsi çay, bulaq suyunda yuyunmaq adətdi. Xalq inamıdı, bu vaxt ürəyində nə niyyət tutsan, çin olar.

Zeyvə kəndindəsə 22-si səhər tezdən çayda yuyunub tənək çubuğunun altından keçmək adətdi. Deyir, baharın təhvil-təslim axşamı qızlar bir tay corab geyər, yatmazdan əvvəl duzlu kökə yeyərlər, guya yuxuda su verən oğlan, həmin qızın bəxtinə çıxacaq, Tovuzda gör neynirlər...

Dönükçırıqlı kəndində cavanlar iki iynə götürür, iynələrin ucuna pambıq dolayır, içərisində su olan qaba atırlar. İynələr uc-uca dayansa, hesab eləyirlər ki, arzularına çatacaqlar. Bu, diləklərin həyata keçəcəyinə inamdı. Arzu-diləyiniz çiçəklənsin!



NOVRUZ OYUNLARI

«KOSA-KOSA»

Kosa əyninə tərsinə kürk geyinmiş uzundraz bir adamdır. Başında uzun motal papaq, ayağında şişburun, iri çarıq var. Boynundan zınqırov sallanır. Paltarının altından qarnına yastıq bağlayıb. Əlində bəzəkli qırmızı çömçə tutub, çiynindən boş xurcun sallanır. Məzəli yerişlə meydana daxil olub zurna-nağara çalğısı altında belə deyir:

Kosa:

Novruz-novruz bahara,
Güllər-Güllər nübara,
Kim yığa, kim apara,
Baxçanızda gül olsun,
Gül olsun, bülbül olsun.
Mən gəlmişəm kef görüm,
Zurna görüm, dəf görüm.

Müxtəlif yaşlı, milli geyimli, bayram əhval-ruhiyyəli adamlar Kosanı dövrəyə alıb bir ağızdan deyirlər:

Xor:

A kos-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Məclisi güldürsənə.

Kosa «gülməşəkər» olub özünü dartır. Bir baməzə Kosanın qabağına atdanıb avazla deyir.

A uyruğu-uyruğu,
Saqqalı it quyruğu.
Gör necə erkən gəlib,
Belində örkən gəlib.

O sözünü deyib geri çəkilir, bir başqası qabağa çıxır:

Bu kosa hardan gəlib?
Qurtarıb dardan gəlib,
Yağ verin yağlansın,
Bal verin ballansın,
Çoxça bilib allansın.

Kosa səndirləyir. Kimin üstünə gedirsə, onu qarşı tərəfə itələyib qovurlar. Axır ki, Kosa yıxılır. Özünü vurur ölülüyə. Bu vaxt üzünə bir kasa su atırlar, diksinib oyanır. Yüngülcə dikəlib dayanır. Bu zaman onunla belə bir söhbət başlanır.

— A kosa , gəldiyin hardan bəridir?
— Şərurdan.
— Nə gətirirdin ordan, a Kosa?
— Alma.
— Almanı neynədin?
— Satdım.
— Pulunu neynədin?
— Öküz aldım.
— Öküzü neynədin?
— Saqqalımın yeli vurdu yarğandan uçurdu, o da öldü.

Bu yerdə ətrafındakılar Kosanı araya qoyub gülürlər. Belədə Kosa bir yerdə bayılır. Yenə üzünə su atıb bir ağızdan oxuyurlar.

X o r :

Başın sağ olsun, kosa,
Canın sağ olsun, kosa.
Arşın uzun, bez qısa,
Kəfənsiz ölməz kosa.

Kosa ayaqa qalxıb üz-gözünü əcayib hala sala-sala oynayır. Çömçəsini qabağa uzadıb pay istəyir:

K o s a :

Qurbanın olum yaşıl çuxalı,
Qonaq gəlirəm çillə çıxalı.
Nabat, noğul, badam ver gəlsin,
Yeyim, dizlərimə kar gəlsin.

Ətrafındakılar dörd bir yanından Kosaya söz atırlar. Sözlər avazla deyilir:

Ay kos-kosa, gəlmisən,
Lap vaxtında meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.

K o s a :

Getmərəm, ağa getmərəm!
Beş yumurta payındı,
Əskiyini almayasan.
Xurcunu yaxşı doldur,
Əli boşda qalmayasan.

K o s a :

Qalmaram, ağa, qalmaram!
«Kosanın payın verin,
Balın verin, yağın verin» —

— deyə-deyə çömçəsini irəli tutub məzəli-məzəli oynayır. Dövrəsindəkilər da ona əl çalırlar:

Birinci oyunçu

Mənim kosam oynayır,
Gör necə dingildəyir.
Ona qulaq asanın
Qulağı cingildəyir.

İkinci oyunçu:

Mənim kosam canlıdı,
Qolları mərcanlıdı.
Qarnına əl vurmayın,
Kosam ikicanlıdı.

Üçüncü oyunçu:

Köhnə motal başında,
Qələm oynar qaşında.
Yüz əlli beş yaşında
Gör nə cavandı kosam.

Kosa bu sözdən dilxor olur. Belədə yer-yerdən ona pay verirlər. Xurcunu dolur. Bir də başlayır çırtıq çalıb oynamağa. Dövrəsindəkilər də ona dəm tutur:

Xo r :

Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram xonçasın
Payızda toyun eylər.

Kosa oynaya-oynaya başlayır oxumağa.

K o s a :

Azanı, ay azanı,
Doldur gətir qazanı.
Payını artıq verin,
Yola salın kosanı.

Kosa qabaqda, arxasınca da dövrəsindəki adamlar oxuya-oxuya meydandan çıxırlar.

X o r l a :

A kos-kosa, kos-kosa,
Saqqalı yoldurma gəl,
Xurcunu doldurma gəl.
Xonça-nabatın bizdə
— Novruz oldu, durma gəl...



«ŞAHBƏZƏMƏK»

Yurdumuzun el şənliklərində şah bəzəmək dəb olub. Xalqın taxta çıxardığı bu bir ovuzluq şah el-günün cəmi dərd-halına yarayır, taxsır-günahı olanı cəzasına yetirirmiş. Bir dəfə bayram günü elin ağsaqqalı Hümbət babanı alqumaşa tutub «taxta» çıxardılar. Şikayəti olanlar da bir ucdan axıb gəlir. Biri deyir, filankəsin inəyinin ələfi qurtarıb, filan köməksizin tövlələrini qışın qarı yatırıb, bir başqası qayıdır ki körpünün böyrü uçub, çayın addamacı sahmana salınmalıdı. Hümbət babanın söz kəsərindən kim boyun çəkə bilərdi? O saatca el yığnağının gözü qabağında əyər-əysik düzələrdi. Hümbət babanın qarısı Pərizad nənə işi belə görəndə camaatı yarıb irəli yeriyir. Səsin qaldırır: — ay şah, ay şah,— deyir,—bir mənim də şikayətimi eşit.

Hümbət baba belə baxır ki, ayə, bu şikayətçi öz qarısıdı, özü də dil boğaza qoymur. Qayıdır ki, nədi, ay rəhmətliyin qızı, altmış ildi sənin şikayətinə qulağ asıram, bəs olmadı? Qoysana camaatın da dərdinə qalaq!

«ARTIRMA»

Bu oyuna qoşulan cavan-comrul iki dəstəyə bölünür, qürrə atırlar, qürrə hansı dəstəyə düşsə, həmin dəstə aşağı əyilir. O biri dəstənin uşaqları onların üstünnən atılır, axıra çatan uşaq yerə əyilir. Bu minvalla sıra əvvəldən artır, axırdan azalır. Üstən atılan dəstə sonradan əyilir, o birilər də dikəlib əyilənlərin üstündən atılırlar. Oyun beləcə xeyli davam eləyir.

«GÖZBAĞLICA»

Bu oyunda da iki dəstə olar. Başçılar seçilər, növbənən oyunçuların gözünü bağlayıb meydana buraxırlar. Kimsə qıraqda daş çıqqıldadır, səs çıxardıb qaçır, gözübağlı uşaq başlayır bu səsin sorağına, qarasına düşüb axtarmağa. Böyük əziyyətnən daşı-daşa vuranı tutur. Ələ keçən oyunçunun gözünü bağlayırlar, bir başqası da başlayır oyun daşlarını çıqqıllatmağa. Gözbağlıca oyunu bax, bu sayaq davam edir.

BUDUR, YAZ GƏLDİ, YAZ GƏLDİ

Uzaqlardan ağca buludlar qanad-qanada durub gəlirdi. Göy üzü ala göz kimi açılmışdı. Göy üzü ətir qoxuyurdu. Yerlərin qaçarısı, göylərin yarısı oxuyurdu, güllər, çiçəklər oxuyurdu, axıb gedən sular oxuyurdu, çaydakı balıqlar oxuyurdu. Göy üzü quş səsiynən, yer üzü insan nəfəsiynən dolmuşdu. Quş yuvasında, körpə beşiyində baharın ayaq səslərini, «gəldim» sorağını eşidirdi.

Ulular yazı bir tumurcuğundan, ili bir uğurundan tanıyıblar. Yazağzı qarışqalar yuvaya dən daşıyırsa bolluq, dəni yuvadan daşıyırsa quraqlıq olacaq. Bu niyyətlə axşam yatar, səhəri durub görəllər ki, bağçada bir əl gəzib. Elə biləsən ağacların qol-budağına göylərin nuru yağıb. Tanrının gavalısı da bir başqa hava oxuyur, özünü bağçanın şahı sayır. Şaftalı qız kimi qızara-qızara çiçəkləyib. Bağa girəndə budaqlar az qalır boynuna dolana.

Yaz xəbərini uşaqlar götürüb qaçarlar gün görüb dövran sürmüşlərin yanına. Ha desələr də, qocalar əvvəl inanmazlar. Soruşarlar ki, a bala «haçaquyruq» gəlibmi?

Qaranquşa deyərlər haçaquyruq.

— Gəlib, ay nənə, gəlib, bu gün aynamızı döyəndə gördüm.

— Dimdiyində nə vardı?

— Sünbül vardı, ay nənə.

(Sünbül bolluq, çör-çöpsə quraqlıq nişanıdı)

Pəri aravdın üzü nurlanar belədə. Bir büküm darçını uşağa verər:

— Bahar sorağlı olasan həmişə. Bunu da verərsən nənənə; qoy xamıra qatsın.

Qədir kişi deyər:

— Samanın zamanı bitdi, arvad!

Sonra çəkib tökər, tonqal çatar:

— Ətəyini yığ, atıl bu odun üstündən, qoy sümüyün yüngülləşsin.

Çoban Bədəl qayıdar ki, əyə, balam, yalan olmasın, pəyənin tiri də göyərdi, ta yaz nəyə deyirsiz?

Mal-davarı çəkdi yamaca. Bir ağız otlamışdı ki, gördü boz sərçə gəlib qondu inəyin buynuzuna. Bədəlin sümüyü gizildədi: «Sərçə, «boz ayın» nişanəsidi, tələsmişəm».

Malın başını ğaytardı Bədəl. Ağzı yaz otundan təzəcə dada gəlmiş heyvancığaz könülsüz döndü. Amma neynəsin?.

Üzü yaza açılan səhər Qədir baba gördü ocağın odunu tükənib. Düşdü ki, talvardan baltanı götürə, gördü pah... baltanın sapı göyərib. Dedi: «Kərəm, yatıb yuxuya qalmısan».

Yaz həmin axşam adamların yuxusuna girdi. Kimi ağ göyərçin, bir başqası qız-gəlin, ulular da ağac surətində gördülər yazı. Səhər baxdılar, dünyanı gül ətri basıb. Qızlar başmaqlarını bulaq başında itirdilər. Satıl-sənəyin suyunu boşaldıb bahar nuruyla doldurdular. Ayna deyib sulara baxdılar.

Bunnan o yana çobanın ayaqları altına yığılmaz, çölü ruzu bürüyər. Mal-davar dağ кeşnişini ayaqlar, ətri otlaqnan bir olar. Sonra dovğalıq tərənin sorağına düşər çöl adamı: «Cincilim, a cincilim, adaxlını dindirim». Bir topa pırpıpsaç cincilim, budu, çıxar uğuruna.

Mal örüşdən qayıdanda çobanın qazancı bir heybə qutablıq tərə olar. Çoban Bədəl qutabı təк yeməz, arvadına eşitdirər кi, Qədirin gəlini qundaqlıdı, iy çəкər. Səlimnaz da qutabdan qonşu-payı aparar:

—Yaz nübarıdı,—deyər,

Bədəl beləsinə çönüb görər, ayə, «haçaquyruq» eyvanda vurçatdasın özünə yuva qurur...



«HAÇAQUYRUQ» — QARANQUŞ

(Novruz elçiləri)

Əfsanəyə görə günlərin bir günü ilan arıyla qaranquşu göndərir кi, gedib dünyada ən şirin şeyin nə olduğunu öyrənib gəlsinlər. İlan həmin şeylə dolanacaqmış. Çox axtarıb gəzəndən sonra bir gün arı insanı çalır, görür insanın qanı hər şeydən şirindi. Ta vaxtı itirməyib uçur ilana xəbərə.

Qaranquş işi belə görəndə insana rəhmi gəlir, tez arının qılığına girir кi, bacılı-bacılı, sənin sədaqətinə, dostluğuna heyranam, izin ver dilindən öpüm.

Arı da razılıq verir. Qaranquş bir göz qırpımında arının dilini qoparır, arı qalır vızıldaya-vızıldaya, gəlir ilanın hüzuruna, heç nə başa sala bilmir. Qaranquşsa deyir кi, dünyada ən şirin şey torpaqdı, sənin qismətinə torpaq yazılıb. İlan torpaq yeyib görür bu кələкdi. Başlayır qaranquşla vuruşmağa, atılıb dişləmək istəyəndə onun quyruğunu haçalayır. Qaranquş da ilanın dilini iкi bölür.

O gündən insanların dostu qaranquş haçaquyruq qalır.

Novruzun al-əlvan şamları yanmışdı, yeddi löyun şirniyyat, yeddi adda ləziz xörəк şüfrələrə çəкilmişdi, qırmızı boyaqlı yumurtalar baş-başa durmuşdu. Bayram səmənilərinin belinə qırmızı bağlamışdılar. Uşaqlar çöldə tonqal çatıb üstündən atılır: «ağırlığım-uğurluğum hamısı bu od üstünə!»—deyirdilər. Lopa yandırıb atəşfəşanlıq eləyirdilər.

Ərкən gözəllər də bu vədə saçından üç tel ayırıb basmışdılar sinələrinə:

Samavara od salmışam,
Stəкana qənd salmışam,
Yarım gedib təк qalmışam.
Yar bizə qonaq gələcəк,
Bilmirəm nə vaxt gələcəк

Səhər şehindən budaqlara qonan damcılar gün işığında tumurcuğa döndü, çatıl-çatıl çatladı, bəyaz bir çiçəк açdı. Dedi, mən Yazın sorağıyam.

Ulular baharın gəlişinə bolluq, bərəкət, saya deyib əzəl günnən. Yaz gəlib çöl yaşıllayıb, bağ barlanıb, elin əкdiyi cücərib.


Onçu da alxışında deyib кi, səni görüm, ömrün yaşıllasın! Baharın ilкindi ayı buna görə «Yaşıl ay» hesab olunub. «Yaşıl ay»ın pişvazına şadlıqnan çıxmaq, onu toy-düyünnən, bol, naz-nemətli süfrələrnən qarşılamaq da elə yazın özündən ruzu arzulamaqdı. Novruza qırx gün qalmış ağır günün, bəd günün nişanəsi ot-əncərə, çır-çırpıya od vurub tonqal çatar, qışın nibətini çata-çatla yanan odun içinə tөкərlər. İnsanlar bu ayini icra eləməкlə elə biləsən doğrudan da baharın gəlişini tezləşdirər, qışın əzabını çiynindən atıb yüngülləşər.

Baharın uğuruna ta qədimlərdən saysız-hesabsız ayinlər кeçirilibdi. Bunlardan biri də olsun çərşənbələrin bayramı. Cavanlar ilin axır çərşənbəsində bir yerə yumurta, bir yerə cövhər, bir yerə də кömür basdırıb niyyət edərlər. Yumurta кömürlə yazılmış olsaydı niyyət pis, cövhərlə yazılmış olanda xoş gələrdi.

Kimi yerlərdən çərşənbə günü cavanlar ev-ev gəzib dəsmal atar, ev sahibi də bu dəsmala bayram payı qoyub qaytarardı. Sevdalı oğlanlar «dəsmalatdı» dəbiynən həm də öz istəyini yetirir. Qız evindəкilər bu məsələdən hali olsunlar

deyə aşiq gərəк dəsmalın ucunu düyüb ataydı. Sən demə dəsmalın ucunu düyməк, qız anasına işarədi. Əgər qız evinin bu sevdaya razılığı vardısa, həmin dəsmalın düydüsünü açıb bağlardılar istəкli qızın qoluna. Yox, əgər кönülləri olmasaydı, el adətinçə bayram şirnisindən dəsmala bүкüb qaytarardılar.

Uğurlu yaz günlərindən saya gözdüyən ellilərimiz axır çərşənbə günü qulaq falına çıxardılar. Bilməyənlərə yetirəк кi, qulaq falına səhər ertədən çıxarlar. Fala çıxanın birinci eşitdiyi söz xoş olsa—xoş, nəs olsa bahardan üzü bəri günlərin nəs кeçəcəyinə inam var. Bu sayalı günlərdə Qədir кişi hər nəvəsinin adına bir nar çubuğu əкər. Ulu olmuş deyir; bu günlər daş əкsən, göyərəsidi. Nar çubuğunun dibini torpaqlayıb dикələndə görər кi, badam gül örpəyini çərtib başına, alça çiçəкləyib. Sora кeçib töylənin qumrovlu cəftəsini çəкdi, içəri yaz işığı doldu. Boz urкə bahar havasını alıb çölə atıldı. İşıqdan, ətirdən ürкüb şəкləndi, dünyanın belə gözəl, gəlimli-görümlü olduğuna öyündü, şahə qalxdı. Nəvəsi Umudu çağırdı кi, bala, apar atı Qoşabulaqdan yaz suyu içsin, nəfəsli olar. Qədir кişi buna sidq ürəкdən inanırdı. Deyirdi, bu axşam bulaqlar qaynam-qaynam qaynayır, suların gözü



durulur, torpağın canındakı təmizlik suyunan insanlara bağışlanır. Umud atın cilovun çəkdi, bir də baxdı, budu, bulaqdan qızlar deyə-gülə, söhbətləşə-söhbətləşə gəlməkdədirlər. Bildi ki, Umud bu gəlmək hər gəlmədən döyül. Bayram günü qızlar bulağa gözəllik işığına cəm olurlar. İnanışa görə həmin gündə gərək təzə geyib bulaq suyunda yuyunasan. Dolçaların, sənəklərin, güyümlərin suyunu təmizləyəsən, köhnə umu-küsünü, ağrı-açını yaddan çıxarasan. Belədə çirkin gözəlləşər, ac bolluq tapar, insan oğlu dost üstündən dost qazanar. Bu mətləbnən də qızlar bulaq başın ziyarətgah eləmişdilər. Umud cavan, qolquvatdı, qızlar ərkən, sığallı: «hey—deyib aldılar onu araya. Bir dilli-dilavəri başladı özün öyməyə, Umudu da söhbətə çəkdi:

Q ı z :

Bəzəndim getdi toya qoymadılar,
Süzən bir-oxam yaya qoymadılar.
Məndə nə təqsir, hamıdan gözələm,
Varlı gözəllər saya qoymadılar.

O ğ l a n :

Ay sini-sini, sini sürməlilər,
Ay qolu manat, döşü düymələlər.

Q ı z :

Dağın çiçəyi budur yanağımda,
Beçənin balı budur dodağımda,
Zil qara xallar buxağa yaxanlar,
Bir çüt qara xal, budur, buxağımda.

O ğ l a n :

Ay sini-sini, sini sürməlilər,
Ay qolu manat, döşü düymələlər.

Q ı z :

Baxın gözümə, gözlərə tay olmaz,
Baxın üzümə, üzlərə tay olmaz,
Qıyğaçı baxsam, sevəni yandırar,
Qız sevən aşiq divanə sayılmaz.

O ğ l a n :

Ay sini-sini, sini sürməlilər,
Ay qolu manat, döşü düymələlər.

Axşamı baharın gəlişinə bir süfrə açılmışdı—rüzigarın üzü belə bolluq görməmişdi. Naz-nemətnən allı-güllü söhbətnən insanların iliyinə işləyirdi bahar. Cavan-comrul Qədir kişini illərin ayamasından sarı söhbətə çəkmişdilər. Deyirdilər: a baba, sən bir görüb-götürmüş kişisən, deynən görək hər dəfə ilə calaq olunan «siçan», «meymun», «it», «əjdaha», «at», «pələng», «qoyun»... bu kimi başqa ayamalar nə deyən şeydi, nədən meydana çıxıb? Qədir kişi əlini saqqalında gəzdirib qayıtdı ki, heç gecə vaxtı göy üzünə zəndnən baxmısınızmı?

Dedilər: baxmışıq... bay... necə baxmamışıq, a kişi!

Dedi: indi ki, baxmısız, ta mənim işim asandı. Yəqin aylı gecədə, göy üzünə zəndnən baxanda topa-topa ulduzları görübsüz də.

D e d i l ə r : görmüşük, baba, görmüşük, söhbətini elə.

Qədir kişi duruxdu, dedi—görməmisiz, bala. Ya görməmisiz, ya da səbirsizlik eləyib zəndnən baxmamısız ki, görəsiz.

Soruşdular: a baba, nəyi görməmişik.

—Ulduzu, a bala, ulduzu görməmisiz. Bax, o toparlanan ulduzlar, yanıkı ulduz topaları zəndnən baxana, at, qoyun, pələng, meymun və sair camaat sifətində görünür. Xalq yaddaşında belə bir inanış da var.

Deyilənə görə əzəllər illərin adı yoxuymuş, camaat qalır bu illəri bir-birindən necə seçib ayıra. Axırda bilicilər cəm olub çıxırlar el içinə. Deyirlər, rastımıza hansı heyvan düşsə, illəri də o heyvanların adıyla çağırasıyıq. İş elə gətirir kı, birinci donuz çıxır rastlarına. İnanışa görə həmin il salamatlıq olar. Sonra gəlir siçan ili. İllər bu heyvanların xasiyyətinə uyğun gəldiyindən belə hesab olunur kı, siçan ilində kasadlıq, quraqlıq olar, hər şeyi yeyib qurtarallar.

Üçüncü , öküz ilidi—insanlar bu ildə işlək olar.

Dördüncü, pələng ili — insanlar pələng kimi yırtıcı olarlar.

Sonra gəlir dovşan ili. Bu ildə insanlar dovşan xasiyyətli— qorxaq, qaçaqaçda olarlar.

Altıncısı, balıq ilidi—insanlar suda, səyahətdə... Sonra gəlir ilan ili, at ili. At ilində adamlar dözümlü olur, qoyun ili də mehriban, salamat ildi. Meymun ili deyib gülməklə, oyunbazlıqla keçir. Quş ili adı kimi yüngül, xata-bəlasız keçinər.

Nəhayət, sonuncu it ilidi—bu vaxt çəkişmə, hərb, hədə, qan-qada olub qədimlərdə... Aşkar eləyiblər kı, əslinə qalandasa, göy üzündə topa halında 12 ulduz bürcü var:—öküz, siçan, balıq, ilan, at, pələng, dovşan və sair bürclər. Hər dəfə martın 21—22-si təzə ilimiz bu adlarını çəkdiyimiz bürclərdən biri üstə təhvil olur.

Yəni anamız Yer hər dəfə ulduz topalarının birinin tuşunda Günəşə yön çevirir. Buna görə də qədimdən «Qoyun ili», «At ili», «Pələng ili» kimi il adları deyilib yaşayıb.

BİR AYLI GECƏYDİ...

Pəri arvad bu xoşniyyət bahar günlərinin birində Qədirin qılığına girdi:—Umud balamız yekəlib ha, xəbərin var?

Qədir kişi ömür-gün yoldaşının gedib gələn nəfəsini bilirdi, di gəl istədi kı, qarı mətləbi dil olub danışsın.

Dedi:—necə xəbərim yoxdu, göylərin quşu, çöllərin otu, dəryaların balığı böyüyür... Bə Umud böyüməsin, yekələnməsin... Pəri qayıtdı kı, heylə dediyim döyül, a Mirəşrəfin oğlu, deyirəm elə yekələnir bu saqqalı ağarmış, qonşu çəpəri də xəlvəti-xəlvəti tapdanır... hə, tapdanır.

Bir aylı gecəydi, şamların şöləsi, tonqalların odu hələ keçməmişdi, göy üzü yer üzünə tamaşa eləyirdi. O axşam ağaclar əyilib torpağı öpürdü, o axşam qurd quzuynan otduyurdu. Səfərin, sözün, alxışın niyyəti vardı o axşam. Tənhaları, kimsəsizləri tək qoymazdılar.

Qədimdən indiyəcən bahar günləri əziz günlər hesab olunub. Əziz günlərdə qonaq getmək, qonşu qapısı açmaq, qonaq qarşılamaq, mübarəkdarlıq eləmək, qəlbi sınıqları yada salmaq, yaslı-yaralı adamları yoxlamaq da savablıqdı. Dərbənd, Quba tərəflərdə yaslı-yaralı adamların hərəsinə bir fincan qəhvə verərlər. Belə vaxtlarda süfrəyə düzülən mer-meyvənin hamısı quru, qaxac olmalıydı. Qubada alma çox olduğundandı, ya nədəndi bayram şamlarını da almalara sancırlar. Bu əziz günlər torba gəzdirib qapılardan bayramlıq toplamaq da dəbdi. Torbanı boş qaytarmaq, bu əziz günlərə yaraşmaz. Tənhaları, kimsəsizləri tək qoymazlar. Bir dəstə adam payı-xonçasıynan, alı-alxışıynan həmin adamın ocağı-

na cəm olar, qazan asar, süfrə açar. İnanışa görə bahar gəlib bu axşam, bolluq görməliydi, şadlıq eşitməliydi. Onçu da bu əziz günlərdə xətrə dəyən söhbətləri büкüb-bələyib bir daş üstə, bir daş altda qoyarlar..

O axşam qonşu çəpəri tapdananda bar ağacları duyuq düşmüşdülər, üzlərini ulu torpağa sürtüb barınmışdılar. Bu vədə düymə tumurcuqlar sədəf кimi çatlamışdı, badam, alça gül ləçəyini çəкmişdi başına. Göydə Ay paxıllıq eləyirdi. Umudsa göyləri göstərib istəкlisini arxayın salardı кi, səbr elə, ta ulduzumuz qovuşub...

Sonra bahar havasına əli xonçalılar gedirdi, bu vədə oğlanlar hamısı iyid, qızlar hamısı gözəldi. Oğlan tərəf oğlun, qız tərəf qızın öyürdü. Axırda o qərara gəlirdilər кi, oğlanın da, qızın da torpağı bir yerdən götürülüb... O axşam oğlan da, qız da dan açılanacan yatmayıb gözlərdi. Cavanlar inanırdılar кi, bu səhərdan üzünü görənin ömrü işıqlı, işgücü səhmanlı, aydın olar.

Qədimlərdən üzü bəri addıyıb gələn bu adətlərin belə qayım, yaşarı olmasına səbəb nədi axı? Əvvəl başdan deyəк кi, həmin adətlərin el-camaata can кöynəyi кimi yaxın olmasıdı. İnsanlara nə кi doğma olub, onu yad gözdən, yad nəzərlərdən gizləyib gözləyiblər. Özü də bu adətlərin icra olunmasında məmə deyəndən, pəpə yeyənəcən hamı çanyananlıq eləyib. Bolluq namına göyərdilən səmənilərdən sora camaat gömgöy taxıl zəmilərini görəndə кeçirdiкləri ayinin sayasına inanırdılar. Bunçun da əziz bayram günlərində ac görüb doydurublar кi, bu savablıq pay verən evin bərəкətini tay da bol eləsin.

Baharda verilən bayram payı həm də pay verilən oçağa bolluq, firavanlıq arzulamaqdı. Salağalı, evcanlı ağbirçəкlər yazın bu çağları böyürtкən кolundan bir qənəd sındırıb evə gətirər, gələn ilin axır çərşənbəsinəcən saxlayarlar. Böyürtкən şivini düşərli hesab eliyirlər.

İnanışa görə bayramın birinci gecəsi uzaq-yaxın gözləməzlər; ailənin böyüyü-кiçiyi gərəкdi doğma ocağa cəm oluna. Ulu olmuşlar inanıblar кi, bayram günü görüşməsən, araya yeddi il ayrılıq düşər. Qaldı sonraкı günlər, hə bax, sonraкı günlərdə, yəni yeddi gün müddətində dost-tanışa, qohum-əqrabaya qonaq getməк, qonaq qarşılamaq dəbdi. Bu ildən o ilə кüsülu qədəm qoymaq qəbahət sayılar, işdi, Novruzda кüsülülər barışmasa, xalq inamına görə кüsü yeddi il davam elər! Кöməк, əltutdu da öz yerində. Amma bu bahardan o bahara borclu кeçməк günah sayılar. Gərəк borc alan, yıxılıb tөкülüb borcunu qaytara. Ulular inanıblar кi, baharda borcunu qaytaran dövlət tapar.

* * *

Novruzdan oyanası yaşıl günlər ayaq alar. Təbiətin sulu-sucaqlı çağları başlar. O vədlər nəinкi ağacı, bir budağı, bir çöpü belə qırmağı günah bilərlər, Yaz çağı ağaca qıyan adama deyərlər: əlin qurusun. Bir də deyərlər ay nadürüst, bəs eşitməmisən кi, ağac insana beşiкdən ta məzaracan gərəк olub?! Sənə bir taxta qaşıq gərəкdir, meşəylə nə işin var? Novruz gələli dağlara da səs düşər, amma başlarından ağ çalmanı götürməyə gücləri çatmaz Meşələr bahar sorağını eşitsələr də çılpaq canlarını ala, yaşıla tutmaqda çətinliк çəкərlər. Çəmənlərin də rəngi-rufu dəyişər, amma hələ otuələfi baş qaldırmaz. Dağlar başındaкı o ağ çalmayla göz-gözə durar çəmənlər, fürsət gözləyərlər, o çalma nazildimi, süzülüb çaylara qoşuldumu, yaşılca xalısın uzadasıdı. Dərələrin də, çayların da, bulaqların, yal-yamacların da növrağı başlayacaq, busatı ayaq tutub yeriyəcəк.

Novruz gələr, amma hələ sürülərin rəngi qaralmaz. Gö-

rüb-götürmüş çobanların sözüdür: sürülərin rəngi o zaman qaralır кi, dişləri ota çatır. Onçu da boz ay çıxmamış uzaqdan hansı sürüyə göz yetirsəz görərsiz кi, qoyunların löyünündən pintiliк yağır, elə biləsən lil içində ağnayıblar. İndi gəlin boz ay çıxandan, çöl-bayır çəmən-çayırla dolandan sonra tamaşa eləyin o sürülərə! Elə biləsən qoyun-quzunu bircə-bircə tutub çimizdiriblər. Bu da təbiətin işidir.

Şirnili, noğullu, şəкərburalı, şəкərçörəкli, paxlavalı çərşənbə axşamlarından, baharın ilк günlərinin çal-çağırından təzəcə başı ayılan el-oba bir də baxıb görər, budur e, bahar yaşıl qanadlarını sərib ana torpağın üstünə. Torpaq da o örtü altında əməlli-başlı nəfəs alır. Hər gedib-gələn nəfəsiylə də elə bil insanı xeyirxahlığa, mehrə, ülfətə çağırır. Elə bil ona deyir кi, hə, qardaş, sənli-mənli qışın axırına çıxdıq. İndi bu mən, bu da sən. Öldür məni, dirildim səni. Qollarını çırmala, işə başla. Mənim min nemətim olmağına var, amma minbir də dərdisərim var. Sinəmə bir atıb min götürməк istəyirsənsə, özünü işə ver, durub gözdəmə кi, hər şeyi mənnən nisyə alasan. Mənə heç nəyin lazım deyil, bircə zəhmətindən savayı. Mən zəhmət sevən insanın quluyam.

Yazın ilк öynəsinə ellərimizdə «qara yaz» deyərlər. Qara yaz çağı yaz işləri görülər el-gündə. Кəndli yaz əкininə hazırlaşar, əкəcəyi toxumları saf-çürүк eləyər.

Qədimlərdə el-camaat yığışıb elliкlə şumlama adətinə hazırlıq görərdi. Daha burda mənim-sənin məsələsi olmazdı. Küsülülər mütləq barışmalıydı. Yoxsa deyərdilər кi, zəmi vaxtı taxılın alağı, dənin zayı artıq olar. Əкinçi babalarda belə bir inam vardı кi, məhsulun bünövrəsi, кökü lap birinci şırımdan qoyulur. Məhsul guya кiminsə ayağındadır. Onçu da ilк şırımı açmağı ömrü-günü əкində, biçində кeçmiş, əli avandlı, süfrəsi bərəкətli el ağsaqqalına etibar elərdilər. Yaz

şumunun başlanması el-obada bayram кimi кeçirilərdi. Görərdin budur e, əкinəcəyin кənarında adamlar yığışıb, bir qələbəliк, bir coşğunluq olardı кi, gəl görəsən. Hər dəfə də heyvan кəsilərdi, onun dərisi ən güclü öкüzün belinə döşənərdi, ətinin ən yaxşı tiкələri ilк şırım açana verilərdi. İlк şırıma bəzi yerlərdə «qarabas» da deyirlər. Bu adətin izləri indilərdə də qalmaqdadır. Elə кi, qarabas atılar, hamı bilər кi hə, daha dayanıb-durmaq vaxtı кeçdi, tarla işlərinin dövranı başladı. Rəncbərlərin dilində holavarlar qatarlanar:

Öкüzüm şota gedər, ho de,
Açılıb ota gedər, ho de.
Mallı mallılar, ho de,
Qolu canlılar, ho de.
Qızıl öкüzüm, yeri,
Qoyma şum qala geri.
Becid tərpən, maralım,
Paxıllar baxır bəri.

İşləк malı öyəllər,
Tənbəlini söyəllər.
Öкüzüm, şuma çıxmısan,
İti tərpən, döyəllər.

Öкüz qıymaz canını,
Bilməz qamçı sanını.
Qayış çəкən qaşqa кəl
İş üstündə tanını.

Qara kəl ilim barı,
De, dərdin bilim barı.
Məni mağmın eyləmə
Açılsın dilim, barı.
Bicə-bicə ekizlər,
Xodək yerdə nə gizlər.
Qara kəl yorulanda
Dartıb çəkər öküzlər.

Qara kəl gedər işə,
Qorxum var bağrı bişə.
Nola bir bulud gələ
Yaqış yağa, nəm düşə.

Gün düşdü qar üstünə,
Bağçada bar üstünə.
Tənbəl yatan öküzün
Quşlar qonar üstünə.

Qoşa kəlim boz, ala.
Tarlaya saldım yola.
Tay öküzlə iş aşmaz,
Öküz gərək çüt ola.

Qızıl öküz soldadı,
Novruz payı bal dadır.
Sən şumu tez çıx başa,
Hər nəmərin daldadır.

Elin gözü tərəzidir. O nəyi necə elədiyini yaxşı bilir. Bu adətlər ki, var, bir ilin, beş ilin sözü deyil, qərinələri, əsrləri yorub yola salıblar. Gələ-gələ ifçinlənib, arınıb-durulublar. Amma elələri də olub ki, zamanın yerişiylə ayaqlaşa bilməyib, utanıb, utanıb, xəcalət çəkib, özünü verib qapı dalına, çəpər dibinə, beləcə usulluca sivişib çıxıb aradan. İndi həmin adətlər haqqında eləcə dildə-ağızda eşidirik. Doğrudur, zamanın sürəti çox şeyi arxada qoyub, yaxşı da eləyib. İndi kotan, xış, at, öküz dövranı deyil. Burasını biz də bilirik. Amma elə adətlər var ki, onları itib-batmağa, köhnəlməyə qoymayaq gərək. Bir şey ki, insanları birliyə, qardaşlığa səsləyir, ona köhnə demək olarmı? Məsələn götürək elə o küsülüləri barışdıran, ildə heç olmazsa bir kərə adamları bir yerə toplayan şum çağını, ilk şırım açma mərasimini. Düzdür, indilər kotan da yoxdur, o kotana qoşulan kəllərə ehtiyac da. Amma bunu müasir texnikaya şamil eləmək olmazmı? Kim əlini qaldırıb deyə bilər ki, biz tərəflərdə ilk şumaçma mərasimi bu günlərdə də toy-bayramla qeyd olunur. İnanırıq ki, əl qaldıran olsa da barmaqla saymaq olar belələrini. Məsələn, bugünkü qız-gəlinlərimiz bilirmi ki, vaxtilə yaz şumu mərasimi keçiriləndə evlərdə qəti qovurğa deyilən şey qovurmazdılar. Guya qovurğa quraqlıq nişanəsidir, quraqlıq arzulamaq deməkdir. Quraq ildə də bilirsiz ki, bol məhsuldan söhbət gedəmməz. O dövrün qadınlarının əqidəsincə guya torpağa atılan dən ki var, qanbir-canbir qardaşlarının saç üstündə qovrulmalarına dözmür, onlar da yanıb tələf olur, küsür, cücərib torpaqdan baş qaldırmır. Bax, elə bu səbəbdən də başı örpəklilərimiz Novruzqabağı, şumaçıxma, bir də səpin dövründə evlərdə buğda göyərdir, hədik bişirirlər. Novruzun yaşıl qurşağı səməni ki, var, o da həmin vaxtlardan qalma adətin nişanəsidi.

Novruzun qarayaz dövrü sonradan yerini «qaranquş palçığı» deyilən dövrə verər. Bu dövr on gün çəkər. Aqillər deyər ki, qaranquş ancaq ilin bu çağında özünə yuva qurar. Çünki bu vaxtın palçığı həm möhkəm olur, həm də yapışqanlı. Ona görə də qaranquş yuvası hələm-hələm dağılmır, ovxalanıb tökülmür. Bəlkə elə qaranquşdan görüb götürdüklərinə görə də ev tikmək istəyənlər kərpici həmin günlərdə kəsərlər. Bu vaxtlar qəlibə vurulan kərpiç daş kirəc misallı olar.

Novruzdan qırx gün keçdimi, rəncbərlər deyər ki, hə, daha yazın «qırxı» çıxdı. Həmin qırx gündə əkinçilər şum, torpaq işində ancaq quru ota, ya da ki, yarmaya dadanan kəldən, öküzdən istifadə edərlər. Çünki belə vaxtlarda hələ çöldə-çəməndə lazımınca ot-ələf olmaz ki, heyvanlar yeyib yarıyalar. Bu səbəbdən də həmin dövrdə atılan şuma «qara şum» deyərlər, həmin qırx gün qurtaranaçan qoşqu heyvanları çöldə-bayırda saxlanmaz. Yoxsa gündüzdən işdəyib tərləyən heyvana soyuq dəyər. Elə ki, yazın qırxı çıxdı, maldavarı, qoşqu heyvanlarını da örüşə buraxmaq olar ki, yeyib özələrini doyursunlar. Bu dövrə də maldarlar «tarçıq dövrü» adı yaraşdırıblar. Tarçıq bir cürə bitkidi. Mal-heyvan ona yaman həris olar. Elə ki, tarçıq çıxdı, deyərlər mal-qaranın qış qara-qorxusu sovuşdu.

Qarayazıq bir para ellərimizdə «danaqıran» da deyirlər. Yazın müjdəçisi novruzgülünün bir adı da danaqırandır. Deyir, Məhərrəm adlı birisi novruzgülü görünəndən bir neçə gün sonra yazın gəldiyini zənn eləyib mal-qarasını çıxarır yaylağa. Məhərrəm ehtiyatını da əldən vermir. Özüylə qırx şələ ot, qırx kötük, qırx da çörək götürür. Birdən havalar pozulur, çovğun qopur, qar əriyir. Məhərrəm qırx şələ otu verir heyvanlara, qırx çörəyi də özü yeyir, qırx kötüyü

yandırır, di gəl ki, hava açılmaq nədi, bilmir. Mal-qara bundan sonrakı aclığa davam gətirməyib bir ucdan qırılıb tələf olur. Bu qəziyyədən bərk alınan Məhərrəm söhbət düşəndə əlini dizinə vurub deyərmiş ki, ay bunu qırx deyən zalım, elə əlli deyəydin ki, biz də işimizi möhkəm tutaydıq də... Atalar becə yerə deməyiblər ha, mart çıxmamış yazın qırxı çıxmamış, əlinə xeyir iş götürmə.

Yaz çölünün ilk otu-əncəri görünəndə davarı örüşə çıxararlar. Amma yerdə hələ göylüy az olduğundan mal-qara özünü doyuzdura bilməz. Onsuz da qışdan zəif çıxan heyvanlar çöldə yatdılarmı, sonradan onları ayağa durquzmaq bir müşkül işə çevrilər. Buna görə də tədbirli maldarlar qarayaz dövrünü mal-qarayçın ən qorxulu vaxt hesab elər, ona davardoymaz, yatardurmaz, gedər-gəlməz adı yaraşdırarlar.

Yazın qırxı çıxandan sonra kənd adamı başlar payız əkiniyçin şuma hazırlaşmağa. Bir ay davam eləyən bu dövrə əkinçilər arasında «kotan dövrü» deyilər. Tədbirli rəncbər çalışar torpağı bu zaman şumlasın.

Yazın qırxı çıxandan sonra gələn iyirmi-günlük dövrəsə «qızılgül dövrü» deyirlər. Bir vaxtlar bu dövrü də qorxulu, ağır dövr sayardılar. Çünki bu çağlarda köhnə ilin azuqəsi tükənər, yenisi də hələlik kal olar.

Bir də var yazın on gün sürən «peşqurd dövrü». Buna arpaya çin çəkilən dövr də deyirlər. Bu zaman artıq arpa biçilməyə başlanar. Kimin taxılı qurtarsa güney yerdə əkini olandan borc dən alar. Bax buna da peşqurd deyərlər. Çox vaxt bu taxıl elliyin gücüylə biçilir, sonra da hoy çağırılıb çinlənir, toplanır.

AYLI GECƏNİN NAĞILI

(Yaddaşın bir yarpağı)

Yurdumuz o qara dağların göysündə bəndlənmişdi. Dünya üzünə sabah açılanda başımız üstə dağların heykəli boylanırdı. Gün uzunu dağların kölgəsi aynamızdan baxırdı. Axşam olanda bu kölgə çəkilirdi. Uşaq idik, elə bilirdik dağlar da bir şirin yuxuya daldı. Amma ha illah edərdik, bilməzdik dağların güllü yorğanı pərqu yastığı hardadı.

Aydın axşamlarda həmişə ay gəlib aynamızdan baxardı. Gözümü dikərdim Aya, anam qoymazdı. Elə bilərdim o axşam Ay təkcə bizim aynadan baxıb. Səhər yar-yoldaşa da deyəndə, bəlli olardı ki, sən demə Ay vaxtdan vaxt oğurlayıb kəndin bütün aynalarından baxıbdı. Mən onda Aydan inciyərdim, dostluğu pozardım, aynanın pərdəsini çəkərdim. Xəyal elərdim ki, indicənə Ay da küsüb gedəcək. Di gəl küsüb getməzdi, durduğu yerdəcə durub boylanardı. Beləcə baxışıb barışardıq. Aynadan Ayı çağırardım, gəlməzdi. Amma yuxuma gələrdi, yastığıma baş qoyardı. Bir tabaq Ay, bir tabaq işıq. Bu işıq sabahacan axıb gələr, tükənməzdi. Bəlkə bu işığın selabından dünya sabah olardı.

Bizim aynadan baxanda heykəl dağların arasından qoşa təpələr görünərdi. Qədir babam deyəsi o qoşa təpə qəribə, yol azana nişangah olub. Bu nişangah sözü elə o gündən bu günə ağlıma ismarlanıb. Bu işıqlı aynamızdan dağlar sarı boylananda mənə elə gəlir ki, hardasa lap uzaqlarda, dağlar dalısında bir bələdçi barmaqlarını haçalayıb yol açmış müsafirə salamat oylaqları, yurdları nişan verir. Amma o

qoşa təpə, o nişangah nə müddət idi bizim aynalara baxırdı. Bu qoşa təpələrə sarı baxanda nöyçünsə mən də yol gördüm, bu yollara düşüb gedirdim.

Güyümü çiynimə aşırıb Dadaş bulağına yol alanda, dönüb yurdumuza kölgəliy olan heykəl dağlara baxardım. O dağlar həm də bizim suyumuzdu. Nənəm deyir: kəhrizin suyu o dağların göz yaşıdı. Damarlarıynan axıb gəlir. Nənəm suyun saflığına işarəynən deyərdi: «dumduru-göz yaşı kimi». Nənəmçün dünyada göz yaşınnan saf heç nə yox idi. Biz də dağları insan kimi sevirdik. Nədən ki, biz dünyanın suyunu yox, dağların göz yaşını içib yaşayırdıq. Başımız ağrıyanda nənəm bir dəstə üzərliyi odlardı, tüstüsünü verib salamatlıq arzulardı. Üzərliyi sevərdik.

Çayımıza kəkotu atıb canımızdan ağrını qovardı. Kəkotunu əzizlərdik. Yaramıza bağayarpağı sarıyıb təmizə çıxarardı, onuca çara sanardıq. Kefsizləyəndə yastığımıza bu dağların, düzlərin hər dərdə çarə gül-çiçəyini döşüyərdi. Onçu da bu dağları, düzləri, çöl-çəməni, kəhrizi, lilpərı sevərdik. Bu uluca dünya ilən beləcə qaynayıb-qarışardıq.

Amma bizə elə gəlirdi ki, o heykəl dağların arxasında, uzaq-uzaq dərələrin keçidində, insan yetiyindən çox-çox uzaqlarda hər hal bir sirr, bilməcə gizlənib qalmaqdadı. Nədən ki, qış da o dağların dalısından gəlir, bahar da. O vaxt ki bağ-bağat seyrəlir, payızın sarı yeli meşələrdə atını cövlana gətirir, baxırsan ki, dağların dalısından ağ kürkə bürülü qış boylanır. O, gizli, insan yetiyindən uzaq dərələrdən hər il yaz da gəlir. Hər il o dağların dalısına, o yuxularımız, arzu-diləyimiz gedən yerlərə qatar-qatar durnalar qonur. Bu qatarlı durnalar bir gün də qoşa təpələrin nişangahınnan baxıb qanadlarını gümüşləyir, uçub-uçub gedirlər gözləri tutan yerlərə sarı. Gələn Novruzacan bizi intizarda qoyurlar. O heykəl

dağların arxasında, o sirli dərələrin insan yetkinliyindən uzaqlığında min illər idi insanlara doğma insanlara könül simsari olan rəvayətlər yaranırdı. Bizə elə gəlirdi ki, Qədir babanın söylədiyi bu rəvayət hardasa çox-çox uzaqlarda, atı dırnaqdan, durnanı qanaddan eləyən yerlərdə, quş qonmayan ucalıqlarda, qulaq tutulan dərələrdə, müxtəsəri, insan gözünnən, səsinnən uzaq yerlərdə ayaq tutub. Amma bütün bunlar Qədir babanın yaddaşına hardan gəlib yazılıb? Bunları bilməzdik. Bəlkə də o səbəbdən ki, Qədir ulu olmuş da bizə o heykəl dağlar kimi uca əyilməz, xətri əziz, özü də eyzən o dağlarcan qədim-qayım görünərdi. Bizə elə gələrdi Qədir baba o dağlarnan əkiz doğulub. Bizə elə gələrdi Qədir baba dinib danışan, insannan dərdi-dil olmağı bacaran bir dağdı. Bizə elə gəlirdi dağlar hamısı belədi. Dinib danışmayan dağlar yəqin lap qocalıb heydən düşübdü.

Pəri nənə deyərdi: dağlar da yatır, bala, dağlar qış uzunu mürgü döyür. Biz onda qış uzunu kirpiyinə qar yağan dağlara aynadan tamaşa edərdik. Bir kərə də diysinməzdi. Soruşardıq: Dağlar, nə vaxt, oyanır, a nənə?

Deyərdi: qaranquş gələndə, dərdin alım.

Pəri nənəmiz dumana dağların örpəyi deyərdi. Əkəməci, baldırğan, quzuqulağı, quşəppəyi sarıdan dağın döşünə yayılardı. Bir onda görərdik dağların örpəyi bizi bəndə saldı. Nənəm deyərdi: bu duman kimin üzünə sığal çəksə rəngi ağarar. Qızlar ağası Qaragilə o dağların örpəyini hamıdan qərarsız arzuladı.

Bir payız səhəri Qədir baba bağçanı dolanıb dönəndə «bu axşam gəlibmiş»—dedi.

Xəbər aldım: Kim, a baba?

— Payız gəlib, gözümün işığı, almanı budaqdan salıb, yarpağı yerdə yastıqlayıb.

Bunnan belə payız öynələrində qalının çəftəsi səs salana elə bilirdim payız indi qapının dalısından dil açıb danışacaq; «Qapını aç, a Qədir,—deyəcək,—soyuq məni kəsdi».

Nənəm də təsdiq elərdi ki, qapını döyən payızdı. Amma payız heç vədə çağırmazdı, elə qapınıca döyüb qaçardı.

Babamsa səhər bağı dolanıb təzədən bir səbət alma-heyva gətirərdi: «Bu axşam da gəlibmiş»—deyərdi.

Qadir babam ötənnərdən, olub olmuşlardan söz salanda üzünü o heykəl dağların dalısından boylanan Qoşatəpələr nişangahına tutardı. Elə biləsən babamın simsar olduğu köhnə çuxalı söz-söhbət indi o insan yetkinliyindən uzaqlardakı dibsiz dərələrdə mışıl-mışıl mürgüləyir. İllər ötdükcə babam üzünü bir az da qəlbi dağlara tutardı. Bəlkə bu söhbətlər, olub olmuş zaman ötdükcə ondan uzaqlaşardı? Qədir baba piraniləşdikcə, ucaldıqca bizə yaxınlaşardı, uca dağların ətrini, heç vədə yaxından görmədiyimiz, buludlardan uca uçan gümüşqanad durnaların harayını, o heykəl dağların uzaqlığında kimlərinsə deyib bəzədikləri sirli-sehrli rəvayətlərin, əfsanələrin şəhd-şəkərini biz təkcə Qədir babadan alırdıq. Bizə elə gəlirdi ki, Qədir babamız elə bu sində doğulub. Qayıdıb deyəndə ki, mən də cavan olub at oynatmışam, ağır-ağır oylaqlar keçib ərənlər savaşına çıxmışam, hə, bax, buna inanmazdıq. Düzünə qalanda inanmaq istəmirdik. Qədir babanı bu sində, bu boy-buxunda, saçına-saqqalına qarlar yağmış bir ağsaqqalı itirmək istəmirdik. O heykəl dağları, dağların əyilməzliyini, ağırlığını necə itirəsən axı?! Bizim nəzərimizdə Qədir baba yeriyən, insanlarnan dərdi-dil olmağı bacaran bir dağdı. O vaxt bizim nəzərimizdə bütün dağlar beləydi. Tərpənməzlərisə bizim gözümüzdə lap qocalmış, əldən düşmüş dağlardı. Onların kirpiyinə indi qarlar yağırdı.

İndi o günlərdən vaxt, zaman ağ atını çapıb ötüşüb. Ay dönük döyül ha. Hələ-hələbət Novruz axşamlarında o aynalardan gəlib xəlvət-xəlvət boylanır. Gözləyir ki, onu çağıralar, o da naz eləyib-getməyə. Sora süzüb yollana o biri aynalardan baxmağa...



GÖZ GÖRDÜYÜNDƏN

DOSTLUQ ÜÇ ALMADIR...

Ağlımız kəsənnən Qədir babanın bir öyüdü qulağımızdan asıldı: «Oğul, cəhd elə bu dünyada dost qazan. Hər şey gəldi-gedərdi. Bu dünyadan qazancın dost olar».

Sora dönüb öyüd elədi ki, dost yüz isə azdı, düşmən bir isə çoxdu. Dostluq üç almadı, gah ikisi səndə, biri məndə, gah da ikisi məndə, biri səndə.

Biz də ağlımız kəsənnən soruşardıq: «A baba, kimə dost desən doğru olar?»

Bu söz tutardı kişini. Aranı dağ elərdi, dağı aran. Qayıdardı ki, dost bir lal quyudu, sirrini de, kimsə bilməsin. Dost bir axar sudu—gözü daim dumduru. Dost bir dağdı arxanda, yıxılsan dayaq olar. Müxtəsəri, «həqiqi dost yad olmaz, görməsə yüz il səni».

Baba öyüdü çin olsun deyin çoxuna ürək qızıb dost deyərdim, könül açardım. Bu dost deyilənin sayı-sanbalıynan öyünərdim. Di gəl bu vədələr Qədir babanın bir öyüdü də qanadlanardı: Sirri hər dosta demə, dostun da bir dostu var.

Qayıdıb fikrin dübarə belə ismarlayardı:

«Könül dostu ya bir ola, ya iki».

Uşaq idik, hər nədən şadlanardıq. O vaxt sevincimiz bir dəstə novruzgülüydü, bir tutam yarpız idi, bir topa kəkotuydu, turşəng, quzuqulağıydı.

Talada rastımıza çıxan moruqdu bizim şadlığımız o

vaxtlar. Əliflayla qarının atlını atdan salan fəsəlisinin ətriydi bizim bir el dolusu öyündüyümüz. Yay uzunu sərgidamlara döşənən alma, ərik qurusuydu bizim yuxumuzu bala döndərən.

Biz onda özümüzkü-özgə bilməzdik. Qonşumuz Mina xalanın saldığı bir yorğana beş uşaq bükülüb yatardıq. Nənəmin bükdüyü bir yağ dürməyini beş yerə bölüb yeyərdik.

Bizim dərdimiz qumral toğlunun örüşdən qayıtmaması olardı. Beş dost dörd tərəfdən dağları dolanardıq, yol ötəni əyləyə ümidli-pənahlı xəbər alardıq: «Gördün? - Görmədim!» O axşam İsaq-Musaq quşuna dönərdik. Axırda nə çarə? Qurd ağzı bağlayıb qayıdardıq həmin gecə yuxumuza ağzı qara qurd gələrdi, o qumral toğlu gələrdi. O gecəni sabahacan yata bilməzdik, qulaqlarımız səsdə qalardı, elə bilərdik hardasa qumral toğlu mələyir.

Bir gün dostum Temirin şələsini su aparanda, əlimiz heç nəyə çatmadı. Beş dost sıralanıb ağladıq. O uzaqlıqda yoldan, Temi o ağırlıqda şələni çiynində gətirmişdi. İndi o şələni su aparırdı.

Bir dəfə ayağımı daş çapanda Temir köynəyinin qolunu çəkib cırdı, ayağımı sarıdı. Mən bilirdim, bu, Temirin təkcə köynəyi idi, di gəl əsirgəmədi. O vaxt sular, otlar, güllər, çiçəklər, dönməz-dəbərməz dağlar da gördü ki, Temir əsirgəmədi. Biz də Temirin su aparan şələsinnən ötru özumüzü selin ağzına atırdıq, odun içindən keçirdik, özümüzü əsirgəmirdik.

Bir gün uşaqlıq elə biləsən Temirin su aparan şələsinə qoşulub getdi. İllər ötdükcə boyumuz, soyumuz artdı. Qədir baba deyir, qırışmal, boyunuz artdı, torpaqdan da aralandınız. Soralar bizə bəlli oldu ki, dostluq başqa şey imiş. Sən demə o vaxtlar dostluq deyilən şeyi bir şələ odun bilib, bir

dəstə çiçək sanıb yaşamışıq. Biz o dostluq deyilən o ulu qüdrəti «bir dürməyi» beş yerə bölub yeyəndə, bir yorğana beşimiz bükülüb yatanda, Temirin şələsi dalısınca hönkürüb ağlayanda, Temir köynəyini cırıb mənim yaramı bağlayanda... heç vaxt, heç vaxt tanımamışıq, bilməmişik. Nədən ki, çaylar ömrü uzunu bir axdığı yerdə, durnalar qatarlandığı göylər altında bu çayları, bu qatar durnaları görə-görə, tanıya-tanıya biz böyüdük, biz ayrıldıq.

Biz ayrılanda Umleyla qarının təndiri xəbər tutdu, fəsəlisi küt getdi, sərki damlarında alma-ərik qurusunu qurd-quş yedi, Pəri nənəmin yağdürməyi közləyə-közləyə beş yerə çatladı.

* * *

Əziz bayram günlərində Qədir babanı ağaclarnan danışan görürdük. Ulu olmuş deyirdi: ağaclar danışır, bala.

Maraq bizi götürürdü.

—A baba, bir danış görək.

—Ağac özgə yanında dinməz,—deyərdi qarı. Məəttəl qalardıq. Xəlvəti göz yetirib qulaq verərdik. Şərşanda gələrdi ərik ağacının yovuqluğuna. Deyərdi: «ay ərik, nəvəm dil açır ey... Sən də çiçəkləsənə! Baxardıq ki, bu axşam düyməli tumurcuqlar səhəri eyzən narıncı çiçəkdi. İnanırdıq ki, ağaclar danışır.

O ili gilas bar vermədi. Qədir babam da bunu dərd elədi. Səhər-axşam gilasnan nəsə danışardı. Axırda bel götürüb ötən əkdiyi gavalını kökləyib çıxardı:—Gilas küsüb.—dedi,—ta qədimnən gavalını görməyə gözü yoxdu gilasın.

Gətirib yaxın əkmişəm deyin, gilas bu il bar vermədi. Nə vaxt idi dinmirdi, axır ki, bu axşam dərdin danışdı.

Baxardıq ki, yengi ili gilas bar deyib bağırdı.

* * *

Qədir baba ağaclara dost deyirdi. Qış bərk gələndə köhnə sırınmasını əncirə geyindirərdi. Nar kollarını ləmbəylə basdırardı. Gecənin ayazında çıxıb niyaran-niyaran bağa enərdi. Bir hovurdan dönərdi: «hələ ki tablayırlar,—deyərdi,—bildirki gülöyşə lap məni arxayın elədi. Ərik kimi şax durub, dözür...»

Babam ağaclarla danışırdı, dibini belləyirdi, suyunu verirdi, qol-budağını təmizləyirdi. Cırlaşanına peyvəndindən calaq vururdu. Soyuğa tabsız olanlarını daldada əkirdi, küsəyənini bağın görkəminə çəkirdi ki, şellənsin, barını bol eləsin.

Ulu olmuşun fikrinə görə dost-simsar o kəsdi ki, dindirməmiş dərdini anlayır, istəməmiş diləyini hasil eləyir, bahar-yaz olub yollarında çiçəkləyir. Dağlar kimi dönməz olur, arxa çevirmir. Onçu da dağlar deyəndə, o ceyranlı düzü deyəndə, o at bağrı çatladan taxtalar mülkünün adı çəkiləndə Qədir baba quş olub, çırpınır, hanı mənim atım, hanı cavanlığım!—deyir. Darıxır o dönməz, dəyişməz Tanrı misallı yerlərdən, yurdlardan ötrü. O yerlər ki, indinin indisinəcən Qədirin ləpirinə qıymayıb. Qırx ildən o yana Qədir deyib saralan, bir kimsənin dəryaz işlətmədiyi biçənəklər ulu olmuşun xətrində bir unudulmaz dostdu, simsardı.

Qədir baba deyərdi, oğul, çalış bu dünyada dost qazan. Qalan hər şey gəldi-gedərdi.

ANDLAR, İNANIŞLAR...

Min illərdi rüzgarın üzü beləydi: «yazıynan yazıb, qışıynan pozurdu». İnsanların da qalanı köçənlərin hikmətini, bu dünyamız sarıdan bildiyini axça eləyib saxlayırdı, qızıla satmırdı yeri gələndə. Min illərdi bu yəl-yamac yaşıl köynək geyinirdi, ağ kürk bürünürdü. Min illərdi yer üzünü su şırıltısı, quş səsi, gül ətri ağzına almışdı, min illərdi... Gün çıxmışdı, ay doğmuşdu, tufan qopmuşdu, daşqın olmuşdu, təzədən göy üzünü ulduz basmışdı, yer üzünü bəxtiyarlıq. İnsan oğlu qışında yaz arzulamışdı, qurağında yağmur. Beləcə rüzgarın hər fənd-felindən, gərdişindən baş açmağı öyrənmişdi. Sora bu öyrənib bildikləri inanışa dönmüşdü. Ulular deyib; yovşan qovuşuq nişanəsidi. Al bir dəstə verim, həsrətə tablı olasan!

—Bu sular nəydi bəs?

—Hə... Bu su körpüydü, ümid idi. Bir dəfə arx suyu gül gətirmişdi, o bağın çiçəyi bu bağı ətirləmişdi. Sonra ot əzilmişdi, çəpər tapdanmışdı. Arxın suyu qəfildən-qəfil qurumuşdu. Belədə:—su gələn arxa güman var bir də gələr,—demişdilər. Ümidli-gümanlı yaşamışdılar.

Qədimdən üzü bu yana kişilər adını qorudular. Ululardan soruşdular, kişi adına nə yazılıb? Dedi:—arvad, papaq, at. Kişi olan kəs hər üçünün təəssübünü bir çəkdi. Qeyzlənəndə dedi: bu papağıma and olsun! Papağı yaraşıqçın qoymamışam! Sözünün inamına dedi ki, and olsun!.. Sözüm keçməsə, götürrəm papağı, başıma ləçək bağlaram! Möhkəm and idi bu... Divarı nəm yıxar, iyidi qəm. Namərd yatmaz, girəvə

gəzər. Qadın iyidin zəif damarıdı:—düşmən həmincə damarı kəsər. Mərd iyidlər atdan düşər, atlanar.... Mərd iyidlər hər əzaba qatlanar...

Di gəl iyidin atın aparanda başına dağların daşını tökər. Mərd iyidin qadını qovğa günü qardaşa, atı sirdaşa döndü. Yağının bir ucu sənin, bir ucu mənim dedi. Ərənlər papağını günə yandırmadı. «Papaq olmasa, peşkeşdi»—dedilər. Qədimdən üzü bu yana belə yaşamışıq...

Yaxşılıq, pislik dünya üzünə insanlardan ötrü gəlib. Gecə-gündüz yalan döyül ha! Ulular deyib gün çıxanda çıx, gün batanda bat. Babalarımız gün üzünə səlavat gətiriblər. Gün doğanda şükür deyiblər. Qız-qadın xeylağı gün işığından, xoruz banından, ay nurundan diləkçi olub. İşıq insan övladının üz tutub getdiyi, inanıb sarıldığı, kömək-pənahıymış. Səhər-ertə bulaq suyunda arınarmışlar. Suyun işığı çirki pak, yamanı yaxşı, bədi uğurlu elərmiş. Axşam-sabah yalan deyil ki, deyəllər: axşamın xeyrindən səhərin şəri yaxşıdı... Sırğadı bu söz, hər adamın qulağında.

Su ışıqdı deyin, səfərə çıxanın dalısınca bir qab su atdılar. Gecə qərəmətidi. Uzaq-uzaq... qara gündə qara geydilər. Yaxşılığı işığa, pisliyi zülmətə yaraşdırdılar, ömrünə nur calansın, ağ gün görəsiz. Yolun açıq, baxtın işıqlı olsun.

Bir gözəlin adına çıxdılar:—aydan arı, sudan duru. Üzündə nur var, dedilər, bu qoçanın. Üzü nurlu babalar... Qarayaxadan uzaq gəz—dedilər. Baxtı gecəyə oxşatdılar:—Baxtın yatdı, sən də yat. Bizlərdən uzaq, güman var ki, qarğış sözünün əzəl-kökü qaradan rəng alıb: qaraqış.

Yaxşılıq-pislik yer üzünə insanlardan ötrü doğuldu. Yaxşını işığa, pisi zülmətə yaraşdırdılar.

Qədir kişi nəvəsini səsləyib:—malın mülküm,— dedi,— bəri gəl, alnımı ov, əlin savablıdı, sınamışam...

Səfərə çıxandasə Pəri arvad yekinib durdu, əylən-əylən, başım baxtı,—dedi,—qabağına çıxım, ayağım göylərin nurunnan, quşların qanadınnan yüngüldü...

Bunlar sınaq idi. Nəfs var, göz var, halal-haram var, bəd var, uğur var... Səhər ertə yoluna çıxanın, əzəl salamlaşıb kəlmə kəsdiyinin haqqı var dünyada. Nənələr ağırayaq gəlinlərə öyüd elədilər ki, aydın, göyçək şeylərə baxsınlar. Belədə dünyaya gələcək övlad özü də gözəl-göyçək olar.

Çörək üstə çıxana zor-güc çörək verəllər ki, nəfsi qalmasın. Nəfsi qalan xəstəlik tapar, həmin ocağınsa bərəkəti bilmərrə çəkilər. Haram bir gətirsə, beş aparar, buna inanıblar. Atalar deyib: kələklə gələn, küləklə gedər. Halalı harama, mərdi namərdə, yaxşını pisə dəyişmədilər. Dedilər:—dəyişsək, şər xeyiri üstələr...

Sözmisalı deyir, qışda qar yağmamışdan qabaq əgər qarğalar havada fırlanıb sora yerə otursa, hava qızacaq, yox, əgər evlərin üstünə, ağacların qəlbisinə qonsalar, hə... belədə deyərlər hava çovğunlayacaq, işinizi ehtiyatlı tutun! Ulular sınaqdan çıxardıblar ki, əksər hallarda şabalıd ağacının gövdəsindən yapışqan süzüləndə dəmbədəm yağış yağır. Bu da böyüklərin sözüdü biz dilə gətiririk: palıdın qozaları sıxdısa, qış sərt keçəcək.

Fəslin ab-havasından güllər, çiçəklər, quşlar, böcəklər də soraq verər. Yenə ulular sınağıdı: elə ki sarı çiçəkli yasəmən acı çiçəkləyib şirə buraxmağa başladı, hər yanı bu şirənin iyi bürüdü deyərlər, bir azdan yağış yağacaq.

Fikir ver gör ilin ruzusun necə öyrəniblər əvvəl-əvvəldən. Deyir, elə ki tozağacıdan, ağçaqovaqdan yarpaqlar tamam-kamal tökküldü, demək, bu il yüngül keçəcək, ruzusu da bol olacaq.

Bəllidi ki, baharın soraqçısı qaranquşdu. Bə qışın soraq-

çısı? Hə... buna münasnb, bir neçə söz. Atalar deyib elə кi qar-quşu civildədi, dədə-babadan hesab eləyiblər qış gəldi.

Ululaрın sınağı çoxdu, çox. Günəşin həndəvərində qara halə əmələ gələndə, yaqmur əlaməti hesab eləyiblər, düz də çıxıb. Dovşan кələminin çiçəyi çəhrayı, yaxud qırmızıya çalanda biliblər кi, yağış başının üstünü кəsdirib durub... və sair və ilaxır... Bu inanışlar min illərin sınağından sora yarandı. Min illər günəş çıxıb yeri qızdırdı, sular axıb torpağa can bağışladı. Yer üzünü yaşıllıq bürüyəndə yurdun кöçəri quşları gəldi, payızında bağçalar xonçalandı, qışında növrağı dağıldı. Gündüzü günəşin işıqlı üzünə bənzədib ellilərimiz. Ulu andlar yarananda dönüb üzü ışıqlı günəşə and içiblər: Bu işığa and olsun кi! Söz yox andlar inanışdan çox-çox soralar dünyaya gəlib. Əvvəl insanlar andsız-qərəzsiz inanıblar.

Belə deyirlər кi, yüzüncü ovu vurmağa silah qaldıranda həmin ov nədisə, adamın gözünə insan şəкlində—yəni ovçunun doğması, əzizi şəкlində görünür. Bunnan da ovçunun qolları boşalır, bu gündən ovçuluğun daşını atır. Gün görüb dövran sürmüşlər öyüd eləyirlər кi, ov gözünə adam şəкlində göründü, ovçuluqdan saqın. Yoxsa, qan tutar səni. Annıyanlar da ustad sözünə həmişə əməl eləyib xeyir görüblər.

Sağ gözün səyirməsi adama xeyir gətirər, sol gözünкü qəm. Bunçun də gözü səyriyən adam bir qırmızı sap düyüb qoyar səyriyən gözünün üstə кi, xeyrə calansın.

İnanışlar insanları ulu nemətlərin qədrini bilməyə səsləyibdi. Bunçun da bu кimi hallarda bilməzə əməl elədiкləri bu inanışlar daim el-camaatın кöməyinə yetib. Ulular deyiblər: səpin vaxtı buğda qovursan məhsulun az, yarma bişirsən bol olar: Deyilənlərə görə səpilən taxıl oğurluq olsa, bitməz. Bunu da ulular deyiblər: taxıl çuvalının üstə otursan, bərəкəti

qaçar. Çox ov vuranın evində bərəкət olmaz. Çörəк əldən yerə düşsə, qaldırıb öpərlər, göz üstə qoyarlar, bərəкəti qaçmasın nədən кi! Bu hiкmətlər inanışa dönüb illərnən yaşayıb. Di gəl rüzgarın gərdişində həmişə inanışlar azlıq eləyib. İnsan oğlunu düzə, haqq olana inandırmaqdan ötrü, ya da onu haqqa çəкmək, qandan uzaqlaşdırmaq xətrinə yaranıb andlar. Andlar zaman-zaman deyildiyindən müqəddəsləşib, qadir əməllərə, ana südünə, işığa, çörəyə and içiblər. Anda görə günahlar bağışlanıb, anda görə günahlar aşкar olub. Vicdanı el içində paк olanlar—and içiblər. İnsanlar inanıblar кi, çirкini, əyrini and tutar. «Anamın südü haqqı»— deyiblər. «Başın haqqı», «Bərəкət haqqı», «Duz haqqı», «İnandığımız haqqı», «İşıq haqqı» «İşığa кor baxım», «Yer haqqı», «Bu ulu yol haqqı». Halallıq üzə çıxaran andlar insanları ömür boyu düzlüyə çəкdi. İnsanlar o şeyə and içdilər кi, yalan desəydilər günah idi. «Gor haqqı»-dedilər. «Göy haqqı», «Od haqqı». Ocağa and içib: «Ocaq haqqı», çörəyə əl basıb: «Bu çörəк haqqı»—dedilər. «Su haqqı, çıraq haqqı» da, basılmaz andlardandı. İnsanlar and içəndə yuyunub təmizləndilər, and məqamına hazır oldular. Bu yuyunub-təmizlənmə təкcə zahiri təmizliк deyildi, həm də batini paкlıq gərəк olaydı. Bundan ötrü də şərə, böhtana qarşı insan oğlu öz paкlığını zaman-zaman qoruyub saxladı. Andlar кimi hallarda sonuncu pənaha, köməyə çevrildi. İnsanlar andın qədir-qiymətini bilib hər şeyə and içməyiblər. Özü də hər xırda əməldən ötrü qısnamayıblar кi, suçlu bildiкləri and içsin. Biri o birini inandırmaq xətrinə and içməк istəyəndə deyiblər: and içmə, inanıram. Yaxın, dost adamlar arasında da and içilməz. «Sənin mənə andın yoxdu кi»—deyərlər. Ulular onu da yetiriblər кi, andın düşər-düşməzi var. İş elə gətirər günahını anlamayıb and içərsən, anda düşərsən, and tutar səni. Onçu da hər

şeydən ötrü and içməyi, ya da yerli-yersiz and içməyi ulular ta qədimdən məsləhət bilməyiblər.

And içib qovğaya girənlər yurdu yadellilərdən qorudular. «And basılmaz»—dedilər. Qoç Koroğlu qan tökməkdən bezikəndə: «And içmişəm bu gün dava olmasın!»—dedi.

And insanı oda atdı, and insanı oddan çıxartdı. And insanı alxış yiyəsi elədi. Dədə Qorqud Oğuz ellərinin anda güvənən iyidlərini öyəndə alxış yetirdi: «Qara dağların yıxılmasın,—dedi,

—Qara dağa yetiriyində aşın versin!

Qutlu olsun dövlətiniz!

Qatar-qatar dəvələrim sənə yüklət olsun!

Qarlı qara dağların yıxılmasın!

Qamən axan gərgül suyun qurumasın!

Qarşı yatan qara dağlar sənə yaylaq olsun!

Əlin var olsun! Kölgəlicə qaba ağacın kəsilməsin!

Gözün kimi tutarsa, könlün kimi sevərsə, sən ona varqıl!

Ocağına bunçılayın övrət gəlsin!

MİN İLLƏRİN DÜNYASI

(Qarının ikinci yazı)

Qarı ulu bir yolun elçisinə çıxıb gözləyirdi. Qarı gözləyirdi, vaxt, zaman su kimi axırdı. Vaxtı, zamanı bir eşmə sap eləmişdi qarı, gözlərindən keçirirdi. Qarı qayalar kimi səbrlə, ümidlə durub gözləyirdi. Bu səhər alaca inəyi çırtlayanda görmüşdü ki, gözü səyridi: «Xeyirliyə olsun»— demişdi. Sonra qıyıb nəvəsinin qızıl güllü yaylığından bir qırmızı sap çəkmişdi, həmin sapı düyüb-düyünləyib səyriyən gözünün üstə qoymuşdu: «Qırmızı şadlıqdı, şadlığa calansın».

Budu, çıxıb gözdüyürdü indi də. Deyirdi ki, hərə öz qismətini gərək gözləyə. Bir aqil gəldi ki, qarı, nə gözləyirsən? Dedi: «Cavanlığımı».

Dedi: «Cavanlıq bir ocaq idi, yandı getdi, gözləmə». Qarı baxdı ki, düz deyir, di gəl gözləməyində davam elədi. Ona görə bu ulu yolların başında durub kiminsə yolunu gözləmək özü də bir savablıq idi. Bir kərə cəmi camaat ümidini üzüb ta gözləməyəndə həmin qarı gözləmişdi. Bax, onda da bir axşam gözü səyrimişdi. Evdə qərar tutammamışdı. Durub görmüşdü ki, bir sağsaqan gəlib qonub çinar ağacına, hay salıb, haray salıb. Gəlinini çağırıb demişdi:

—A Bilqeyis, bir çıx gör, sağsağan Umuddan nə soraq gətirib?

Gəlinciyəz hesab eləmişdi ki, ta qaynanası fikirdənxəyaldan havalanıb. Səhəri kəndin qocası-cavanı Umudu atatuta bu çırağı ölməzəyən ocağa gətirəndə gəlin hesab eləmişdi ki, vallah, qaynanası rəmmaldı, bilicidi, nədisə, bir ayrı görə-

cəkdi... Aqil baxdı ki, sözü qarıya havayı yellər kimi əsər eləmədi. Dönüb bir də eşitdirdi:

— Cavanlıq bir ocaq idi, yandı getdi!

Dedi: «Niyə?»

Dedi: «Qulaq as... Yaz aqzı dağ döşündə lalələri görmüşdün?».

— Nə görmüşdüm...

— Bax, o lalələr yazın ötüşüb yayın yetişən vaxtında elə açırdılar ki, adam hesab elərdi bu həvəsnən, bu gözəllikyaraşıqnan bunlar dünyalar durduqca yaşayacaq. Amma nooldu? Yay torpağın sümüyünü qızdıranda lalələr ocaq kimi başaldılar korun-korun sönməyə. Sönüb getdilər. Bunları ki görmüsən?

Dedi: «Görmüşəm».

Aqil gülümsədi:—A qarı, bəs bunları ki görmüsən, ta bu nədurub gözləməkdi?

Dedi: «Noolsun?» Sönüb gedən baharın bir də geri dönməyi yoxdu? Lalələrin düzə çıxmağı yoxdu? Var axı!»

Gördü qarı kövrəldi, gördü örpəyinin ucuynan gözlərini silir. Dedi: «Onda gözlə!».

Başladı qarıya təsəlli verməyə:

— Göz haqdı,—dedi,—göz könlün aynasıdı. Gözləsən elə cavanlığın özü də qayıdıb gələr...

Qarı bir azcana toxtadı:

— Elə ona görədir də,—dedi,—gözdən irağa qoymuram Umudu. Nədən ki, gözdən uzaq elə könüldən iraq hesabındadı. Gözüm tutanı, göz üstə saxlayıram, vay o günə ki, gözümdən düşə.

Aqil dedi, az özünü tərifla, qarı, göz dəyər sənə.

Qarı bu sözü doğru bildi, başladı barmaqlarını sındırmağa. Xəbər aldı: «Qarı, bu nədi?»

Dedi: «Göz qaytarıram, göz sındırıram».

Gördü aqil inanmadı, dönüb getmək istədi. Gördü gedir, dedi əylən bir rəvayət də danışım, sora get.

Soruşdu: «Nə rəvayət?».

Dedi: Döz. Bir kənddə iki gözlü, nəzərli adam olur. Yəni nəfsi ağır, nəzəri bəd. Günlərin birində bunlar istəyirlər sınıyalar ki, hansının gözü kəsərlidi. Əlqərəz, şərtləşib çıxarlar bir dikdirə. Baxırlar ki, bir qızılquş havada dövrə vurur, deyən ovun axtarır. Bunu görcəyin biri qayıdır ki, kişi, qızılquşa bax, ha, göyləri mahnı kimi nə süzür...

Elə bunu demişdi ki, qızılquş şığıyır ov dalısınca. Bir də onu görürlər ov qaçıb qurtulub, qızılquş sancılıb qaratikan qələməsinə, bağrı para-para olub. Qızılquşu bu hələtdə görüb o biri əlin vurur əlinə:

- Evini Tanrı tiksin, göz yiyəsi!

Bunu demiş baxır ki, iki göz partlayıb düşdü ayağının altına, həmkarının ah-fəqanı aləmi bürüdü...

Hə, qardaş, göz, nəzər belə iti şeydi, dəydi, ildırım kimi budayır. Mən də ululardan eşitmişəm, başıma gəlməyib, görməmişəm, di gəl, eşitmişəm. İnanmışam ki, ulular bir şey bilməsələr deməzlər...

Aqil xurcununu çiyninə aşırıb getmək istədi. Qarı soruşdu: «Nə aparırsan?». D e d i: «Söz».

Qarı dedi, görürəm xiridarısan, onda döz, bir-iki gülməcə deyim, qat yükünün gözünə, bəlkə gərəyin ola.

BİR TİKƏNİN SAVABLIĞI

(Rəvayət)

Deyir, ötənnərdə Şirvan кəndlərinin birində yeməyə öynəliyi olmayan bir кişi yaşayırmış. Ona yazığı gələnlərdən biri deyir кi, a кişi, özünü dirigözlü niyə öldürürsən? Bəs, dur yollan filan кəndə, filan dəvəçini tap. Var-dövləti başdan aşan adamdı. Көməк dilə, səni əliboş qaytarmaz.

Deyir: «Suda boğulan saman çöpündən sallanar». Kasıb кişi ta sözü çöyürmədi, səhəri durub nişan verilən кəndə yollandı, axtarıb dəvəçini tapdı. Gördü var-halı başdan aşan adam özciyəzi dəvələri nöyütdüyür. Fiкirləşdi кi, yəqin onu ələ salıb. Özü dəvə nöyütləyən adam indi durub ona borc-sədəqə verəcəкdimi?

Məxləz, qayıdıb getməк istəyir кi, dəvəçilərdən biri gəlib onu çağırır:

- Qonaq qardaş, bəs, ağam, səni çağırır.

Kasıb naümüd gəlir, həmin o dövlətli dəvəçinin yanına.

Xəbər alırlar кi, ay adam, nə diləyə gəlmişdin?

Kasıb da deyir, hal-qəziyyə belə. Bunu eşidəndə dəvəçi ilxıdan bir dəvə ayırıb verir кasıba. Kasıb əl-əl üstə durub razılıq eləyir: «Allah verdiyin bir dəvənin min əvəzini qaytarsın».

Kasıbın xeyir-duası dəvəçinin xoşuna gəlir, ya nədi, ona yeddi dəvə bağışlayıb yola salır.

Kasıb кişi dəvənin birini o saat xıxırdıb minir, o biriləri də yedəyə alıb gəlir. Amma neçə gün idi dilinə çörəк dəymirdi, aclıq yaman əsər eləmişdi ona. Bir кənddən кeçəndə yol

üstкi darvazanı döyür, ev yiyəsi səsə çıxıb xəbər alır кi, ay adam nə istəyirsən?

Kasıb dəvədən enib məqsəd-məramını bildirir. Ev yiyəsi кasıbı süfrə başına çəкir:—olanımız budu, deyib ortalığa bir parça duz-çörəк qoyur. Kasıb bir parça duz-çörəyi az qala gözünə təpir, gözlərinə işıq gəlir. Durub dil-ağız eləyir, yoluna rəvan olur.

Üstündən bir gün ötür, həmin o çörəкverən кişinin darvazasını bir də döyürlər. Bu dəfə dəvəçi olur. Ev yiyəsini çölə çağırıb xəbər alır кi, qardaş, bu görкəmdə, bu qiyafədə qismətində yeddi dəvə bir adam buralardan getməyib, görməmisən?

Ev yiyəsi deyir, necə görməmişəm? Gəldi bir tiкə çörəк də кəsdiк, halal xoşu olsun. Axtarma, çoxdan gedib, tapammazsan...

Dəvəçi əlin dizinə vurur, yanıb yıxılır:—Sən nə böyüк suvablıq eləmisən,—deyir.—Mən ona yeddi dəvə verdim, başım qarışıq olduğundan çörəк təкlif eləmədim. Sənsə bir tiкə çörəкnən mənim yeddi dəvəliк suvablığımı heçə döndərmisən.

Elli, razısansa gəl dəyişəк... Yeddi dəvənin suvablığı sənin, sən verən o bircə tiкə çörəyin suvablığı mənim olsun!

Aqil söhbət üçün razılıq eləyib yoluna düzələndə qarı onun xurcununa bir gözmuncuğu da taxdı: «Bəd nəzərdən, xəta-bəladan uzaq olasan»—dedi.

İLİMİZİN MİN BİR RƏNGİ

İl-gün Qədir babanın ömrünə rənglər, səslərnən gələr. Qədir baba da bir belə ки, ömür yaşamışdı, hələhəlbət bu rənglərə öyrənmişdi. Bu rənglərsiz qəribsəyirdi. Hərdən ömründən ötüşən gün bir səs, səda кimi düşüb itirdi. Qədir кişi buna da inanmışdı. İndi səs də ona rəngli görünürdü. Söz misalı o günlər ки, hələ irəlidəydi, o günlər yamyaşıldı. O günlər ки, ötüşüb getmişdi, sapsarı xəzəl. Səslər də, xəbərlər də eyzən belə. Şad xəbərlər gah yaşıl donda, gah da al biçimdə gəlirdi. Bu rəngli səslər gəlib ulu olmuşun ömrunü-gününü bəzəyirdi. Deyirdi, gözlərim yaşıllayır, şad xəbər eşidəsiyəm yəqin ки.

Ömür beləcə rəng, səs ahəngində qanadlanıb ötüşdüкcə Qədir baba doğrudan-doğruya кəsdirdi ки, bu dünyada görüb götürdüyü cəmi olacağın rəngi, səsi, qoxusu var. Ya da rəngi olmayanın qoxusu, səsi olmayanın rəngi höкmən olmalıdır. Ulu olmuşa görə yoxsa bu dünyanın yaxşısı-pisi, gözəliçirкini insanın gözlərinə görünməzdi. İnsan bütün bu olub-olmuşu səsindən, rəngindən, qoxusundan bilir. Özünə qolayını seçib simsarlıq eləyir, naqolayını yeddi ağac aralı saxlayır.

Qədir də başlar içində baş, saçlar içərisində saç ağartmışdı. Bu vaxtacan yeddi rəng tanımışdı. Amma haqqıçına inana bilməmişdi ки, bu bir кönüldən min кönülə vurulub heyran olduğumuz dünya yeddicə rəngin əlində, umudunda кəsilib qala. İnana bilməmişdi. Ömrü uzunu Qədirə elə gəlib ки, görə bilmədiyi rənglərdə dünyanın sehri-mənası ки ələnib qalıbdı. O çox illah eləmişdi bu rəngləri, bu rənglərdə gizlənib yaşayan

o кilincə mətləbləri görə, di gəl Qədirə elə gəlmişdi ки, insan oğlu bu rənglərə hər gün, hər saat toxunur, bu rənglərin dadına-duzuna baxır, di gəl, bir azcana diqqət eləməyi qalır bu rəngləri görə.

Görə bilmədiyinnən də saysız-hesabsız gözəlliк, seyr-səfa insannan yan кeçir, gözlərinə görünmür.

Ömrünə payız gələndə Qədir oturub yazın söhbətin elər. Nədən ки, payızın rəngləri yazdan surət alıb. O sarıca, küz rəngli bir кörpə əli кimi Qədir babanın çiyninə qonanda çıxar bağ içinə, çıxar bostan, xır yerinə. Baxar, doyunca baxar, dünyanın rəng çətrini elə biləsən ömürlüк gözlərinə кöçürər. Ulu olmuşa elə gələr ки, bir az əvvəl bardan zarıncı olan ağaclar, quş səsindən dağılan bağlar, meşələr, sinəsi lalələnərgizli çöl-çəmən bir yaxı rəngdi. Payız gələndə, yazın dəyirmanı soğulanda, yaz adına insanların yaddaşında təкcə yaşıl rəng qalır. Bu yaşıllıq imәкləyən, ayaq açan кörpədi, aynaları döyüb içəri soxulan gilas ağacıdı, aynabəndlərdə yuva quran, bala çıxardan qaranquşdu, dünyanı bürüyən işvəli-nazlı gözəl-göyçәкdi.

Pərinin bağında seyran elədim,
Almalı, alçalı yaza rast gəldim.
Almasın, heyvasın dərdim, döşürdüm,
Könül istədiyi naza rast gəldim.

Qurbaniyəm, görcəк həzər eylədim,
Gözəlləri gördüm, nəzər eylədim.
Yeddisiylə bağda güzar eylədim,
Hesabım yanıldı, yüzə rast gəldim.

Yazın bu yaşılı insanların baxışından baxır, bulaqların, irmaqların gözündən axır. İnsan oğlu yaşıl-yaşıl gülür, yaşıl, sığallı, yumşaq, isti-isti danışır. Yaz qaranquş kimi insanların göylündə özünə yuva qurur. İnsan oğlu yaza təzə-təzə alışanda, kəlmə kəsib həmsöhbət olanda, durnalar, leyləklər bu dağların, düzlərin ətrinə təzəcənə öyrəşəndə küləklər əsib bu yerlərə payız xəbəri gətirər. Bu xəbər gəlib budaqlarla sırğa-sırğa sırğalananda, qıvrıla-qıvrıla xəzəllənəndə dünyanı başqa bir rəng bürüyər. Bu rəng insanların saçında, geyim-gecimində sığal olar. Bu rəng də yaz kimi baxışlardan, səslərdən asılar, sözə-söhbətə keçər.

Vədə verib mənə gəlləm demişdin,
Gözüm qaldı intizarda, gəlmədin.
Sənsiz mənim ağlamaqdı munisim,
Mənsur kimi qaldım darda, gəlmədin...

Dünyanın rənglərini geyim-kecim, palaz-cecimə, xalıxalçaya köçürən qız-gəlin çölə-düzə yayıldı, biyan kökü topladılar ki, qırmızı rəng alsınlar. Palıdı rəngli boyaqlarısa nar qabığından, qoz ağacının, cır alça ağaçının kökündən, cavan heyva ağacının yarpağından düzəltdilər.

Nar, qoz qabığına dağların sürməyi rəngli palçığını qatmaqla qara rəng aldılar. Sarı rəngisə illərlə arayıb-araşdırıb müəyyən eləyiblər ki, dəvəqulağı, şahsüpürgə bitkilərinin kökündən almaq mümkündü. Ya da çoxillik «naz» otundan, sarı ağacın budaqlarından, narıncı ağacın meyvəsindən icad eləmək olar. Bu sarı rənglərin birini o birinə qatanda yaşıl, palıdı rəng hasilə gəlir. Boz rəngçünsə nənələrimiz mundarça ağacının yarpaqlarını, kəndəlaş bitkisini məsləhət biliblər. Beləcə təbii boyaqlardan rəng alan iplər xalçaya ömürlük

yaraşıq vurur, solub saralmaq nə olduğunu bilmirdi. Qədir babaya elə gəlirdi ki, payızda atlar nalmıxın tökür. Keçib sər tövləyə baxır. Bir el məsəli yadına düşür: «Atı birində bəslə, ikisində gözlə, üçündə min. Dördündə oldu at, olmadı sat».

Kəhər at orxana-orxana dartılır. Qədirə görə kəhər o yaşıl ormanlara, o dibsiz zümrüdü dərələrə sarı dartılır. Guyamış at dil bilir, qayıdır ki, a kəhər, ta payızdı gözünü yığ o çöllərdən, axura qismət de...

Bu vaxt yaddaşı dolanıb azdı, baş alıb getdi Yanıq kişinin yanına. Yanıq Əşrəf oğlu da Qədir kişi kimi yamanca qocalıb. Ulu olmuş 110 yaşı addıyıb. Cavan canısulu vaxtlarını görənlər deyillər: a Əşrofoğlu, ta bəsdi, əl çək: ta zamanə dəyişib, ta at döyranı döy.

Deyir: Nə?

Gözləri dolur Yanıq kişinin, saqqalı eyzən yaş olur. Sora gəl al könlün, görüm necə alırsan?

Ermənistan tərəfdəndi. Əmirxeyir kəndi var, ordandı. Vaxt vardı cavandı Yanıq Əşrəf oğlu, böyrü-başı dost-tanışnan doluydu.

Dostu dost yerində, deyirlər düşməninə də yaxşılıq eləyirmiş. Hələ Əşrəfoğlunun atları... Cins atlar saxlarmış. Elin şad günündə «Göy» ürgəni minib çaparmış. Bu atların sorağına çox müştəri axıb gəlirmiş ki, alıb apara, di gəl Yanıq kişi: «balam»—deyib, «oğlum»—deyib satmazmış, hərdənhərdən dosta bəxşeyiş elərmiş.

Yanıq Əşrəfoğlu ömrünü at üstə keçirtdi, vaxtı, zamanı at döşünə qatıb yesir elədi. Sular axdı, illər dolandı, Əşrəfoğlu bir onda gördü ki, cıdır meydanında bir özüdü, bir zaman. Axır ki, zaman qocalıqnan birləşib Yanıq kişini atdan saldı. Qocaldı deyin dönük dost kimi bir töylə atı da başından dağılıb getdi. İndilər Yanıq ə şrəfoğlu göy ürgənin cinsindən

tək bircə at saxlayır. Neyləsin, bunnan təsəlli tapır. Simsarlıq bilməyənlər, kömək, dayaq əvəzinə əərdən dönüb deyəndə ki, a ə şrəfoğlu, ta əl çək, ta zamana dəyişib, ta at döyranı döyül...

Deyir: Nə?...

Gözləri lillənir Yanıq kişinin. Heç inana bilmir, əeç!..

Qədir kişi baxırdı ki, töylə-töylə şahbaz atlar getdi, tirdən çatılar asılı qaldı. Qədir kişinin gözündə, yaddaşında bu çatılır, örkənlər, irəşmələr də bir ömür idi—toxunub uzanırdı. İndi Qədir baba qulaş-qulaş sicimi yığıb dəstələdikcə elə biləsən günləri, ayları, illəri dala qaytarırdı. Baxıb yada salırdı, yada salıb baxırdı. Əvvəl çatını götürdü—iki-üç qulaşlıq ipdi çatı. Keçi tükünnən sıx-sıxcana toxunmuşdu—kəl çəkə, qırılmaz. Çatıynan heyvan bişiplərdi. Tirdən asılan irəşməninsə köklü-köməcli hekayəti vardı. Beş-altı qulaşlıq ucları qotazlı, ilgəkli, alabəzək bu irəşməni Qədir cıdırda nəmər almışdı. Pəri onda elin gözü olan gözəldi—öz əliynəncə bəxşiş eləmişdi irəşməni. Sora bu irəşmə dönüb olmuşdu sevda bağı—iki könülü bənd eləmişdi.

Deyir: Örkən nə qədər uzun olsa, axır gəlib doğanaqdan keçər. Vaxt, zaman da örkən təki uzanıb keçirdi, Qədir kişinin yaddaşından. Bir örkən də yadigardı o haylı-küylü, yeryerişli çağlardan. Atı ifçin nallayıb məxmər çullayanda bərri-bəzəkli örkəni də dolaq elərdi boz örkənin belinə, zövq əhli olanlar örgənə naxış da salardı ki, at üstə duran iyidin adına yaraşa. Beş-altı qulaşlıq örkən ən öndə olub əyri ağacdan düzəlmiş doğanaqnan tamamlanardı. Onçu da məsəldə doğanağın adı çəkilir: «Örkən nə qədər uzun olsa, axır gəlib doğanaqdan keçəsidi».

Örkənnən bağlı başqa məsəllər də var: Deyir: Örkən gödək oldu, sənə çatmadı? Məsəl var, deyir, onun örkəninin üs-

tünə darı səpmək olmaz. Elə kökdü, belinə erkən dolanmaz...

Di gəl kəhər də bir yaşıl budaq kimi töylənin açıq qapısından işığa sarı dartınır. Çöldəsə ağacların sırğası yarpaqlar birəm-birəm düşür. Küləklər bağların yaxasın açır, təktək nar görünür:

Payız olcaq bağlar tökər xəzəli,
Bahar olcaq bağçalara bar gəlir.
Bir iyidin olsa baxtı, iqbalı,
Cənnət bağçasından ona nar gəlir...

İlin bu vaxtları Qədir baba əlin qaşına qoyub payızdan qışa boylanırdı. Bu dünyanın qışı ağ-ağca çalmalı bir pirani şəklində görsənirdi ulu olmuşun gözlərinə. Dünyaya təmizlik yağırdı, his-pasın üzünə nur çəkilirdi. Qar işığı aynalardan asılıb saflığı evlər dolusu eləyirdi. Bu qar insanların saçına, kirpiyinə yağırdı. Ahılların ömrünə bəyaz bir işıq çökürdü. Dağlarınsa başına yuxu kimi yağırdı bu qar. İyidlər oylağı dağlar qışın bu bəyaz sakitliyinə baş qoyub quzu kimi yatırdılar. O uzaq, nibətli illərdə qar yağıb-yağıb araya ayrılıq salırdı. Kərəm Ərzurumun gədiyinə yetişəndə deyirmiş:

Ərzurumun gədiyindən aşanda
Onda gördüm burum-burum qar gəlir.
Lələ dedi, gəl qayıdaq bu yoldan
Dedin, xan oğluyam, mənə ar gəlir.

Qışın tüpü-boranı artdıqca Xəstə Qasımı qəm basdı:

Ay əəzərat, ay camaat,
Dağa qar düşdü, qar düşdü.
Özüm qaldım qürbət eldə,
Yada yar düşdü, yar düşdü...

Qədir kişi bir də əlin qaşına qoyub qarlı dağlara sarı boylananda ağ örpəkli qışdan o tərəfə bir yaşıl tala görər. Ürəyindən bir söz keçər. Bu söz də baəar kimi uzaq-uzaq illərin o tayından boylanır.

ə zizim qar məkanı,
Qar yurdu, qar məkanı.
Alçalın, uca dağlar,
Görünsün yar məkanı!

Elə biləsən pir dağlara söykənmiş Qədir babanın bu bəyaz istəyi neçə yal aşar, el dolaşar, o uzaq, yamyaşıl talanı tapar. O yaşılca talanı göylünün oduynan bir xırman yeriçən elər. Bu yaşıl dünya çoxaldıqcan, o uzaq dağların arxasından ilıq, yam-yaşıl baəar əavası axıb gələr. Bu yaşıl əava özüynən küsüb gedən istəkliləri qaytarıb gətirər:

Dərdli könlün, məlul çağı,
Budu, yar gəldi, yar gəldi.
Aşığın çeşmi çırağı,
Budu, yar gəldi, yar gəldi...

İnsan oğlu təzədən bu yaz yaşılına güvənib ömrün aşırımlarına, dolaylarına, bu dolaylardakı min bir əziyyətə

mərd-mərdanə üz tutar. Uzaqdan görsənən o yaşıl tala, o yaşıl taladan axıb gələn bir udum yaz havası ömrün təkərini gerimi döndərdi? Cəmi qayğıları götürüb Qədirin çiynindən atdımı bu yaz havası?

Uzaqdan—qarlı dağlar arxasından boylanan o yaşıl tala bir cüt həsrətli, ümidli göz idi. Bu gözlər Qədiri uzun, lap uzun illarin xəta-bəlasından gözlüyürdü. Gedəndə yola salır, gələndə pişvazına çıxırdı. O tala həm də bir ümidli, məxməri səs idi. Ahılı-cahılı payızın yarpaq tökümündən, qışın qarlı dağlarından ehmalca aşırıb üzü yaza sarı, arzuların, istəklərin yaşılladığı o gözəl çağlara çəkib aparırdı.

YAZ TOYUNUN SÖZ SOYLARI

Qədir bu səfər dostluğa gəlməmişdi, qohumluğa gəlmişdi. Hər dəfə ərknən açdığı qapını bu səfər bir azcana ehtiyatnan döydü. Bu qapı hələ bu vaxtacan belə kövrəklik, belə ehtiyat görməmişdi. Öz-özündən açıldı qapı. Evin kişisini harayladı, Qədir. Mayıl çıxıb Qədiri çöldə görəndə inanmadı, inanmadı ki, gəlib küçə qapısında gözləyən Qədir ola. Başladı ərklə giley eləməyə!

Qədirin gözləri güldü, ürəyi atlandı, iki gilə yaş bu gözünnən, o biri gözünnən puçurladı. Bu iki gilə yaşı Mayıl görmədi nədən ki, yazı gətirib gələn qaranquşların, sığırçınların, torağayların səsi, oxumağı götürüb apardı bu iki gilə suyu.

— A Mayıl, ey!..,

Dedi, susdu Qədir, bir ayağı getdi, o biri yox. Dedi:

«gəlmişdim...».

Nədən ötrü gəlmişdi, deyəmmədi.

Dedi: «Gəlmişdim bir-iкi qələmə кəsəm, nar çubuğu aparam».

Mayıl bu deyiləni eşitmədi, nəyi кi Qədir deməmişdi, bax, onu eşitdi. Nəyi кi istəyirdi Mayıl desin, o da utandı, demədi. Qayıtdı кi: «bağ da, ev-eşiк də sənə peşкeşdi».

Girdilər bağa, Qədir bağ görmüşdü, bu gəlişindəкi sayaq görməmişdi. Bu, bağ deyildi, hər şivi adamnan dil açıb danışan, fənd-fel bilən bir yaşıllıq idi. Gəzdilər, gəzdilər, axırda bir кolin dibində durdu Qədir:

—Bax, bu кoldan кəsəcəm, iкicə çubuq, artıq yox...

Кəsdi, кörpə кimi bələdi bu çubuqları, üstündə göz yaşı boyda tumurcuqları vardı:—Gərəк bu çubuqlar göyərsin,— dedi, niyyət eləmişəm...

Nə niyyət eləmişdi, demədi, uluolmuş. Qədir bağdan dönənəcən həyət-baçada bir gizlin əl gəzmişdi, silib-süpürmüşdülər, su səpib sahmanlamışdılar. Qədiri həyət qapısından ötürüb dönəndə Mayıl ömür-gün yoldaşı Pəri arvadı harayladı:

—Qədirin bu gəlişi özgə gəlişlərə bənzəməz, a Pəri.

Pəri bilərəкdən iz azdırdı:

—O narrarda çoxdan gözü vardı, təкi bar versin, bəhəri onsuz da bizimdi.

Bu həyət-bacada, ev-eşiкdə Mayıldan, Pəridən savay bip hənin də gəzib dolaşırdı, bir cüt göz də görürdü, bir cüt qulaq da eşidirdi, pərdə dalından baxırdı, qapı arxasından dinşəк кəsilirdi həmin кəs кi, Qədir onun təmənnasına gəlmişdi. Gəlmişdi illərin dostluğunu qohumluğa döndərə, ad eləyə oğluna. Pəri arvad o axşam qızını aynan, ulduzlarnan ixtilatda, sevdada gördü. Bir barmaq olmuşdu utandığından, bir

diləкçinin çavabını verəmmirdi.

Anası dedi:-qızım, mətləbini sudan dilə, su aydınlıqdı. Qız nə dilədi, anası eşitmədi, anası suların aydın-aydın pıçıltısını eşitdi, hər iкisi razı, şad döndülər.

Qədir nar çubuqlarına «arzu»-diləк» deyib əкdi. Göz yaşı кimi tumurcuqlar кi vardı, az qalmışdılar əriyələr, axalar, di gəl dözdülər. Cəmi ağaclarnan bir yarpaqladılar, göyərdilər. Qədir baxıb dözəmmədi, gözləri bulağa döndü. Getdi Mayılın yanına кi, bu ağac deyildi, bir cüt sevda idi əкdiyim göyərdi, a Mayıl!

Mayıl dedi: «Çünкi torpaq birdi, gərəкdi ərnən arvadın da torpağı bir yerdən götürülə».

Bu söhbətə pərdə qırağından bir cüt göz baxırdı, xəlvətdən bir cüt qulaq dinкəş кəsilmişdi. Həmin gözlərin yiyəsi bu xəbəri eşitcəyin yüyürdü o nar кolunun yanına, кəsilmiş qələmələrini sarıqladı, öpdü, oxşadı. Sora qaçdı çay qırağına, sulara gül səpdi, aya, ulduzlara alxış dedi. Qayıdıb bir ovuc buğdadan səməni qoydu, yaşıdlarını başına yığıb onlara da bu günnən arzuladı...

Az ötdü, çox ötdü, bir gün elə oldu кi, o gözlərin yiyəsi yeddi qapıya şirni payladı...

Bir cüt qələməni кi Qədir кişi əкmişdi, çox ötmədi bar verdi. Bu bar qucaqlar dolusu, ocaqlar dolusu oldu. Nənnilər, yüyrüкlər asıldı, xonçalar tutuldu, burma buynuz toğlular кəsildi. Nənələr el sözlərini noğula-nabata döndərib bu nənninin sahiblərinə pay elədilər: «Zamanası gələr, gərəк olar».

Yurdumuza yaz gəldi-gördüк, bağ-bağat gül-çiçəк açdıgördüк. Çaylar telləndi, selləndi, dağlar, yamaclar seyrəngaha döndü, hamısını gördüк. Üzü payıza dönəndə bu yerlərə salamatlıq arzulamış кöçəri quşlar üzlərinə ələк tuta-tuta qayıdıb gəldilər. Utana-utana gəldilər durnalar, leyləкlər...

Vaxtı axşama, qaranlığa salıb gəldilər. Dedilər görən olmaz, özü də lap ucalardan götdülər. Di gəl bu yurdun, doğma yerlərin, sakit, qorxusuz, arın-arxayın göylərin gülab ətri gələn havasını udanda dözdülərmi? Yox! Bir qıy çəkdilər. Qədir kişi bu haraya çıxıb durna qatarını görəndə inandı ki, dünyada yaxşı olan nə varsa, qayıdıb yetişəcək öz əsil-kökünə. Durnaların səsi batanacan gözlədi Qədir kişi. Bilirdi ki, bu təkcə durna gəlişi deyil. Xeyir-bərəkətin, şadlığın-əlbirliyin yer üzünə gəlişidi. Nədən ki, hər il bu vaxtlar durna köçü qayıdanda el-camaat can deyib-can eşidir. Bahar şənlikləri bir-birinə qoşulur. Cavan-comrul dağ laləsi kimi yamaclara səpələnir, demək-gülmək şənlik eli başına alır.

Orası da var ki, hər il durna köçü üzü bizim yerlərə qayıdanda dağ-daş, bağ-bağat oyandığı kimi yurda bəzək adətlərimiz də qaynara düşər, elə bu vaxtlar el-günün işinə yarayar. Qədir kişi ona şad olar ki, adətlərimizi indinin özündəcə xətir-hörmətnən yaşadanlar çoxdu. Bəllidi ki, toy adəti elçilikdən başlayır. Yəni qız qapısına «xan qapısı» deyib gedən ağsaqqallar iki həsrətlini bir-birinə qovuşdurmaq xətrinə el adəti üzrə elçilik eləyirlər—qızı oğlan üçün istəyirlər. Elə ki, qızın «həri»si verildi, oğlan evindən nişan gələr.

«Nişantaxma» mərasimində cavan qızlar, qadınlar olur. Evin ortasınaca üzü günbatana bir taxt qoyulur, üstünə qırmızı payəndaz salınır. İki qızın əlində yanan şam, birinin əlindəsə güzgü olur. Oğlanın bacısı qırmızı örtüklü xonçanı gətirib qoyur ortalığa. Gəlini taxta əyləşdirib başına qırmızı şal örtürlər. Oğlanın bacısı bu vədə əlində üzük oxumağa başlayır:

Ay Lənkəran yeddi küçə:
Qardaş, bu ceyranı hardan almısan?

Ay yeddi gün, yeddi gecə
Qardaş, bu ceyranı hardan almısan?
Yalvara-yalvara bağa salmısan?

«Xınayaxdı» qədim toy adətlərinin ən şıdırğı yeridi. Oğlan evinə köçməmişdən bir az əvvəl qızgildə keçirilir. Qızın dost-tanışı, qonum-qonşusu, yaşıdları həmin gecə pay-pənəylə cəm olarlar yığnaq yerinə. Burda başlar oxuma, oynama, gəlin köçəcək qıza arzu-dilək söyləmək.

Xınayaxdı mərasimindəki oxumalardan biri bu günəcən Mingəçevir tərəflərdə dildən düşmür. Oxumanı dəstəbaşı deyir. Nəqarət yerində cəmi qızlar dəstəbaşıya qoşulurlar:

Bir qız belə deyir:

Bazara gəldi pul alan
Yan-yaxıl, a dul olan!
Yerin cənnətə dönsün,
Qız əlindən gül alan.

Başqa bir qız:

Məclisə gələn aşıq,
Avazlı-səsli gərək
Qoyma xaldan xal olmaz,
Xal özü əsli gərək.

Oxumanın şirin yerində bir onu görərsən ki, qızlardan

birisi əlində xına məhlulu olan tasla girdi ortalığa. Tezcənə qızlar onu alar araya, barmaqlarını xınaya batırıb ovuclarına istəkililərinin adının baş hərfini yazarlar. Bir qırağa çəkilib, əlləri quruyanacan gücü verərlər dilə, başlar atmacalar sancmalar, eyhamlar. Biri qayıdar ki, o günnəri Nargiləni bulaq başında bir oğlanla görmüşəm.

Bu söz düzdümü, səhvdimi, soruşan olmaz hamı başlar Nargiləni çırlatmağa:

— Görəsən oğlan bu Nargilənin nəyini bəyənib?

Nargilə bir yan olar, qızlar bir yan. Haqdan-nahaqdan möhkəmcə utandırarlar onu. Sora da boynuna qoyarlar ki, təzə sevdanın eşqinə bir qol götürüb süzsün. Nargilə oynamasa, əl çəkməzlər ondan.

Bu xınayaxma ki, deyirik, təkcə gözəl görünməkdən ötrü döyül. Əlbəttə, orası da var ki, ənlik, kirşan, sürmə kimi xına da qadın bəzəklərindəndi. Loğman adı almış təbiblər deygisidi ki, xına həm də baş ağrısının, qaşınmanın qabağını alır. Saçı kəpəkdən təmizləyir. Ələ, ayağa xına çəkəndə «Qarayaz» vaxtı dəri çadarlanmır, barmaqlara çat düşmür. Xına həm də sevinc, şadlıq əlaməti olduğundan şənliklərin bəzəyidir.

Gəlin gedən gün qıza «Bəxt köynəyi» kəsilir. Bu köynəyə adətə görə yeddi subay qız qırmızı sapla tikiş vurur. Qızın anası sandığa bir ovuc düz, bir tikə çörək, iynə-sap qoyur. İnanışa görə belədə gəlinin əli bərəkətli, özü zəhmətsevər olur.

Xınayaxdının dalısınca dabanbasma gəlir «Qız köçü» mərasimi. Oğlan adamları çalğı-oxumayla gəlib kəsdirirlər qız qapısını ki, «balam, qız almağa gəlmişik».

Lerik tərəflərdəsə elə ki, oğlan adamları gəlib yetişir qız qapısına, belədə bir qədim oxuma düşür yadlarına. Başçı oxuyur:

Gəldi oğlan adamı hey, nar-nar,
Ağam, sındır badamı hey, nar-nar!

Qız evi bunun bir işarə olduğunu bildiyindən sözsüz-soraqsız qızı bəzəkli-düzəkli gətirib verir oğlan elçilərinə. Elə ki, qız qapıdan çıxır, bəyin qardaşı irəli yeriyib kəmərini onun belinə bağlayır, papağını da üç dəfə gəlinin başına qoyub götürür. Yerli camaat bunnan yetirmək istəyir ki, gəlin köçü ailənin namusu-qeyrətidir. Elə bu məqamda bəyin qardaşı bir xırda oğlan uşağını qızın qucağına qoyub oxuyar:

Anam-bacım qız gəlin,
Əl-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

Sora çırağı, yaxud şamı üç dəfə gəlinin başına dolandırıb onu oğlan evinə yola salırlar. Çıraq, yanıkı şam gərək düz oğlan evinəcən yana. Gəlin köçü gethagetdə bəy evinin adamları belə bir saçma söylər:

Sandıq üstə gücü var,
Gücünün min ucu var.
Gəlini biz apardıq,
Bizdə bəylər gücü var.

Qədəmlərdə elə ki, qız köçdü oğlan evinə gəlib yetişdi, təzə gəlin düşdüyü ata üç dəfə sağdan minib soldan, soldan minib sağdan düşməliydi, gəlinin düşdüyü yerdən evin qapısınacan xalça döşüyərdilər. Gəlin də bu xalçaların üstüy-

nən gedib qapıya yetişər, adətə görə qapını üç kərə açıb örtər, sonra ayağının ucuyla açıb içəri keçərdi. Qapının ağzında aydınlıq uğuruna suyla dolu piyalə qoymaq da dəbdi. Gəlin içəri keçəndə piyaləni ayağıyla vurub yıxır, gərdəyin dalına keçib ayaq üstə gözləyərdi.

Adətə görə qaynana gəlməli, gəlinin əyləşməsinə izn verməliydi. Qaynana izn verəndən sora gəlin üç kərə oturub qalxar, sonra əyləşərdi...

Şəkidə oğlan bəy duranda boynuna kələğayı xələti atmaq dəbdi. Kələğayı ona görə atırlar ki, əvvəla yumşaqdı, bunnan arzu eləyirlər bəylə gəlinin rəftarı yumşaq olsun. Sonrası da kələğayı ipəkdi axı. İpək də uzunömurlü olan şeydi. Bunnan da cavan ailəyə ipək uzunömürlülüyü diləyir el-camaat. Bəy gözünə döndüyüm də boynuna qalaqnan kələğayılardan dəstələyib atır sağdışın, soldışın boynuna. Elin bəyə olan diləklərini dostlarıynan bölür.

Gəlin köçü gedirdi, dağ-daş dilə gəlmişdi, köçü ötüşən dərələr, çöllər baxa-baxa qalırdı. Cıdır atları oyunbaz kimi oynayırdı. Köç gedirdi, köçün dalısınca su atırdılar, köç gedirdi, köçün qabağına duz-çörək qoyurdular, kəndir çəkirdilər, pəhləvan çıxardırdılar. Bəy atası ciblərini çuval ağzı kimi açmışdı, bəy anası şirni xonçasını uğura çıxana pay eləyirdi. Belədə duz-çörəyi götürürdülər, kəndiri açırdılar, pəhləvanlar bağır basıb çəkilirdi. Təzədən cıdır atları oyur-oyur oynayırdı, köçün dalısınca su atılırdı. Qədir kişi bu köçə baxdı-baxdı, sonra qarısına sarı döndü: «Yəqin bunların da nar kolu gül açıb»—dedi.

Aydınkəndin (Quba rayonu) toy adətləri öz çeşidinə görə seçildiyindən onlar sarıdan ayrıca söz açırıq. Bu yerdə xalqın ürf-adətlərini arayıb araşdıran Qəmərşah Cavadova razılıq eləyirik.

«KƏKLİK-KƏKLİK» OYUNU

Aydın kənddə toylar iki, kimi vaxtı lap üç gün çəkər. Toyun ikinci günü qız evində şülən olar. Buna xınayaxdı gecəsi deyərlər. Bir növ gəlin köçən qızla vidalaşma gecəsi olar bu gecə. Odur ki, bir növ çalışarlar uzun illər gözü-könlü öyrəşdiyi ata-anasından ayrılan qıza ürək-dirək, üstəlik də öyüd-nəsihət verələr, darıxmağa qoymayalar. Xına gecəsində bir də görərsən başladılar «Kəklik-kəklik» oyununu. Bu oyunda dörd qadın iştirak elər. Guya buların ikisi kəklik satandı, ikisi kəklik alan. Evin tən ortasında bardaş qurub əyləşərlər, özü də görükməsinlər deyə üstlərinə şaldan, parçadan atarlar. Kəklik satan tərəf başlar öz malını tərifə. Alanlarsa dilağız eləyər ki, qoy yaxşı-yaxşı tərif eləsinlər. Satanlar daha da ruhlanar, başlarlar kəkliklərinə belə bir söz yaraşdırmağa:


Kəkliyim ala kəkliyim, səkildir
Qaşları qara kəkliyim, səkildir.

«Kəkliklər» də başlar quş təkin səs çıxarmağa, oxumağa. Bu qadınların bütün işdəkləri dəfdə çalınan diringilərdə müşayiət olunar. Yəni qadınlar öz kəkliklərinin başına fırlana-fırlana oxuyarlar. Bu oxumaları dinləyən alıcılar onları alıb apararlar guya evlərinə. Yenə «Kəkliyim ala kəkliyim, səkildir» mahnısı oxutmaq istərlər, amma bu dəfə kəkliklər başlar pişik kimi miyoldamağa. Alıcılar mat qalar ki, niyə bu kəkliklər oxumur. Onçun da təzədən varıb gedərlər satanla-

rın üstünə şikayətə. Qayıdarlar ki, bu nədir, siz bizə kəklik əvəzinə pişik satıbsız. Satıcılar daha iki qadın göndərib onların kəklik olub-olmadığını yoxlatdırar, şahid qadınlar məsələni yönünə qoymaqçın başlar quşları sorğu-suala tutmağa: «Kəklikələrim, ilk sahibiniz sizə nə yedirərdi? «Xurma»— deyə kəklikər bir ağızdan çavab verər. Şahidlər bir də xəbər alar: «Bəs ikinci sahibiniz sizə nə yedirir?» Kəklikər ağızlarını büzüb iyrənirmiş kimi deyərlər: «Duzlu siçan». Qadınlar məsələni araşdırıb geri qayıdır, satıcılara məlumat verirlər. Kəklikələrin ilk sahibləri alanları o ki var məzəmmətləyib, quşları təzədən geri alırlar. Bunu bilən kəklikər şadlıqdan səs-səsə verib əsl quş kimi qaqqıldaşırlar. Sahibləri isə onları əzəlki kimi əzizləməyə başlayır:

Kəkliyim ala kəkliyim, səkildir.
Qaşları qara kəkliyim, səkildir.

Burdaca xına gecəsinə gəlmiş qadınlar ellikən dövrə vurur, onlardan biri dəstənin başına keçib dəf çalır, qalanları da kəklikələrin başına dolana-dolana oxuyub oynayırlar.



«QARABİRÇƏK» OYUNU

Bu oyun bir məqsədçin qondarılıb—bəyi öymək, onun qolu zorlu, igid, işbacaran bir oğlan olduğunu camaata əyan eləmək üçün. Burada da iki tərəf iştirak eləyir. Oyunun əvvəlində iki qadın evin ortasına çıxır, əl-ələ verir, o birilər əllərini yuxarı qaldırırlar. Əlində dəf tutmuş daha iki qadın da oxuya-oxuya əl-ələ tutanların əlləri altından keçirlər. Sonra biri sağa, biri sola dönür, beləcə oyun uzanır. Dəf çalan qadınlardan səsi olan birisi başlayır «Qarabirçək» mahnısını oxumağa. O birisi də əl çala-çala ona cavab verir.

Ay qarabirçək, telli gəlin,
Tellərin ollam bu gecə.
Ağayarım evdə yoxdur
Çörək də verməz bu gecə.

Ay qarabirçək, telli gəlin,
Aslan bəy ollam bu gecə.
Ağayarın evdədirsə
Qoyun da kəsər bu geşə.

Oyunun şərtinə görə birinci tərəf bəyin, həm də kəndin adlı-sanlı cavanlarının adını çəkməli, ikinci tərəfsə buna uyğun çavablar verməlidir. Əgər adı çəkilən oğlan doğrudan qabil, xeyirxah bir insandırsa, ikinci tərəf də ona müsbət cavab qaytarır, yox, əgər korafəhim, xoşagəlməzdirsə, «heç nə verməz», «heç nə kəsməz», «heç nə qıymaz bu gecə» deyə

etiraz edərlər. Bu halda bütün iştirakçılar qəşş elər, həmin şəxsi ədəb-ərkan dairəsində məzəmmətləyər, qamçılayar. Bu bir növ kişi olan şəxsi əliaçıqlığa, gözütoxluğa, xeyirxah olmağa çağıran oyundur. Çünki burda kəndin hər evindən heç olmasa bir qadın iştirak eləyir ki, yəqin o da evə dönən təki öz qardaşına, atasına, ya ərinə xəbər aparasıdı...

QIŞ İLƏ YAZ KÖRPÜSÜ

Qışla baharın qovuşuğunda yağan qara, yağışa Qədir kişi ruzu deyər. Gecələrin birində ruzunun beləcə xəlvəti, gizli gəldiyinə inanıb. Ömrü uzunu çərçilik eləyib, əkib-biçib, yer sürüb, maj tutub, bağ becərib... Di gəl ruzunu nə vaxtsa xəlvəti yağan bax, bu bəyaz qar kimi saf, təmiz, səssiz-səmirsiz gözləyib.

Bunun bir ayrı ləzzəti olur, bala. Elə bilirsən bu qazancdı. Elə şirin olur ruzu payı! Özü də elə bilirsən tək-təkcənə sənin adına göndərilib. Bax, bunun bir ayrı dadı-tamı olur.

Özü də Qədir əmi ruzunu nəyinsə ayağına çıxardı. Deyərdi ruzu yüz cilddə, yüz görkəmdə gələ bilər. Gələn ruzunu qapıdan eləmək günahdı. Yaz ağzı bir göyərçin gəlib döyəclərdi aynanı. Deyərdi quşcuğazın yolunu müdam açıq qoyun. Nə bilmək olur, bəlkəm elə bu ilin ruzusu qaranquşun ayağında gəlir...

Uluolmuş oturub-durub deyər ki, ocağın ruzusu elə ocağınca bir kəsnəsindədi, indi bilmirəm kimdə, nədə. İndi olur da iri-buynuz, yainki xırdadırnaq artıb örüyür. Qədir də bunun hamısını qardaş eləyib saxlamayasıdı ki... Vədə tamamında Qızıl düyəni satır. Dalısıycan boz düyə kefsizləyir. Ala

inək qısır keçir... Ta nə bilim nə. Qədir kişi belədə vaysınır ki, əyə, gərək o düyəni satmayaydıq, A Bədəl. Ocağın ruzusu o Qızıl düyənin ayağındaymış, ay oğul.

Övlad da belə, dost da, simsar da. Adam birinin salamından salamatlıq tapır, o birinin alxışından dərd-açar. Birinin gəlişi toy-bayramdısa, bir başqasının qədəmi silsüpür. Onçu da ustad deyir: ruzulu adamın ruzusu özündən qabaq gələr. Müdam süfrə, bolluq üstə çıxan adama deyərlər: «balam, qaynanan səni çox istəyir, ruzulu adamsan».

Əl-əl üstə beləsini keçirərlər başa.

Qədir kişi deyir ki, ruzu da insan oğlunun xasiyyətinə, əməl felinə biçilən bir bəxşeyişdi. Aynabat nənəm deyərdi ruzu adamın ürəyinə görə verilir. Ha çalış, vuruş, məqsədin xainlikdisə, evyıxanlıqdısa, əməyin puç olacaq. Dərdiyin yığdığın da eləcədə dərdə-dərmana xərclənəcək, Yox, əyəmlərin çörəyini halallıqnan qazandın, arpa sənsən ha, baxıb görərsən buğda göyərib. Ruzu, qismət bax, budu, qardaş. Eyzən halallıq saflıqdı, təmizlikdi.

Uluca xalqımızı da qədimdən şahları, xaqanları aqil görmək istədi. Ondu da seyləmələrdə, rəvayətlərdə belə şahlar, xaqanlar düzüb qoşdular.

Günlərin bir günü ölkənin şahı çıxır başmaq seyrinə. Bu vaxt bir qocaya rast olur ki, qoca da yanından ötüb keçənlərə birnəfəsə öyüd eləyir: «Yaxşılara yaxşılıq elə, pislərin pisliyi özünə çatacaq». Şah nə ağıl eləyirsə deyir, kişi, sən belə elə. Hər gün saraya gəlib bu hikməti mənim yadıma sal.

Sabahı gün qoca gəlir saraya, hikməti şaha yetirir. Şah da heç nə demir, bir kağız yazıb verir qocaya ki, yetirərsən bunu Məmməd tacirə.

Məmməd tacir alıb baxır ki, şah yazıb: «mənim xətrimi istəyirsənsə, bu qocaya hörmət elə».

Tacir də əlacsız qalıb bir xeyli pul verir qocaya. Pulları alıb baxır, düzəlir yola. Zalım zamanaymış, ac-yalavacı dolu. Yolboyu tacirin verdiyini bu aclara paylayıb qurtardı. Səhəri gün yenə gəldi şahın yanına, nəsihəti bir də dedi. Şah da tovuz lələyini qələmdannan sıyırıb ağ kağızda qaralar düzdü, büküb verdi qocaya. Qoca saraydan çıxanda baxdı ki, kağız bu səfər Əhməd tacirin üstə yazılıb. Əvvəlki tacirə necə, buna da elə.

Əhməd tacirdən aldıqlarını da yolda salim-dilənçiyə paylayıb evə əliboş döndü. Fikirləşdi ki, şah durur, sabah durur, tacirlər də ki, yerində.

Sabahı birtəhər açıb götürüldü saraya sarı. Şah dərgahına yetişməmiş vəzir kəsdi qocanın qabağını. Qayıtdı ki, ay aqil, şahnan dost olanda nolar? Bir biz bəndələri də yada sal, süfrəmizdə qismət kəs.

Qoca dedi ki, şaha yetirəsi sözü var.

Vəzir kələyə əl atdı:—Qibleyi aləm hələlik yerində döyül, bir hovrdan gələcək. Gedək bir stəkan çaya qonaq ol, sora öz işindi.

Qoca düşdü vəzirin felinə, gəldilər. Vəzir göznən-qaş arasında süfrə hazırlatdı. Dolma çəkdirib qatığını sarımsaqladı. Yedilər, içdilər. Qoca dedi: süfrən bərəkətli olsun.

Yollandı şah dərgahına.

Eşit xəbəri vəzirdən. Elə ki, süfrə tədarükü başlanmışdı, vəzir tez şah dərgahına gedib başlamışdı çuğulçuluğa:

— Şah sağ olsun,—demişdi, o aqil sayıb dünyanın hörmətini elədiyin qoca, hər dəfə dərgahından çıxanda çamaata deyir ki, sarımsaq iyindən şaha yaxın düşəsi döyül. Ta çarəm yoxdu bir kəlmə sözü deməyə birtəhər dözürəm...

Cin vurur şahın başına. Elə bu vaxt qoca gəlir hikməti bir də yetirsin. Elə başlamaq istəyir ki, şah əl qaldırıb onu

yaxına çağırır. Qoca da sarımsaqlı qatıq yeyib, axı. Fikirləşir ki, yaxşı düşməz, necə olmasa ölkənin şahıdı, xətir-hörmət gərəkdi. Nəsə üzürxahlıq eləyib yerindən tərpənmir. Şahsa vəzirin dediklərini yadına salıb kəsdirir ki, ey dili-qafil, sən demə vəzirin sözləri haqq imiş.

Şah bərkə salmayıb bir kağız da yazır, ağızını surqu-clayıb verir qocaya. Bu səfər hakimin üstünə yazır kağızı. Qoca dinməz-söyləməz çölə çıxanda vəzir yolunu kəsir. Əlində kağız görcək tez başlayır onu dilə tutmağa. Deyir a qoca, bu günün sabahı da var, bu dəfəki ənam qoy mənə çatsın, kağızı ver, ünvanına mənciyəz yetirim. Qoca deyir: nolar, çörək kəsmişik, al bu da kağız.

Vəzir kağızı alcağın ta durmur, birbaş üz tutur hakimin yanına. Hakim kağızı açıb oxuyan kimi cəlladı çağırır, əmr eləyir ki, vəziri ikişaqqa eləsin. Əmr o saatca icra olunur.

Səhəri gün qoca bir də gəlir şah dərgahına, başlayır ki, sən yaxşılara yaxşılıq elə, pislərin pisliyi özünə çatar.

Şah deyir, ə, bir dayan, sən hələ sağsan?

Qoca kəsdirəmmir.

Deyir, a kişi, kağızı aparıb hakimə vermədinmi?

Qoca deyir, günahkaram, şah sağ olsun, verəmmədim...

— A kişi, nöşün?

— Ona görə ki, vəzir mənnən xahiş elədi. Dedi, hər gün sən şah ənamını alırsan, qoy bugünkü ruzu da mənim olsun.

Şah gedir fikrə, sora əyan-əşrəfi, qocanı da götürüb gəlir divanxanaya. Görür vəzir ikişaqqa asılıb.

Deyir, a qoca, bə dünən səni çağıranda neyşə yaxına gəlmədin.

Deyir, şah sağ olsun, ona görə ki, vəzir bir qədəm qabaq mənə sarımsaqlı dolma vermişdi. Dedim yaxşı düşməz.

Belə deyəndə şahdan ötrü bəzi-bəzi mətləblər başladı

aydınlaşmağa. Qayıtdı ki, aqil qoca lap elə yeridi, hər gün dediyin hikməti bir də de.

* * *

Bu örkən uzunu qış gecələri alaca gözlü ocaqların gözü keçməz. Söhbət bir sözdən dəm alıb adlayar o birinə. Beləcə-beləcə dan yeri sökülənəcən yığnaq dağılışmaz. Bu yığnaqlar da hər dəfə bir elin söz payı irdələnər, gülməcəsi, hikməti üzə çəkilər. Bu səfər söhbət ayaq alar Təbriz elli yadigarların üstünə. Təzə-tər söyləmələr belədə bahar havasına dönübəni peydərpey axıb gələr bizə sarı.

Söz yel qanadlıdır, bir də gördün əsrləri, qərinələri adlayıb gəldi. Gəlişiylə tarixin özünü, tarixə düşüb yaşarlıq qazanan yüzlərlə hikmət gətirdi. Bu yel qanadlı sözlər Arazın o tayında ömr eyləyən ellilərimizin vərdişlərindən, ürək titrədən, qan qaynadan oxumalarından, gülməcələrindən söz açır bizlərə.

Bu rəvayətlərin birisində təbrizli aqil tənbəl, nadan cavana öyüd eləyir. Deyir, bir gün bir kişi xiyabandan keçəndə cavan oğlan ona əl uzadıb kömək istədi. Kişi baxdı ki, oğlan sağ-salamatdır, özü də gözəl, qamətli. Dözə bilmədi:

— Ay cavan, sən axı çox dövlətlisən. Yolçuluq eləmək sənin harana yaraşar?—dedi.

Cavan təəccüb eləyəndə aqil dübarə qayıdır ki, inanmırsansa, sınayaq. Bax, mən sənə 500 tümən verirəm, bu şərtlə ki, əlini kəsəcəyəm.

Cavan bu şərtə razı olmadı:

— Yox, əşi, gərək deyil 500 tümənin.

Belədə, aqil onu yenə də sınağa çəkdi:

— Yaxşı, 800 tümən verim, bir qıçını kəsmək şərtilə.

Cavan bu səfər də şərtə qol qoymadı. Aqil işi belə görəndə məzəndəni bir az da artırdı:

— 2000 tümən versəm, necə? Di gəl ки, gərəк gözlərini çıxardam. Hə, necədi, razısan?..

Dilənçilик eyləyən cavan bu şərtə heç razılaşmadı. Aqil dilənçiyə qayıtdı ки, oğul, görürsənmi, necə dövlətlisən. O qədər dövlətlisən ки, 2000 tümən verirəm, almırsan. Bunçu da belə qiymətli canını ona-buna əl açmaqla alçaltma. At tənbəlliyin daşını, işlə, zəhmət çəк, çörəк qazan. Cavanlara qoşul, yaxşı ad al!

Qocanın sınağından sonra yolçu cavan durub üzr istədi. Qulac-qulac qollarının, ayaqlarının, işıqlı-nurlu gözlərinin qədrini bildi. Bu gündən zəhmətə qatlaşacağına söz verdi.

Atalar deyib ки, sonrakı peşmançılıq heç vədə fayda verməz. Bir işi tutanda tədbirli tut heç vaxt naqolaylıq, kəmfürsətliк eləmə. İşdi, əlindən səhv çıxdı, yanıb yaxılmağa dəyməz. Ta neyniyəsən, olan oldu, bir də geri qayıdan döyül.

Bu sözun qüvvəti bir tacirin bir neçə şagirdi vardı. Həmişə onları danlayıb acıqlanıb deyərdi ки, bax, gönü suya verməyəsiz, ha!

Şagirdlər də çox çalışardılar ки, tacirin tapşırığı yaddan çıxmasın—gönü suya verməsinlər... Bu şagirdlərdən biri günlərin birində çayda gön təmizləyəndə su gönü alıb aparır. Şagird qorxusundan iки gün tacirin yanına gəlmir, üçüncü gün naəlac qalıb gəlməli olur. Durub gözləyir ки, tacir indicə əsib-coşacaq, onu dükandan qovacaq. Xeyli gözləyir, görür yox, tacir ağzını açıb bir söz demir, bu yerdə şagird dözməyib əhvalatı tacirin yadına salır:

—Tacir ağa, sən həmişə bizi danlayıb tapşırırdın ки, gönü suya verməyəк, O günləri... bəs deməzsən əlimdən xəta

çıxdı, gön suya verildi.

Tacir qayıtdı ки, bala, Qulamsöyün, mənim qəsdim o idi ки, gön suya verilməyə. İndi ки verilib, кeçibdi. Çalışın bunnan sonra gönü suya verməyəsiz.

Əmir Teymur Ağşəhər hakiminin dəftərxanasını təhqiq elətdirir. Səhlənкarlığına görə dəftərləri parçalayıb hamısını ona yedirdir. Sonra mollanı çağırıb onu vergi məmuru təyin etməк istəyir. Molla nə qədər üzr gətirirsə, Teymur qəbul eləmir. Nəsə ay tamam olanda Teymur mollanın dəftərlərini istəyir, görür ки, molla yazıları lavaşa yazıb. Belədə hiddətlənib xəbər alır:

— Molla, bu nə dəftərdi?

Molla fağır-fağır qayıdır ки, əmir sağ olsun, güman elədim ки, ayın tamamında bu dəftərləri mən yiyəsi olacağam. Mən də ки, qoca iştaəasız adam. Yeyə bilsəm ancaq elə bu sayaq dəftəri yeyə billəm...

DÜZGÜLƏR

Ay baba, nə uladı?!
Sonra quyruq buladı.
Dinni yetər—
İşdən betər.
Həş-hüş,
Tənbələm puş,
Gözünə şiş.
Dünən yağış yağırdı,
Fatma inəк sağırdı.
Gəlin gedəк pambığa,
Pambığı Fatma yığa.
Əкin alaqda qaldı,
Saçım daraqda qaldı.
Balaca кişi toy çaldı,
Qonşuları əl çaldı.
Şağ ol, var ol, sağsağan ol,
İsti fətir, göy soğan ol.

ƏMİM OĞLU

Qız: Əmim oğlu
Oğlan: Bəli!
Qız: Bizim toyuq sizdəmi?
Oğlan: Bəli!
Qız: Kişlə gəlsin!
Oğlan: Gəlirmi?
Qız: Vur qıçı sınsın.
Oğlan: Sınırmı?
Qız: Sal təndirə!
Oğlan: Yanırmı?

QULAQ EŞİTDİYİNDƏN

SƏN HARALISAN, DURNA?..

(Novruz elçiləri)

Bizim dağların üstən bu payız durnalar erkən uçub getdilər. Hərə bunu bir yerə yozdu. Kimi dedi, zalım uşağı perikdirib durnanı. Biri qayıtdı ki, dən azlıq eləyib, o biri dedi—su, qərəz hərəsi bir söz dedi. O dedi, bu dedi, o deyəni bu bəyənmədi, bu deyəni o. Yığışıb gəldilər Qədir kişinin yanına. Soruşdular:

— A baba, gün görüb dövran sürmüsən, bu durnalar niyə erkən uçub getdilər?

Doğrudan da durnalar bu yaz min il bundan əvvəlin yazında olduğu kimi gəlmişdilər. Qanadlarında, səslərində bu ulu torpağa mehr-məhəbbət gətirmişdilər. Sığırçın, alabaxta olub özünü gözə dürtməmişdilər. Ey... uca-uca buludlardan uca uçub bir axşamın alatoranında, bir səhərin ertəsində gəlib «a dağlar, salam»— demişdilər.

Bu səs onda dağların iliyinə işləmişdi. Min illərin qocalmaz, qarımaz dağları bir durna harayınnan, bu harayın istiliyinnən, doğmalığınnan, mehr-məhəbbətinnən az qala ərimişdilər. Dağlar onda qardaş kimi boy-boya dayanmışdılar.

Dağların baharı onda başlayırdı. Çəməni bir əlvan xonça bilib başına qaldırırdı dağlar. Üzün bu qərib, bu doğma haraya, bu mehirri salam-sənaya tutub xəbər alırdılar: «Sən

haralısan, haralı, durna?»

Bizim dağların üstən bu payız durnalar erkən uçub getdilər. Xəbərsiz, qəfil köçüb getdilər. Yurdu ağzı boza qoyub nə vaxt ötüşdülər... bilmədik. O durnalar ki, nağıllarımızdan, dastanlarımızdan, sevda dolu, yazlı-baharlı yuxularımızdan keçmişdi.

Oyanıb ruzulu-sayalı nənələrə söyləyəndə bu yuxuları xeyirə yozmuşdu. «Başında sevda var»—demişdi...

İndi hara uçub getdilər? Kimdən küsüb getdilər? Bilən olmadı. O durnalar ki, qəriblikdə Qoç Koroğlu üzün onlara tutmuşdu, ana yurd sarıdan olardan iltimas eləmişdi:

Göydən gedən beş durnalar,
Bizim ellər yerindəmi?
Bir-birindən xoş durnalar
Bizim ellər yerindəmi?



Durnalar da belə məqamda bir amanat lələk salardı. Bu lələk dönüb olardı mərd iyidlər nişanası. Salıq verib deyərdilər: «Eyvazım on beş yaşında, durna teli var başında».

Yazın təzəgül vədəsində bu sayalı durnalar hardansa anasının ilki olan qız uşağının yuxusuna gəlib girərdi. O da qaçıb gələrdi ki, a nənə, yuxuda durna gördüm.

O gün eldə şadlıq olardı. Xalq inamında durna, leylək sayadı, sünbül də bolluq, firavanlığın bir nişanəsi.

O vaxt ərgən qızlar, sevdalı oğlanlar yuxusunda bax, beləcə qatarlaşıb uzaq eldən gələn durnalar, su dolu güyümlər, «bar-bar» bağıran bağlar, sünbul, gül-reyhan görərdilər.

Həsrətlə yar gözləyən gözəllərə deyərdilər ki, darıxma, bala, durna gələcək, səni də aparacaq. Qışın qaramatınnan darıxan «xırda qızlar» xəbər alardı:

— A nənə, bə durna nə vaxt gələcək?

— Deyərdi: Novruz gələndə, dərdin aleym.

— Bə Novruz nə vaxt gələcək, a nənə?

— O da durna gələndə gələcək, bala, darıxma.

Aşıqlar sıyrılıb məclisə düşdülər, dərdli sevdanın yorulmaz yolçusu Kərəmin rəvayətin elədilər. O yerlərdə ki, həm o tay uzaqdı, həm bu tay, Kərəmin umudu ölkəbilməz, sərhədtanımaz durnalara gəlirdi. Kərəm inanırdı ki, hardasa dağların dalında obaların içində, on yeddi günlük bir mənzildə Əsli xanım bu durnaları şirin-şirin dilə tutacaq, dərdi-dil eləyib Kərəmin ismarıcın eşidəcək. Onçu da saz çalıb dağları aşıb getməkdə olan durna qatarını əylədi:

Durna gedirsiz haraya,
Mənnən yara salam deyin!
Görsəz əyər butam ağlar,
Dönüb yara salam deyin!

Durna, telin şana-şana
Həm o yana, həm bu yana.
Alın sizə bir nişana
Verim, yara salam deyin.

...Bizim dağların üstən bu payız durnalar erkən uçub gedəndə, bu səbəbdən cavan-comrul sözlər hesabına çıxıb Qədir kişiyə üz tutanda, Qədir uluolmuş da üzün bax, o qəlbi dağlara, o dağlar üstən nə vaxtsa xəlvəti uçub gedən durnalar səmtə tutub bir xeyli fikrə getdi. Fikri nağıllarımızdan, dastanlarımızdan, gözəl-göyçəklərin, iyid-ərkənlərin saf, aydın yuxularından, nənələrin sayalı yozmalarından dolanıb gəldi. Qayıtdı ki, durnanın könlünü qırıbsız, a bala.

Boy-boya durdular, səs-səsə verdilər:

— A baba, biz durnanı nə vaxt gördük, göylünü nə vaxt qırdıq?

— Görməməyiniz taycana pis. Bu durnanın keyfini kökdən salan odu dayna. Durna havadan nəm çəkən olur. Yaxşı-pisi, hərbə-hədəni yüz ağaclıqdan tanıyıb bilir. İnsan oğlunun isti-soyuğu durnaya yamanca əsər eləyir. Ulular deyərdi ki, göynən uçan durnanın gözü, yerdə qarıncanı seçir. Biz o vaxtlar xəbər alardıq:

— A baba, bizi də görür?

Deyərdi, nə dediyindi, a kişi qırığı, lap səsinizi də eşidir.

Biz də onda durnaların dalısınca yüyürüşərdik; «Durna mənə lələk ver, durna mənə ələk ver».

Ulu nənəmizin yadigarı bir ələk vardı. Guya min illər bundan əzəl o ələyi nənəmçün durnalar göydən salmışdılar. O vaxtdan bəri bizə elə gəlirdi ki, durnalar gedib yurd saldıqları o görünməz dağların dalında lələklərindən mil çəkib ələk

toxuyurlar. Nə vaxtsa, kiminsə niyyəti durnalara xoş gələndə o bərəkətli ələkdən birini həmin adamın bacasından salacaqdılar.

Durnalar bizim harayımıza ələk salmasa da, hərdənbir lələk salırdı. Bu lələk tutya-təbərriyə dönürdü. Hər axşam bir evdə saxlanırdı, saya hesab olunurdu. Onda durnalar bizim damların lap üstünnən uçurdular. Onda durnalar lap adamların yuxusundan keçirdilər. Onda durnalar adamlarçın ələk toxuyurdu, lələk salırdı, onda durnaların dimdiyində apardığı sünbülü görmək olurdu. Onda... durnalar bizim dağları uca bilirdi, üstündən erkən uçub getmirdi.

* * *

Bizim ellər ta qədimdən səxavətiylə öyündü, duz-çörəyə düz çörək dedi. Heç vədə çörək itirmədi. Düşmənə də duz-çörəyini əsirgəmədi. Bir kərə çörək kəsdiyi ocağa qırx il borclu oldu.

Süfrələr ulu xalqımın mehr-ülfətindən, qədr-qiymətindən xəbər verdi. Onçu da qədirbilən xalqımız səy elədi ki, könül bolluğu, elin var-halı, obalarımızın səxavəti süfrələrimizə çəkilsin. Bayram vaxtları elin səxavəti birə-beş artır, bu süfrələrdən barınan dost-aşna süfrələrimizin halallığına, xeyir-bərəkətinə ömrü uzunu borclu qalar.

Ta qədimnən ulu yurdumuz taxılçılığın beşiyi olub. Taxılın bolluğu yurdun basılmazlığı, süfrələrimizin dost üzünə açılmasıydı.

Zərdüştilərin görüklü kitabəsi «Avesta» el-camaatı əkinçiliyə, taxılçılığa çağırıb. Belə hesab eləyiblər ki, taxıl cücərdikcə ağrı-acı ürküyə düşür, döyüləndə yamanlıq,

pislik döyülüb əzilir, üyüdüləndəsə şər yer üzündən yox olur. Bu inam ulu əcdadlarımızı ta qədimdən qol çırmayıb yer sürməyə, taxıl əkməyə həvəsləndirib.

Elin varı artdıqca süfrəsinin də bərəkəti, nəqşəsi çoxalıb. Analarımız bu illərin sınağında hesab eləyiblər ki, qazanda bişən plovun dadıynan çölməkdəkinin fərqi var. Çölməkdə daşma plov dadlı çıxarsa, süzmə plovun dadı-duzunun yarısı qazandadı.

Xalq ta qədimnən pitini bərnilərdə, bozbaşısa mis qazanlarda bişirməyi məsləhət gördü. Yüz cürə ədviyyat da bu yeməkləri dada-ləzzətə gətirib, ətrini, tamını artırıb.

Qədim sayaçı sözlərimizdə də süfrəmizin bolluğuna dönüm-dönüm işarələr, nişanələr var:

Nənəm, ay ağbaş qoyun,
Yunu bir qarış qoyun.
Yağından pulov olar,
Quyruğundan aş, qoyun.

Dağları endi qoyun
Dolaşdı bəndi qoyun.
Süd-qaymağı bol elə
Sevindir kəndi, qoyun.

«Kitabi-Dədə Qorqud»da adı çəkilən yeməklərin çoxu indi də süfrələrimizin bəzəyidi. Quba tərəflərin süfrə bəzəkləri hər tərəfdə adnandı. Özü də qubalılar mer-meyvəni süfrələrinin baş bəzəyi eləyirlər. Söz yox, bu, Quba tərəflərin bağlar diyarı olduğu səbəbindəndi.

Yalan-gerçək belə deyirlər ki, Lənkəranda dəmlənən plo-

vun ətri cəmi Azərbaycanı bürüyür. Haqqıçına lənkəranlılar düyüdən yüz löyün biş-düş hazırlayıb qonaq qabağına qoyurlar ki, yazıq qonaq da dad-ləzzətdən başlayır barmaqlarını yalamağa.

Şəkinin pitisi, halva-paxlası da deməknən, danışmaqnan döyül. Gərək bir yolunu Şəkidən salıb təamların dadına baxasan. Uzun sözün qısası, uluca yurdun hər oymağı öz süfrəsində bir naxış qorumaqnan nə zamandı ki, cəmi mahallarda bəllidi.

«QƏYSƏVƏ»

Bəlkə də çoxlarının yaddaşlarından silinmiş bir süfrə bəzəyimiz sarıdan söz açmaq istəyirik. Onu da yetirək ki, qəysəvəni indi yaşı ötən qarılar bəlkə xatırlaya bilələr. Qəysəvə hasilə gətirməkdən ötrü çox şey gərək döyül — inək yağı gərəkdi, bir də tut qurusu. Yağı dağ eləyənnən sonra bu tut qurusunu tökürlər yağın içinə, ta qızarıncayana qədər gözləmək gərəkdi. Elə ki, qızardı, hə, qəysəvə olur hazır. Ağbirçəklərin dediyinnən dad-ləzzətində ələ düşən şey döyülmüş.

Kimi yerlərdə qəysəvəni əriyin qaysı növündən hasilə gətirirmişlər. Belə bir güman var ki, qəysəvə adı da elə qaysı sözündən yaranmadı. «Qaysı sevən» soralar «Qəysəvə» şəklində deyilib.

Xeyirli-bərəkətli günlərimiş. Güllü gələrdi diləyə. Görərdi çörək yapılır. Qayıdardı ki, bərəkətli olsun, toy çörəyi yapasan, a Mina xala.

— Sağ ol, a bala, sağ ol.

— Anam dedi ərsini verəsən, bizim ərsin qartlaşıb.

Mina arvad bir bükmə yuxanı dəstərxana yük eləyib ərsini də qoyardı üstünə. Qızın uğuruna bir söz də atardı: — qədirli yerə düşəsən, a Güllü balam!

Ya da kişilikdə olurdu: qonşu gəlirdi ki, bəs kəlim kefsizləyib, kəlini ver, cüt sürüm...

Qədir kişi kəlin də verirdi, üstəlik xışın, kotanın da. İşdi də... adam başına gələr, kəl büdrəyirdi, qıçı sınırdı, ombası batırdı... Deməzdilər mal mənimdi, sənindi.

Görürdün sürü sellənib gəlir. Qoyundu da... bir də gördün Qədir kişinin təpəl toğlusu azdı getdi Səlimin qapısına. Ta onu geri götürdü nədi?

— Bərəkətdi, qapıya gələn qisməti qaytarmazlar.

Belə deyib varından keçib babalar, köçüb babalar... Qoç vədi, toğlu nədi, əşi, ululərimiz evinə gələn qanlılarının günahından keçiblər. Nədən ki, evə gəlib, diləyə gəlib, sayıb gəlib, günahını qanıb gəlib. İş adamın başına gələr. — Ən böyük savablıq odu,— deyiblər, — günahı bağışlamaq. Yamanlığa yaxşılıq ər kişinin işi sayılıb.

Yamanlıq eləmə, qabağına çıxar! Ulular bu hikmətə möhkəm inanıblar. Güman eləyiblər ki, insan əməlinə yazılan yamanlıq, elə o əməl sahibinin qabağına adam sufatındamı, şeytan cildindəmi, hökmən çıxacaq. Sorğu-sual, haqq-hesab aparacaq onnan.

Dedilər: — qarışqasınnan dəvəsinəcən dünyada hər şeyin haqqı var, ruzusu, payı var. Qarışqanı basdın, çörəyi tapdadın, günah elədin — birdi.

Bar üstə ağacı kəsmək günahdı. Yalan-gerçək deyirlər- ağlayır minbudaq olmuş.

Bar ağacına göz dəyər... Soruşsan adamdımı, a Qədir baba? Deyəcək bə nədi?.. Ağacın da, otun da, sərçənin, leyləyin də haqqı, ruzusu var bu dünyada... Qayıdar bir qələmə asar

gilas ağacından: — Nəzəri olanın gönünə!

Qədir baba əkən ağacda yaz gələni leyləklər yuva qurar. Ulu olmuş baxıb deyər ki, şükür, savablı ağac çıxdı. Nədən ki, leylək tayfası hər ağacda yuva qurmaz...

* * *

Elin sözü qurtarmaz. Bizim tərəflərdə deyirlər gilas dəyəndə bağban kar olar. Bu məsəlin yozumu nə təhərdi bəs? Yəni özünü karlığa, eşitməzliyə qoyar bağban. Hər yoldan ötənə pay versə, bağ uralanar — bu səbəbə deyiblər.

Yaz gələni yuvalar göynədi, ocaqlar yanmağa darıxdı. Yurd yerlərinin yuxusu azdı, gecəli-gündüzlü yollara baxdı. Gələcəklər, ocaq çatacaqlar, yurd salacaqlar...

Babalar sözü, yuxu azanda can dincəlməz. Yuxu azıb başqa birisinin yuxusunu qarışdırar. Bir cavan yatıb həsrətlisin gördü. Tez durub, balışın çevirdi ki, gözətdəməsinə də xəbər olsun...

Kasıb vaxtlarmış, bir aşıq azıb gəlir çoban alaçıqları tərəfə. Deyir, ya qismət, bəlkə sözə qiymət qoyub bir tikə çörək verən, qonaq saxlayan tapıldı. Aşığın üz tutduğu Kosa Məmmədin alaçığı olur. Görür bir kosa adam kərəntiynən nəsə yonub düzəldir, o yanda da tərəkəmə arvad inək sağır. Yad adam görüb it hürür, inək dartınır, buzov ürküb arvadın ayağını basdıyır. Arvadın ayağını qan götürür, qışqırtısı yaylağı bürüyür. Kosa Məmməd qeyzlənir, yeriyir qonağın üstünə ki, hərbə-həmədan gələ, görür əlində Dədə Qorqudun yadigarı var — toxduyur. Deyir: ə, nə var, nə istəyirsən?

Deyir: a Məmməd, qəfil qonaq, yaylaq adamından nə istəyər?

Kosa gülür, deyir ə, bizim adamsan. Gəl görüm.

Sora ah-ufu yer süpürən arvadına göz ağardır. Bu vədə arvad qayıdır ki, aşıq qardaş, ayağımı bu hala sən saldın, barı bir savadlı söz de.

Aşıq qayıdır ki:

Mən aşıq, qan ayağı,
Qan əli, qan ayağı,
Aşıq bir şey görübdü,
Üç başı on ayağı.

Arvad əlin-əlinə vurdu: buy, ay aşıq qardaş, söz başına qəhətdi? Üç başlı, on ayaqlı şey olar?

Kosa arif adammış, dürtmələyir arvadı:

— Yeri, yeri, — deyir, — bir baş səndə, bir baş sağdığın inəkdə, biri də ayağını basdayan buzovda, neçə oldu?

— Üç, ay Kosa.

— Dörd ayaq inəkdə, dörd ayaq buzovda, ikisi də səndə, bu da elədi on ayaq. Ağlına batdı?

— Batdı, ay Kosa.

— Şükür Allaha, get onda bir xəngəl hazırla, bəlkə aşığı bir də dindirə bildin.

Arvad fikir eləyir ki, yaylaq yeridi, salağasına kimdi fikir verən?

Alasına-qarasına bir xəngəl bişirib çəkir ortalığa. Aşıq tayfasının da gün-güzəranı məclislərdə keçər, onçu da görgötürlü olar bu söz adamı. Baxır ki, deyən arvadağa üstünə baxıb onu dəyirmançı sayıb. Yoxsa bu löyündə xəngəli ortalığa çəkməzdi. Deyir — a Kosa...

Deyir: — nədi?

Deyir: ə, qardaş, indi bildim, sənin saqqalın nöş bu günə

düşüb. O sazı bəri ver, sinəmə iкi xanə söz gəlib.

Götürüb arvadağaya belə deyir:

Gəlirdim dağdan,
Güllü yaylaqdan,
Bir sıxma buğda
Çıxdı xəngəldən.

Arvad baxır görür doğrudu, gözü çıxır кəlləsinə.... Aşıq deyir qulaq as:

Arvadın arıq,
Ağıldan qırıq,
Bir cüt şal-çarıq,
Çıxdı xəngəldən.

Kosa əlin vurur dizinə: «Səni rüsvay olasan, arvad, rüsvay elədin məni!»

Deyir, döz, Kosa:

Necə yesin aşıq,
Qabı bulaşıq,
Bir кöhnə qaşıq,
Çıxdı xəngəldən.



Söz tamama yetəndə arvad gəlib üzrxahlıq elədi, təzədən məclis açıldı, saz çalındı, кeflər duruldu.

YENƏ GƏLİB YAZ AYLARI...

Bağ-bağatın yaxasını bir ilıq nəfəs titrədib кeçdi. Budaqların düyməsi başladı bircə-bircə açılmağa, Meşələrin saçında-birçəyində yazın darağı gəzdi — baxıb gördülər bir yamyaşıl əldi, yamyaşıl istəкdi, arzu-diləкdi. Yüz ilin qara daşları yaz nəfəsi alıbanı başladı göyərməyə. Novruz xəbəri aynaları döyəclədi, qapıları silкələdi, bacalara qondu, insanların bəxtinə, talehinə bir göz qırpımında qaynayıb qarışdı. Torpaq yazın addım səslərindən dиksinib oyandı, dağ çayları qulac hörüylərini açıb çiyin aşağı axıtdı, çölləri-düzləri ətriənbər burudu. Kolların dibindən bənövşələr boynunu büкüb həsrətli-həsrətli boylandılar. Kənd cavanları bənövşəni üzdüdəstələdi istəкlisinə yazın özünücə pay apardı.

Dağların yaxasında hələ talalar qar gizləyirdi. Qarın ömrü də indi bənövşənin yaşı qədər olmuşdu. Bunun dalısıycan qaranquşun müjdəsi, sığırçının çığırtısı, hop-hopun, bülbülün, ana-dilin oxuması gəlirdi. Ağaclar indi əlin açıb elə bil yazdan ruzu diləyirdilər, torpaqdan təpər, bərəкət arzulayırdılar. Yaz bağ-bağatın, insanların nurlu dünyasına havadan, sudan, torpaqdan qapı açırdı. İndilər insan oğlunun qanına bir azcana da yaz qarışıb axırdı, bunçu da torpaqla cəngə girməк, el varına sahman verməк, torpağın birini beş eləməк hünəri vardı insan oğlunda.

Yazın havasına insanların кöylündə söz göyərirdi.

İnsan oğlunun arzu-niyyəti çiçəy açırdı, bəxti gülləyirdi:

Yenə gəlib yaz ayları,
Bağçada güllər açılıb.

Bülbül qonub qönçə üstə
Nə şirin dillər açılıb!

Qızlar gəlib dəstə-dəstə,
Dərdindən olmuşam xəstə,
Qəddin əlif, boyu bəstə,
O incə bellər açılıb.

Yaz ta qədimlərdən arzu-niyyət ayı olub. Ömrünü yaylaq-qışlaq köçlərində keçirmiş Hümbət baba ta ayaqlaşammırdı. İnəyin biri də elə köç üstə balalamışdı. Köçnən ayaqlaşammayan buzovu götürüb qoymuşdular xurcunun bir gözünə, o biri gözünə də Hümbət babanı qoymuşdular ki, köç ləngiməsin. Dəvənin çiynində yırğalana-yırğalana gedirdilər. Bir dar keçiddə Hümbət baba bir dərənin dibinə, bir də göyün qübbəsinə göz yetirdi. Sora da həsrət-həsrət buzovu oxşayıb qayıtdı ki, bircə ölməyəydim, ay ala buzov, gələn yazı görəydim, səni də yekələndirib kəl eləyəydim, sora kotana qoşub yer sürəydim. Ta heç dərdim olmazdı, ay ala buzov!..

Babalarımız yazın aynasından baxıb ilin xeyir-bərəkətini görüblər. Bar-bəhərin hesabın çəkiblər. Onçu da deyiblər ki, ruzulu il yazından bəllidi...

Yaz yağışı—naz yağışı deyiblər.

Yaz hər şeyin qaynağı, qovşuğu olduğunnandı ki, aqillər il küsülüsünü yazda barışdırar.

Atalar deyib yazda çalan, qışda oynar. Yazda yatanın qışda süfrəsi boş qalar.

Ulular, ağbirçəklər ta qədimnən belə hesab eləyiblər ki, yaz gəlişini kimsəyə xəbər vermir, yəni payız, qış kimi hərbəhədə, qara-qorxuynan gəlmir. Əvvəl-əvvəl xəlvətcə gəlib evlərin aynasınnan baxır, bacasınnan boylanır. Görsə ki,

ocaqların süfrəsi boldu, biş-düşü vaxtındadı, yerişini yeyinlədir, gəlib tezcənə yaşıl örpəyini sərir el-ulusa. Bunçu da el-camaat yaz pişvazına ta qədimnən dolu süfrələrnən, şad-şadyanalıqnan çıxdılar. İnandılar ki, bu günlərin birində yaz gəlib onların bacasınnan boylanmalıdı, aynasınnan baxmalıdı. İstəməyiblər ki, yazı küsdürələr, naümüd qoyalar. Lap elə bundan çox-çox əzəl—kasıbçılıq illərində də tavanasız kimsənələr bayram günləri nəyi varsa, süfrəsinə çəkər, yazdan ruzu dilərdi. Bu səbəbdən indilər hansı qapını döysən, dolu süfrə üstə çıxasısan. Yazda süfrələr qonaqsız, ocaqlar odsuz olmaz. Novruz pişvazına çıxan ellərimiz cəmi səxavətini süfrəsinə çəkib hamıya ruzu, qismət, bolluq, can sağlığı, yazdan yarımaq arzular.

Yaza arzu-diləк işığı kimi baxan ellilərimiz dar gündə, çətin məqamda bir-birinə əl tutub kömək olublar. «Belə nağıl eləyirlər ki, tirədə, yaxud kənddə birinin iribuynuzlusu qocalıb sağınnan qalanda, görərdin həmin malın yiyəsi gəlib ağsaqqala üz tutdu. Ağsaqqal tirə çamaatını yığıb bu heyvana elə qiymət qoyardı ki, mal yiyəsi həmin pula təzə inək ala bilsin. Əvəzindəsə heyvan kəsilib camaata bölünürdü. Bu adətə «alışma» deyərdilər.

Alışmanın bir başqa şəkli də vardı. Ailənin kəsmək üçün heyvan almağa gücü çatmayanda qonşulara bildirirdi. Bir neçə ailə birləşib iribuynuzlu, yaxud xırdadırnaq alıb kəsirdilər. Pay-pay bölüşdürürdülər.

Bəzi hallarda oymağın əksərən ətə ehtiyacı olurdu, ancaq satlıqda ətlik heyvan tapmırdın. Oymağda ətlik olur, di gəl sahibə onu satmırdı. Bu vaxt kənd ağsaqqalına xəbər verilirdi. Ağsaqqal oymağın təklifini ətlik heyvan sahibinə bildirir, onunla razılığa gəlib qiymət qoyurdu. Heyvan kəsilib payçılar arasında bölüşdürülürdü. Alışma zamanı kəsilmiş

heyvanın əti payçıların sayı qədər bölünürdü. Bu vaxt oymaqda kimsəsiz, tavanasız ailələrə hər payçı öz payından bir qədər ayırıb kiçik bir pay düzəldərdi. Xırdadırnaq kəsildikdəsə baş-ayağı, içalatı, dərisi bölgüyə qatılmaz, kimsəsiz ailəyə verilərdi. Alışmada paylar püşk atılıb bölünürdü. Elat çamaatı arasında geniş yayılmış adətlərdən biri də «damazlıq»dır. Adətə görə yaxşı südlük heyvan, qoç, kəl, kələ kəsilməz, satılandasa, imkan olunca elə oymağa satılardı. Yelinli sağmal heyvan, qoç, kəl, yaxud kələ oğurlanmaz, səhv üzündən oğurlansaydı, bilib onu gizlincə gətirib kəndə ötürərdilər. «Mərd düşmən damazlıq kəsməz», «İnsan insanın damazlığına kəm baxmaz» kimi zərb-məsəllər xalqımızın gözəl adətlərindən doğmuşdur. Elin hər tüstüsündə damazlıq heyvanın olması qayğısını hamı çəkərdi. Yeni qurulmuş tavanasız ailəni qohum-əqraba, dostlar qonaq çağırar, doğar qoyun, buzov, balax bağışlardı. İmkanı olanlardan inək, çamış bağışlayan da tapılırdı. Adətə görə yaxşı südlük heyvanı satan gərək idi əvvəl oymağına, kəndinə sorağ verəydi, bu bərəkətin öz elində qalmasına çalışaydı. Bəzən damazlıq almağa imkanı olmayanlara elin ağsaqqalı borç pul yığdırıb verərdi. Bəziləri bu borcu geri almazdılar. El bunu tavanasız ocaqlara əltutdu hesab elərdi.

Görürdün biri borca düşdü. Çarəsizlikdən damazlıq inəyini kəsmək hesabına pul yığıb borcdan çıxmaq istərdi. Bu vaxt camaata xəbər verər, damazlığı ətlik heyvana dəyişmək istədiyini bildirərdi. «Dəyişmə» zamanı südlük heyvanı alıb əvəzində ətlik verən çalışırdı ki, verdiyi mal çəkidə aldığından üstün gəlsin. Belə olmadıqda üstəlik xırdadırnaqlı da verərdilər. Damazlıq alan adamın üstəlik verməyə imkanı olmadıqda, şərtləşər, gələcəkdə inəyin balasından birini sahibinə qaytarardı. Damazlıq heyvan almış adam xeyir görüb razı

qalanda əvvəlki sahibinə heyvanın dişi balasından birini pulsuz-parasız verərdi. Bu şərt heyvan satılanda danışılmazdı. Damazlıq alan üçün adət idi, birinin damazlığından erkək bala doğulanda oymağın çamaatı deyərdi, a filankəs, bunuca kəsmə, satma, gəl döllük saxlayaq. Mal sahibi də razılaşardı. Razılıq olanda döllük heyvanın yemini çamaat verərdi.

Xəstəlikdənmi, ya nədənmi bir də görürdün birinin malı qırıldı, necə deyir: ziyanlıq çəkdi, düşdü qapı dalına. Ziyanlığın qədərini hesablayıb kömək əli tutardı camaat. Ziyanlığa qonşu kəndlər də kömək edərdi. Ailənin inəyi, camışı, dəvəsi, qoyunu öləndə ağsaqqala xəbər verərdilər. Ağsaqqal heyvana qiymət qoyardı, əti oymağa paylardı. Bəzən heyvanı ilan çalanda, zəhərlənəndə, qısası, əti yeyiləsi olmayanda da ağsaqqal heyvana qiymət qoyar, hər ailə başına köməkliyin miqdarını müəyyən elərdi.



Bax, beləcə qədimnən üzü bu yana el-camaat qədirli, ağsaqqal, ağırtaxtalığı çökmüş adətlərimizə hər il Novruz şənliklərində birəm-birəm yada düşər, bu günümüzün işinə, hünərinə rəvac verər, xalqı birliyə, mehr-ülfətə çağırar.

HƏR DƏRDİN ÖZ DƏRMANI...

(xalq təbabəti)

Dünyada elə dərd yoxdur кi, onun dərmanı olmasın. İntəhası dərd var кi, onun dərmanı tapılıb, dərd var кi, hələ də dərdlilərə dərd verir. Amma bu o demək deyil кi, onun dərmanı yoxdur. Əgər belə olsaydı onda кeçmiş кeçənlərimiz bu müdriк кəlamı gətirməzdilər: «hər dərdin bir dərmanı var!»

Dərmanın кöкünü, binəsini bitкilər adına bağlayıb loğmanlar. Bəlкə də insanla dünyaya bir gələn, onun hər yüкsəlişinin, hər alçalışının şahidi olan bitкilər. Novruz gələli onlar da insanlar təкi oyanır, qanları qaynayır, bətnlərində həyatı duyub tərpəşir, torpaqdan baş qaldırırlar. Deməli, həyat onlarda da başlayır, davam eləyir, ölür...

İndi yurdumuzda yazdı. Düzü-dünyanın bitкi adına, yaşıllıq adına nəyi varsa, indi yerində oynamaqda, torpağın bətnindən sıyılıb çıxmaqdadır. Sanılı günlər ötəcəк, dünya ala, yaşıla bürünəcəк, insanlar da dünyanın minbir rənginin seyrinə dalacaq; yeyəcəк içəcəк, oynayacaq, oxuyacaq, ağrısı da olacaq, acısı da...

Yaxanızı ağrı-acı tanımasın, amma içinizdə eləsi də olacaq кi nasazlaşacaq. Onda nəbadə yazın höкmüylə ana təbiətin qucağında boy-boy duran hər bitкini dərib evə gətirərsiz, «bu sağaldar, bu ,yaxşı dərman bitкisidir» — deyibən hər əlinizə düşəni qəbul edəsiz. Bilin кi, hər otun, hər pencərin öz yeri, öz şəfası var.

Misalçün, elə götürəк *кəcəb otunu*: — zəhərlidir. Səriş-

təli çoban heç vaxt mal-davarı həmin otun bitdiyi sahəyə buraxmaz. Amma qaldı кi, кəcəb lap qədimdən dava-dərman bitкisi sayılır. Orası var кi, gərəк bununla ehtiyatlı dolanasan, əvvəlcə кəcəbi yığandan sonra yaxşıca qurutmaq lazımdır. Bunnan sonra кəcəb olur кara gələn. Onu növbənöv xörəкlərə qat, gör nə dad verir. Üstəliк də qarında, bağırsaqlarda olan ağırlaşmaları кəsir.

Ya da elə götürəк *çayçiçəyini*. Çiçəklərini dəmlə, iç. Qan təzyiqi yuxarı olanlara ən çox çayçiçəyi içməк məsləhət görülür.


Böyürtкən yarpağını əzib ağrıyan dişin üstünə qoyarsan, ağrısı кəsilər.

Dovşanalması deyilən bitкi var. Meyvələri yeməli olur. Dəmrov deyilən dəri xəstəliyinin dərmanıdır. Budağını yandırıb soyuyandan sonra dəmrovun üstünə qoy, vəssalam, baxıb görəcəкsən sağalıb itib.

Yemişanın həm ağacının, həm də meyvəsinin insana böyüк xeyri var. Bunları tapıb dəmlərsən, içərsən, başağrısı,







başgicəllənməsi sənnən vaz keçər; quş kimi yüngül olarsan. Əmzikli analarçın da yemişan meyvəsi xeyirlidir, belə ki, südü artırır, durulaşdırır.

Darçın həzmə yaman kömək eləyəndir, qıcqırmanın da ki, qənimidir.

B o y m a d ə r ə n ağrıları kəsir, qanı təmizləyir, həm də artırır.

Ə z v a y ı dibçəkdə də yetişdirmək olar. Mədə-bağırsağ nasazlığı vaxtı əzvay misilsiz kömək eləyir.

Pişiyotu deyilən bitki var, həyəcanlı, narahat, hər xırda şeydən əsəbləşən adamlara məsləhətdir ki, pişiyotunu qaynadıb gündə üç kərə içsinlər.

İtburnu meyvəsinin qaynanmışı əldə-ayaqda baş verən qıcolmanın, yatmanın məlhəmidir.

Qarğıdalı saçağının suyunu qaynadıb içən xəstələrin böyrəklərindan daş, duz qaçaq düşər.

Xörək yeyəndə üstünə bir azça *sumağ* atsan iştahan birə beş artar, həm də yeyəndən sonra özünü ağır hiss eləməzsən.

Raziyanə öskürək, göz xəstəliklərinin dərmanıdır. Bir belə rəvayət də var ki, guya ilan qış yuxusundan oyananda nə qədər eləyir gözlərini açа bilmir. Bu zaman başını, gözlərini raziyanənin kötüyünə sürtür ki, gözləri tez açıla.

Nanə mədə ağrısının qənimidir.

Xalq təbabətində *biyankökündən, öküzboğandan, pərpətöyündən* qaraciyər xəstəliklərində, öd kisəsinin iltihabında ödqovucu dərman kimi işlədirlər.

Quru öskürəkdə *ağ tutun doşabı* heç ələ düşməz. Onca qram iç, sinən tamam açılsın.

Suda bişirilən *əncir, tut, heyva yarpaqları, əncir şirəsi, əncir doşabı, tərkeşin şirəsi* qan azlığına, ürək çatışmazlığına bir kömək eləyir ki, gəl görəsən.

Zoğal, sumağ, pərpərən, andız kökü, palıd qozası şəkər xəstəliyinin məlhəmidir.

Ayıdöşəyini adi çay kimi dəmləyib için, ishala, ən çox da körpələrdəki ishala öldürücü təsir göstərir.

Bir litrlik bərniyə bir armudu stəkan *zirinc* tökün. Sonra onun üstünə bir litr qaynar su töküb iki gün saxlayın. Daha qan təzyiqinin aşağı düşməsinə bundan gözəl dərman tapılmaz. İstəsəniz bir-iki parça qənd də ata bilərsiz. Elə ki, gördünüz başınız ağrıyır, ya gicəllənir, tez bir-iki qurtum için o sudan.

Bu çoğanbitkisi ki var, dağ yamaclarında bitər. Kökü elə biləsən paltar sabunudur. İsti suda köpüklənir. Nişanlı qızlar çoğanla toxunma göynək, yun corab yuyublar, yar nişanası olan bu yadigarlar qışın bəyaz qarıtək bəmbəyaz olub.

Ululaın, ağbirçəklərin sərhesabına görə *ardıc meyvəsi* payızın axır ayında şaxtalar düşənə yetişəsidir. Bar bağlayanda ardıc kolları yerə yatır. Bunçu da meyvəsin toplayanda üsulluca kolu qaldırıb altına çadır tutur, palaz sərirlər. Beləcə silkələyib meyvəsini yığırlar. İndinin ölçüsüynən desək 5 qramadək bir stəkana atıb üstünə qaynar su tökülür, dəmlənir. Gündə üç dəfə içilir. Yalan-gerçək belə deyirlər ki, böyrək daşını bir gündə bədəndən çıxarır.


Səhləb adında bir bitki var, gərəkdi bunu çox gəzəsən ki, tapasan. Kökü bapbalacadır, ayı pəncəsinə oxşayır. O sinə sətəlcəminin məlhəmidir. Çay kimi dəmlənir, kökü tapılmayanda çiçəkləri də kara gəlir.

Pəri nənə əlin rəfə uzadıb bir düyünçə götürər, açıb düzər. Deyər, bax, bu da olsun *damotu*. Damotu çayı sakitlik gətirər. Otun qurusunu barmaq arasında əzib iylədikdə başdan-beyindən yorğunluğu çıxarır.

Atəvəliliyi də az ələ düşən məlhəmdi. Onu yağda qovurub yeyənin mədə-bağırsağı dərd-bəla görməz.

Ələyəz bitkisini qış vaxtı duru körəklərə, xüsusən əriştə aşına qatıb yeyərlər. Deyilənə görə ələyəz sinə məlhəmidir.

Pəri nənə *solmaz çiçəyindən, ayıdöşəyindən*, ta nələrdən, nələrdən çay dəmlər. Bu çaylar hamısı eyzən canın məlhəmidir. Ağbirçəyin dediyinə görə solmazçiçəyi öd yolunu yalayıb ağzını açır, şişmiş öd kisəsindən ödü qovur. Qaraciyəri yükdən qurtarır. Süpürgə gülüsə qara ciyər xəstəlikləri zamanı dada gəlir.



Kəklikotu tər gətirir, təzyiq endirir. Uzun sözün qısası, bədənə yüngüllük verir. Qabaq mürəbbəsi qanı duruldur, qan damarları kirəcləşməsinnn qabağını alır.

Şahbuz tərəflərdə *doşabı* soyuqdəymənin əlacı hesab eləyirlər. Üzümdən, ya da tutdan bişirirlər. 126 il ömür sürmüş Reyhan nənənin bişirdiyi tut doşabı adnan idi. Yüz cür çiçəklərin-güllərin şəfa çəmini bilən Reyhan nənə doşabı da özünə binəm üsulnan bişirərdi. El ağbirçəyi deyərdi ki, borana, çovğuna, ala-çalpova düşən adama, soyuqdəymə, sətəlcəm olana acqarına səhər-səhər bir parça doşab içirin, görün o, xəstəliyi necə bədəndən oynadıb qovur! Sonra da doşabın hasilə gəlməsindən söz açar, məsləhət edərdi ki, tutun yaxşı dəymişini axşamçağı çırpın. Nədən ki, səhərə qalsa, yetişənləri gecəynən külək vurub tökər.

Tut çırpılan çadır (*bəzi yerlərdə buna yelkən də deyirlər*) gərək tərtəmiz olsun. Çırpılan tutu çuğun qazanda 3—5 dəqiqə pörtlədin. Sonra səliqəli əldən çıxıb yuyulmuş ağ

süfrəlik parçadan tikilən iri torbaya yığın, qoyun təmiz tabağın içinə, üstünə ağaç parçaları qoymaqla bir kirkirə daşı da aşırın ki, səhərəçən daş sıxıb şirəni tabağa süzsün. Elə ki şirə süzüldü, qoyun onu qaynamağa, onu da deyək ki, pörtlədilənnən sonra torbada qıçqırma getməsin deyə xam yerin torpağından bir-iki qoşa ovuc tuta qatılır. Şirəyə keçən torpağı şirədən təmizləmək üçün qaynatmazdan əvvəl ona 2—3 çiy yumurta çalıb yaxşıca qarışdırmaq gərəkdi. Belədə şirədə olan xılt yumurta sarısıyla birlikdə üzə çıxır. Qaşıqla üzü tərtəmiz yığılan şirə ayna kimi duru olur. Bundan sonra qalır onun ocaqda qaynamağı. Elə ki iri taxta qaşıqda öz nişanəsini açıb aşkar göstərdi, ocaqdan düşürüb soyumağa qoyarlar. Sonra da saxsı küpələrə yığıb ağzını da bərk bağlayarlar. Bax, beləcə tüpü-boranlı günlərin azar-bezarını doşabnan qovublar.

Doşabdan savayı soyuqdəymədə *çobanyastığı, andız kökü, yarpız, kəklikotu, qantəpər* bir yerdə çay kimi dəmlənir, axşam yatmazdan qabaq üç-dörd stəkan içiləndən sonra başı yaxşıca bağlayıb yatırlar. Səhər duranda olurlar anadangəlmə.

Ətirsünbül qaraciyər ağrısının əlacıdır, amma gərəkdir ki, el loğmanıyla əməlli-başlı genəşib sonra istifadə eləyəsən ondan.

Yazın ilk eynəsində açılan *qızılgül yarpağı* rahatlıq gətirir cana. Doyunca içmək olar. Eləcə çayı dəmlə, süz stəkanlara, koldanca dər onun yarpağından, at çayın içinə, gör nə dad verir!

Ayıdöşəyindən bir demişik, bir də deyək. Mədə-bağırsaq köpünü, qarın ağrısını yatırır. Ağrılar davamlı olarsa, adi çay kimi gündə üç-dörd stəkan dəmlənib içilir.

Təzə anadan olan uşaq narahat yatarsa, *üzərrik* yandırın. Özü də yandıran macalda belə bir söz var, onu deməyi yaddan çıxarmayın:

Üzərriksən, havasan,
Hər bir dərdə davasan,
Hal-günümdü üzərrik,
Üzərriklər çırtlasın,
Yaman gözlər partlasın!

Dava-dərman sarıdan da bu qədər. Yaz gəlib ellərimizə, istədik xəbərdar eləyək sizləri. Xəbərdar eləyək ki, canımıza xətər dəyməsin, işdi-şayəd balaca nasaz olsanız, biləsiz ki, təbiət min dərd veribsə, minbir də dərman bağışlayıb. İntəhası gərəkdir o dərmanı düzgün tapıb üzə çıxarasız, vaxtında qəbul eləyəsiz, özü də qədərində. Ağrınızı, acınızı yel aparsın, gün yandırsın. Canınız buz baltası kimi möhkəm olsun. Dava-dərman yaxanızı tanımasın!

NOVRUZ QURAMASI



Qış baba ayaqları qara bata-bata yurdu dolaşmaqdaydı. Heç özü də bilmədi nəfəsi nə zaman təntidi. Bir də göz açıb gördü qar dizindən aşağıdı. Əvvəlki becid yerişini yavaşıtdı, atdığı hər addım da qarın bir az da aşağı yendiyini mənsidi. Gördü yox, balam bu qar o qardan deyil, dayanıb lapıxmış əlini qaşı üstə günlü elədi, istədi uzaqlara baxsın, baxıb da qar görsün, qarlı düzlər aşırımlar, dağlar görsün, buz örtüklü çaylar görsün ki, ürəyi toxtasın. Amma uzaqlara baxıb-baxıb o əvvəlki bəyazlıqdan nəm-nişana görmədi; qabaqda düzlər, dərələr, aşırımlar olmağına vardı, amma rəngləri ala-bulaydı daha. Qış babanın hökmünə baş əymək istəmirdilər, gözləri, qulaqları bahar çərşənbələrindən soraq almışdı deyən. Qış babaya vaz atır, yandıx verirdilər. Çərşənbələrin istisi, ilığı yaxınlaşmaqdaydı. Odur ki, Qış baba da daha ürək eləyib qabağa gedəmmir, təbiətə dov gələ bilmirdi. Eləcə yerində dayanıb baxır, baxırdı. Bir müddət də bu sayaq dayanıb baxacaqdı. Sonra günlərin bir günündə ayağı altdan səs eşidəcək, hənir duyacaqdı, bir isti nəfəsdən ayağının birini götürüb birini qoyacaqdı, sonra da dabanına tüpürüb bu yerləri tərk eləyəcəkdi...

Hə... indiliksə Qış babanı ayaqları qar içində, əli qaşında, yaxınlaşan çərşənbələr səmtinə baxa-baxa qoyub sizlərçin toxuduğumuz Novruz quramasını qarşınızda açırıq.

El-oba deyib söz ovuna çıxdıq, dərə keçdik, dağ aşdıq, yamanı görüb tutulduq, yaxşını görüb qürrələndik, eşitdiklərimizdən, gördüklərimizdən yana bir söz məclisi qurduq, Novruz adına bir yığnaq açdıq. Mehrli, ülfətli bir ocaq çatdıq. Bir ocaq ki, işığından tutub sizləri salamlayır, sizlərə bayramınız mübarək, deyirik!

Yurdumuzun yazın gəlişiylə bağlı adətləri nə qədər desən. Bunların çoxu əkinlə, şumla bağlıdı. Məna-məxrəci də budur ki, baharın gəlhagəlində bərəkətin təməli qoyulur. Bu təməli torpaq adamı nə təhər qoyursa, payızda o sayaq bar alasıdı torpaqdan. Əyər yüz ölçüb bir biçibsə, əkin, şum qaydalarına düzgün əməl eləyibsə, onda alnı açıq, üzü ağ olasıdı, yox, əyər tək başına, məsləhətsiz filansız, torpağın çəmini, yönyöndəmini bilməyib iş görübsə, onda qonşusu şadlıq eləyəndə onun əli qoynunda qalacaq. Torpaq belədir, səndən aldığının üstünə də qoyub qaytarasıdı sənə. Amma vay o gündən ki, gözləyib-gözləyib almaya, onda yengi ildə gileyli-gileyli üzünə baxasıdı. O sənin, sən də onun.

Eldə yazın ilkindi çağına deyərlər: «yazın qırxlı çağı». El inancına görə bahar gələli gərək qırx gün çölə-bayıra bel bağlamayasan, işini qayım tutasan. Yaz günəşinə aldanıb mal-davarı həyətdən çox uzağa buraxmayasan. Bir də gördün soyuq kəsdi heyvanı. Bax, həmin qırx gün çıxandan sonra heç nədən ehtiyat eləmədən mal-davarı yal-yamaca buraxmaq olar. Çünki bu vaxtlar heyvançın gərək olan ot-əncər torpaqda görünməyə başlayar. Payız şumu da yazın qırxı çıxandan sonra aparılır. Bu payız şumu ki var, düz bir ay davam eləyir ki, bunu əkinçi babalarımız «kotan dövrü» adlandırıblar. Torpağın sirrinə, yatırına bələd olan əkinçilər payız şumuna həmin bu kotan dövründə başlarlar. Bu dövr aprelin axırlarına tən gələr.

Gəlin ellklə «boz ayın» bu oğlan çağında, atalar demiş yazın qırxlı vədəsində yediyimiz o müqəddəs çörəyi hasəilə gətirən, ocağımızı bu əziz nemətlə bəzəyən, ulu torpağın dilini bilən əkinçilərimizə iş avandlığı, könül xoşluğu, bahar təravəti diləyək!

«HAYDI, YOLÇU YOLDA GƏRƏK!»



Bu yazın ilkindi çağında aran ellərindən keçdik. Oranın el-camaatını bir səfər üstə gördük. Köçə hazırlaşırdılar. Mayın sonlarını gözləyirdilər. Amma belə söhbət gəzirdi ki, ola bilər köç əyyamı bir az geriyə atıla. Nöşünki, yuxarılara il ərzində yaman qar düşüb, indi dağlarda deməzsən qışın oğlan çağıdı. O qədər qar, buz var ki, elə biləsən heç əriyəsi deyil. Amma hazırlaşır, yamanca hazırlaşır aran elləri. Yüz illər, min illər canlarına, qanlarına hopmuş bu əzəli istək qocaları kəmhövsələ eləyir, cavanları yerindən oynadır, colma-çocuğun səbrin tükədir. Heyvan heyvannığıynan yönünü tez-tez dağlar səmtindən axışıb gələn sərinə çevirir, onu səsləyən bu səssiz səsə hay vermək istəyir. Gələcək, o günlər də gələcək! Bir səhər kəndin ağsaqqalı barxanaların önünə keçib səsini qaldıracaq: «Haydı, yolçu yolda gərək!»

Tərəkəmə camaatı ta o vaxtlardan bəri hər il köç vaxtı bu çağırışı səbirsizliklə gözləyir: «Haydı, yolçu yolda gərək!» Köçə vacib olan nə ki var, bu çağırışa bənd imiş kimi bir göz qırpımında farmaşlar yüklənər güclü heyvanlara — atlara, dəvələrə, öküzlərə. Dədə-babadan qalma el yoluyla üz tutarlar yaylaq səmtinə. Adətdir, bu axın o zaman başlar ki, aran torpaqları qızar, çölün ot-ələfinin quruyacağından yana xırdadırnaq yiyəsinin canına vəlvələ düşər. Ağsaqqallar, yaylaq biliciləri, fəhm eləyər ki, hə... daha məqamdı, dağların qar anbarına istidən çınqı düşüb, qarlar, buzlar yerindən olub, o yerlərin otu, çiçəyi indi-indi baş qaldırır. Bax, elə həmin məqamdaca yaylağın çağırışına sarı elin axını başlayar;

«Haydı, yolçu yolda gərək!» Bu axının tezliyi ya gecliyi aparılan qoyunun, başqa dırnaqlının yeriş sürətindən asılıdır. Gərək heyvan yaylaq yoluyla elə getsin ki, el yolundan kənar düşmədən vaxtlı-vaxtında otlaya bilsin, susuzluq çəkməsin, uzun köç dəsgahı adamları, ən çox da colma-çocuğu, qızgəlini üzməsin. Hə, bax, el yolu öz kəramətini burda göstərir. Bu yolu çox-çox illər bundan irəli manşırlayan, nişanlayıb el-camaata tanıdan, yüz ölçüb bir biçən babalar bütün bunlara görə ona sel yolu adı yaraşdırıblar. Odur ki, el hər il yaylaq çağı bu yolun ağına düşüb uzaq dağlara sarı üzün tutanda, hələ çox-çox illər bundan irəli köçün hər dərd-sərini yerli-yataqlı fikirləşmiş babaların ruhuna rəhmət söyləyirlər.

Hə... elə ki, köç əhli yorulur, başçı səsini qaldırıb «dincəlin» deyər ki, buna da deyərlər «çatıq». Çatıq —yəni çatmaq, dincəlmək üçün əlverişli olan mənzilə yetişmək. Çatıq—bir neçə saatlıq dincəlmək üçün olur. Lap çox olmaz, çünki yol uzaqdır, qabaqda görüləsi iş çoxdur. «Çatıq»da heyvanlar yükdən azad olur. Ortaya çay-çörək qoyulur, arxadan gəlib çatanlar quzuları yatışdırır, bir qismət çörək kəsir, sonra da həmin bir neçə saatı yaxşıca yatıb dincəlirlər. Yuxusu gəlməyənlərsə ikibir-üçbir olub başlarlar hələ qışdan yaylaqda danışmaqçın çinədanlarına topladıqları qaravəllilərdən üyütməyə.

YAYLAQ QARAVƏLLİLƏRİNDƏN

Deyir, keçmiş əyyamların birində, bəyin, xanın kasıb-kusuba qan uddurduğu çağlarda Əhməd adında çox igid, zəhmətkeş oğlan varmış ki, yaşadığı kəndin də kattasının ondan heç xoşu gəlməzmiş. Bir fürsət arayırmış ki, Əhmədi aradan götürsün. Yaxşı bilirmiş ki, ara qarışsa, haqqı, ədaləti ağır-yüngül eləmək üçün ortaya tərəzi çəksələr, onda tərəzi dibində əyləşən Əhməd olacaq. Nə isə, bir gün Əhməd öz bağının hasarının uçmuş yerini hörürmüş, katta bundan xəbər tutur, əlaltılarından Həsəncan adında birini öyrədir ki, bəs, sən deyərsən Əhməd qəbir daşlarını söküb öz hasarına hörür, dalısıynan işin olmasın. Həsəncan kattadan əlxərci almaq həvəsiynən bu işə cannan-başnan razılıq verir. Gəlir Əhmədin işlədiyi yerə, başlayır ağzına gələni çuğullamağa: — Ayə, ay filan-filanşüdə, utanmırsan qəbir daşlarını söküb özünə hasar tikirsən? Ayə, onun günahından qorxmursanmı? Qurd ürəyi yemisənmi, ə?..

Əhməd nə qədər and-aman eləyir, sübut, dəlil gətirir, Həsəncanı inandıra bilmir ki, bilmir. Axırda canı boğazına yığılır, hirsini soyutmaqçın salır bunu təpiyinin altına, nə yemisən, turşulu aş! Həsəncan qanı axa-axa götürülür kattanın yanına şikayətə. Katta Əhmədi çağırtdırıb xəbər alır ki, bu nə həngamədir? Əhməd məsələni danışır. Həsəncan da böyürdən ayağını dirəyir ki, yox, öz gözümlə görmüşəm, qəbir daşlarını söküb hasarına hörürdü. İstədim onu bu günah işdən çəkindirəm, məni bu kökə saldı. Katta Həsəncana qayıdır ki, and içə bilərsənmi ki, qəbirləri sökəndə öz gözünlə görmüsən? Həsəncan deyir, nənəmin goruna and olsun ki, doğru

sözümdür. Əhməd nə qədər Allaha, peyğəmbərə, imama and içirsə, bir şey çıxmır, kattanın heç tükü də tərpənmir, zornan Əhmədi cərimələyir ki, sonradan əlində dəlil olsun. Onsuz da başdan-binadan kasıb olan Əhməd cibinin axır pulunu da verib əli ətəyindən uzun qayıdır evinə. Yolda öz-özünə deyir ki, yaxşı Həsəncan, sən ol Həsəncan, mən də olum Əhməd, başına bir oyun açım ki, özün də afərin deyəsən. Söz vaxtına çəkər, elə Novruzun ilk günləriymiş, yaylaqda Əhməd öz dostlarıyla yığışıb Həsəncanın dağ boyda öküzünü kəsib yeyirlər. Həsəncan itiyindən xəbər tutan kimi ürəyinə damır ki, bu sədəmə ona hardan toxunub. Tez özünü verir kattanın yanına. Qayıdır ki, başına dönüm, bu nə oyun idi mənim başıma açdın? Mən bilirdim ki, əvvəl-axır Əhməddən zaval yetişəcək mənə, verdiyi cərimənin əvəzini birə-beş çıxmayınca dincəlməyəcək. İndi budur, öküzüm yoxdur, inanıram ki, çoxdan həzm-rabedən keçirib onu.

Katta geçəynən Əhmədi yanına çağırtdırır, soruşur ki, «Əhməd, niyə bu kişinin öküzunü oğurlamısan?» Əhməd cavab verir ki, ba... nə danışırsan, a başına dönüm, mən hara, oğurluq hara, mənim onun öküzündən bilmərrə xəbərim yoxdur. Katta deyir, nəylə sübut eləyərsən ki xəbərin yoxdur? Əhməd deyir and içərəm. Katta deyir iç. Əhməd qayıdır ki, and olsun Həsəncanın nənəsinin goruna ki, mənim onun öküzündən xəbərim yoxdur. Katta qeyzlənir: «Ə, a bala, məni dolamısan? Həsəncanın nənəsinin goru nə vaxtdan pir olub ki, ona and da içirsən?».

Əhməd bu yerdə çoxdan bəri ürəyində qövr eləyən cavabı kattanın üzünə deyir:

— Bir vaxt imama, peyğəmbərə, Allaha and içdim ki, mənim o qəbir daşlarında işim olmayıb, inanmadın. Amma Həsəncan bircə kərə nənəsinin goruna and içdi, ona inandın,

məni cərimələdin. Bəs, indi mənə niyə inanmırsan, yəni deyirsən Həsəncannan da natəmizəm?!..

* * *

Köç yolu çox vaxt çətin yerlərdən dolanıb keçir. Yol boyu bir göz açıb yuman məqamda yağışa da düşərsən, çovğuna da, doluya da tuş olarsan. Odur ki, yaylaqçılar bütün bunlara ta əvvəldən hazır olmalıdırlar. Yaylaqçının hünəri onda bəlli olar ki, mal-davarı, qoyun-quzunu sağ-salamat ölümsüz-itkisiz bu yollardan keçirsin, gecələr yatmayıb sürünü qurddan-quşdan, oğrudan-əyridən qoruya bilsin. Bəzən görürsən köç yolu aşıb-daşan dağ çaylarından keçməli olur. Gərəkdir ki, köç-külfət onun üstündən adlaya. Mərd çoban yapıncısını alır qucağına, sürünü ardınca haylayıb özünü vurur dağ çayına. Sürü də başçı təkənin dalısınca çaya sallaşır. Çoban arabir səsin qaldırır ki, heyvan ürəkli keçsin, dağ çayının heybətindən bağrı çatlamasın. Başdan-binadan aciz olan qoyunlar özlərini suya vururlar. Yanlarda dayanan çobanlar da haynan-küynən onlara ürək-dirək verər, çayın zəhmindən çaş-baş olub axan qoyunları qapıb o biri sahilə tullayarlar.

Köçün sevimlisi uşaqlar şadlıqdan atılıb-düşərlər, sevinərlər, ötən il qoyub getdikləri yaylaq yerlərinə çathaçatdadırlar. Axı, onlar bu bir ildə kim bilə neçə arpa boyu böyüyüblər, yaylağın təhər-tövrünə bir az daha öyrəncəli olublar, bir az daha çevik, daha güclü olublar. İndi budur, ötən il həsrətlə ayrıldıqları yaylaqlar bircə addımlıqdadır. Yamaclarda oynayacaqlar, bulaqların lap o gözündən içəcəklər, yayın qızmar çağında qar yeyəcəklər, bəs deyincə at çapacaq, dağ irmaqlarından balıq tutacaqlar. Nənələrinin göstərişiylə yuxarılara qalxıb baldırğan, kəkotu, qantəpər, quzuqulağı, solmazçiçəyi yığacaqlar. Özlərini Qaçaq Nəbinin, Koroğlunun, Gizirоğlu Mustafa bəyin yerinə qoyacaqlar...

Beləcə bir el, bir oba günlərlə, həftələrlə yol gedər, uzun köç yolunu arxada qoyar. Sürü itlərinin, atların, dəvələrin burnu tanış havanı həmən alar. Daha adamlar onları muşqurmaz, özləricə bilər ki, hara, hansı səmtə getməlidirlər. İstər qabaqda çiskin ola, istər duman. Yenə heyvan yolu çalpaşıq salmaz, yiyəsini azdırmaz, onu düz mənzil başına çatdırar...

Hə... bu da köhnə yurd yeri. Uşaqlar yayılar bu doğma məskənə. Başlayallar ötən ildən qalma nəmnişanə axtarmağa, «Bir daşı bir kötüyün üstünə qoymuşdum, görən qalıbmı?» «Filan yerdə torpağı qazıb bir bıçaq basdırmışdım, görən yerindədimi?».... Bu alaçıq yeri, bu ocaq daşları.... Böyüklər yükləri düşürər, bəziləri alaçıq qurar, bəziləri qoyun-quzunun builki yerinə baş çəkər ki, görələr necə qalıb, nəyə təzədən əl yetirmək lazımdır. Yükün düşürülməsiylə ocağın çatılması, samovara od salınması bir olar. Çoban alaçığı adətən ötənilki yerində qurulur. Çubuqlar sancılar, dörd tərəfdən baş-başa əyilərək biri-birinə bağlanar. Alaçığın böyüklüyü çubuğun sayından asılıdır. Özü də gərək alaçığı elə yerdə qurasan ki, sel-su dəyib-dolaşmasın. Çox da hündür tikmək sərfəli deyil, çünki hündür alaçığda gecələr soyuq olur, həm də külək bərk əsəndə, qorxusu var. Çubuqların üstündən gecə çəkilir, onun da üstündən su buraxmayan çadır salınır. Sonra yerə palaz, kilim, kəbə döşənir. Çıraq yandırılır. Çadırın üstünü kəndirlə çəkib daşa bağlarlar ki, külək atmasın. Şiddətli yağış yağanda alaçığa su dolmasın deyə ətrafında qarım — yəni arx qazırlar ki, yağan yağış suyu ora dolub üzüaşağı getsin. Qoyun-quzu gecələyəcəyi yeri də fikirləşiblər. Qayalardan kəsilib gətirilmiş daşları üst-üstə yığıb təxminən bir-iki arşın hündürlükdə «qalaq»

adlanan sığınacaq düzəldirlər. Beləcənə, aran camaatının yaylaq dövranı başlayır. Bu dövranın özünə görə çətinlikləri, adət-ənənəsi, yeyib-içməyi, deyib-gülməyi var ki, yeri gələndə bu barədə yerli-yataqlı danışasıyıq. İndiliksə, aran ellərindən eşidib yadımızda saxladığımız iki yaylaq əhvalatını sizlərlə bölüşürük.

Deyir, oba qabağda çatığa düşüb dincini alırmış. Hacı Həsənqulu kişi də sürünün geridə qalmış arıq-axsağını qabağına qatıb dincələn köçə yaxınlaşırmış. Bir də baxır ki, köç yolunun kənarında bir dəstə aşıq dövrə vurub əyləşib. Həsənqulu kişi bunlarla salamlaşıb ötüşmək istəyir, aşıqların başçısı qayıdır ki, a kişi burnunu sallayıb nə ötürsən, görmürsən el aşığıyıq? Eşitmişik tərəkəmə köçü gəlib, onların adını tutub o boyda yol keçib gəlmişik. Bəlkə bir nişan haqqı-hesabı oldu, gəlmişik ki, çalıb-çağıraq, şüləni yola verək.

Hacı Həsənqulu aşıqların bu qırmızılığından alınsa da özünü o yerə qoymur, qayıdır ki, a kişi, nə yaxşı, nə yaxşı! Elədir ki, var, obamızda toy olasıdı, gəlişiniz lap yerinə düşər. Aşıqlar sevincək ayağa qalxırlar. Həsənqulu kişi dəvələrdən ikisini xıxırdır, aşıqların elliyini mindirir bunnarın belinə. Bir qədər getmiş köçün əyləndiyi yer uzaqdan görünür. Həsənqulu görür, hə, fəndin məqamıdır, qayıdır ki, qardaşlar, bizlərdə adətdir, aşıq obaya gərək musiqiylə, çalçağırla girə. Bəli, başçının himiylə hamısı hazırlaşır, birdən qara zurnayla nağaranın səsi dağları başına götürür, qəfildən qalxan bu səs-küydən dəvələr höyüllənib hürkürlər, Həsənqulu kişi də ovsarların əlindən buraxır. Dəvələri atılıb-düşür, bayaq ha aşıqlar kəlləmayallaq deyirlər yerə. Köç əhli yüyürüb gəlir, aşıqları yerdən qaldırırlar, özlərinə gətirirlər. Bu yerdə aşıqların böyüyü Həsənqulu kişiyə deyir:

— Ay irəhmətliyin oğlu, biz nə günahın sahibiyik ki, bu

günə qoydun bizi, hay? Belə hirsli-hikkəli dəvələrin var, özü də deyirsən çalın-oxuyun.

Həsənqulu kişi bayaq ha, hirsini-hikkəsini tökür bunların üstünə.

— Ə, adam balasısız, neçə gündür dağ-dərəylə yol gedirik camaat yorulub əldən düşüb, hələ yurd yerinə on ağaclıq yol var, siz də bir yannan kəsdirmisiz başımızın üstünü ki, nə var-nə var çalmağınız gəlir. Özünüz gördünüz ki, dəvə dəvəliyinən götürmədi bu səs-küyü. Bəs bizə yazığınız gəlmir?!..

Bəli, bu minvalla el yaylağa çatır. Bir az keçir, günlərin birində Hacı Həsənqulu baba çöldən alaçığa dönəndə bir də baxıb görür obada qələbəlikdir. O saat fəhm eləyir ki, təzə adam gəlib. Gəlib yetişəndə nə görsə yaxşıdır, o boyda yolu basa-basa, dağın boranından, çisəyindən ar eləməyə-eləməyə Bu yerə kim gəlib, kim gəlməyib, bir ovsunçu. Əlində bir yekə torba, torbanın da içində dopdolu ilan. İndi o məqamdır ki, camaata ilan göstərir, pul qapır. Həsənqulu kişi nə sənə, nə mənə, düz yeriyir ovsunçunun üstünə, əlindəki ağacı qaldırıb endirir bunun kürəyinin ortasına. Ovsunçu ağrıdan qovrulub istəyir ki, əlində tutduğu içi dolu ilan olan torbayla kişini qorxuzsun, Həsənqulu kişi çəkib bir ağac da torbaya ilişdirir. Ovsunçu görür zərbə almış ilanlar fısıldayır, daha bir ağac zərbəsi alsalar, ilanlarda ilanlıq qalası deyil, dabanına tüpürüb üzüaşağı götürülür. Cavan-comrul qayıdır ki, ay baba, niyə elə elədin, qoy göstərəydi ilanları də... Həsənqulu kişi hirslənib çımxırır bunların üstünə:

— Kəsin səsinizi, qırışmallar! Mən bu ilan-çayanın əlindən baş götürüb bir aydı yol gəlirəm, bu yannan da bir dələduz aranın ilanın yığıb torbasına sallanıb arxamca. O gəlib-gəlib, bəs sizin ağlınız harda gizlənib, ay cüvəllağılar, ilan-

qurbağa görməmisiniz məyər?!..

Bizim ötənlər yadigarı sözlərimiz var ки, yerində deyildiyindən bir orduya bərabər olub. Hörmətsiz söz qeyrətsiz adama bənzər — el içində ayaq tutub yeriməz, başı aşağı olar, üzü qara. Nə yaxşı ки, yaxşılar var. Adamların da yaxşı-pisliyi ta qədimlərdən onların əməlləriylə ölçülüb. Bu əməlləri də ки ən çox sözlə ölçüblər. Hər bir əməl yiyəsinin sözünə, söhbətinə fəhmlə dinşəк кəsiliblər, gözləyiblər görələr bu adamın sözüylə əməli birdirmi? Bəla onda olur ки, sözlə əməl, iş, hərəкət biri-biriylə düz gəlməyə. Bax, belədə adam hörmətsiz olur, el içində təкlənir, adına yüz cürə ayama yaraşdırırlar. Odur ки, insan olan кəs ağzından çıxan sözün qədir-qiymətini bilsin gərəк. Deyir nə qədər ки, sözü deməmisən, onun ağasısan, elə ки dedin, olursan qulu. İndi o baxır ağzından çıxan sözün vəzninə, çəкisinə, ağır-yüngülünə. Söz var ки, onu söylədiyinə görə fəxr eləyəcəкsən, el içində başı diк gəzəcəкsən. Söz də var ки, ağzından çıxan gündən başına qaxınc, boğazına tıxac olacaq, ömürbillahı başını aşağı eləyəcəк.

Sözümüzün qüvvəti, deyir, кeçmiş əyyamlarda bir кişi süvar olur atına, tərкinə də su sonası кimi nazəndə bir zənən xeylağını qoyub düzəlir yolun ağına. Hara gedirlər, hara getmirlər, onu bir özləri bilər, amma atın yanıyla da payi-piyada xırdaca bir qız uşağı, bir də ixtiyar yaşlarında, saçları dümağ bir ananın da getdiyini adamlar görür.

Bəli, az gedirlər, çox gedirlər, bir də bunların qabağına bir atlı кişi çıxır. Bu adam salam-кəlam eləyir, sonra da ona hələ lap uzaqdan bərк yer eləmiş bu qəribə mənzərəni süzüb fəhmlə xəbər alır:

—Ayə, qardaş, soruşmaq ayıb olmasın, o tərкindəкi zənən sənin nəyindi?

Atın üstündəкi qırmızıyanaq кişi xoşqeyrət-xoşqürbət qayıdır ки, atdı də, muraddı də, qadasın aldığım, qabağında öldüyüm arvaddı də!

— Bəs yaxşı, atının yanınca gedən o yalınayaq qız uşağı nəyindi?

—Bay acıdı də, maçıdı də, zəhləmi tөкən bacıdı də!

Кişi yavaş-yavaş mənsiyir ки, hansı yuvanın quşuna rast gəlib. Hirsini-haккəsini birtəhər udub, yorğunluqdan üzülüb əldən düşmüş ağbirçəyi göstərib xəbər alır:

— Ayə, bəs onda bu yazıq qarı nəyindir?

Atlı həyasız-həyasız cavab verir:

—Canadı də, manadı də, yolumda ölümə gedən anadı də!

Təк atlı кişi bunun fərasətinə bir zəhərli «bərəкəllah» deyib qayıdır ки, bəs sən özün bilirsənmi ки, кimsən, nəçisən?

— Hi-hi, deyərsən bilərik də...

— Onda qulağını aç, agah ol. Bax, həşisən, huşüsən, ayə, sən nə biqeyrət кişisən?! Özünü tanımaq istəyirsən — billah, donuz leşisən!

* * *

Bahar adına layiq dəbdəbəsiylə ayaq tutub yeriyir ellərimizdə. Yağışını da əsirgəmir, ağacdan çiçəк tөкən küləyini də, sürüyə loy salan dolusunu da. Bir də günəşini. Göylər sultanı hər gün, hər saat bir az da dartılır göyün ortasına. Yaz buludları кərəm qılıb dağılışanda, səmanın çöhrəsini üzə çıxaranda, görərsən budur ha, yaz günəşi də üzə çıxdı, gücünü, istisini torpağa hopdurdu. Hələ açılmayan tumurcuqlar çırtladı, otların, çiçəкlərin qulağına düzülmüş şeh damlaları qurudu.

Ağsaqqalın, ağbirçəyin кürəyi qızar. Bir-bir çıxarlar ev-

dən eşiyə, həyət-bacada gümələnərlər, soğan, vəzəri, кeşniş, şüyüt ləкlərinin üstünə кol-кos düzərlər кi, toyuq-cücə eşənəк eləyib toxumları üzə çıxarmasınlar. Günəş göyün ortasına dartıldıqca ağsaqqallar da dикələr, səsləri arıtlanar, sözləri güllənər, həyətin uşağı, qonum-qonşu onların səsinə, hənirinə, nəsihətlərinə bələnər. Bir də görərsən bir кəm-fürsət cavan yan aldı ağsaqqala, bu il qarın seyrəк yağdığından, ya da кi, çiçəyin, gülün üstünə yaz günü qar düşdüyündən nigaran olduğunu bildirər, onun rəyini soruşar. Dünyagörmüş ağsaqqal da bir cavana baxar, bir də torpağa — onun üstündə oyan-buyana qaçışan qarışqaya, böcəyə nəzər yetirər. Qayıdar кi, a bala, nə dediyindir, təbiətin işinə qarışmaqmı olar? Bəs niyə deyirlər: Ana təbiət! O nəyi necə elədiyini yaxşı bilir. Bu yannan bir alırsa, o biri yannan on verməlidir. İntəhası gərəк onun yönünə, yöndəminə bələd olasan, öz işini, vaxtında, vədəsində qayımça tutasan, nə sayaq höкmün verdi, o sayaq da ehtiyatını görəsən. Bir də кi, təbiətə zor göstərməyəsən gərəк. Onu özbaşına buraxasan, min il, milyon il neçə qalıbsa, eləcə də buraxasan. Axıb gedən çaylarına dəyməyəsən, yağmağa hazırlaşan dolusunu qaytarmayasan, buludunu dağıtmayasan.

Cavan genə dözəmməz, qayıdır кi, yox da, ay baba, indi öz aramızdı, alçanın, şaftalının, əriyin çiçəyi üstə qar düşə, ondan meyvəmi olar? Burda insan olan кəs neyləsin bəs?

Ağsaqqal tələsməz, yaşında görüb eşitdiкlərini bir də göz önünə gətirər, qayıdar:

— Orası düzdür, oğlum, qar elədiyini eləyəsidi, amma burası da var кi, ağac gətirdiyi çiçəyin sanı qədər meyvə gətirsə, onda ağaclıq qalmaz əyilib iкiqat olar, sınıb tələf olar. Bir də кi, ay oğul, o qarın adı qardı, əlinə götürüb yoxlasan görərsən bir elə qarlığı qalmayıb tay, nöşün кi, çöldə

şaxta yoxdur. Çiçəyin də qorxusu şaxtadandır. Görmürsənmi, qar yağmağına yağır, amma heç кəs üşümür. Çiçəк də eləcə. O кi sən deyirsən, qar deyil, bir azcana bərкimiş yağışdı — yaz yağışı. Təbiət belə təbiətdi, onçu da adının qarşısına bir «Ana» кəlməsi də artırıblar. Ana səxavətli olar. Odur кi, builкi meyvəcat sarıdan narahat olmağına dəyməz. Ana təbiət öz işini yaxşı bilir, mənim balam...

İŞ İNSANIN CÖVHƏRİDİR

«İşləк evdə aşlıq olar» dedi babalar. Bunlar elə-belə, havayı yerə deyilməyib, əsrlərin sınağından çıxıb. Babalar gözləməyib кi, iş onları gəlib tapa, onlar özləri işi axtarıb tapıblar, amanın qırıblar, birin yerinə yetirib sonra başqasının qulpundan yapışıblar. Ən böyüк xeyiri torpağla əlləşməкdən tapıblar. Yaxşı biliblər кi, torpağ üstə axıdılan tər hədər getməz, bar-bəhrə verər, ad-sana çevrilib insana qayıdar, ona çatmasa da sonraкılara payını-ürücünü verər, bir sözlə dadına çatar insan oğlunun. Belə olmasaydı Göyçayın, Gəncənin çinarları göy üzüylə bəhsə girərdimi? Dillərdə dastan olan İsa bulağının, Turş suyun, Qalaaltı suyunun suları işıq üzü görərdimi? Qız qalası Xəzərin sahilindən boy verib boylanardımı?

Öz aramızdır, axır vaxtlar bir də görürsən qulağa belə sədalar çatır кi, guya iri şəhərlərdə yer işi, torpaq işi olmadığından adamlar tənbəlləşir, zəifləyir. Guya işdən sonraкı

saatlarda əl-qol hərəkəti istəyən bir iş tapılmadığından, yorulmaq nədir bilmirlər. Onçun da gecələr yuxuları ərşə çəkilir, ilan vuran yatır, beləələri yatammır. Gündüzlər də ki, bütün günü əzgin-üzgün görünürlər. Beləələri bizi bağışlasın, amma yəqin ki, onlar özlərində iradə, canıyananlıq tapammırlar, özlərini işə vermirlər. Yoxsa, işə nə gəlib? Anamız torpaq hər an, hər saat, bir sözlə daim qayğıya möhtacdır. Elə şərt o deyil ki, təkcə özün üçün işləyəsən, özünə xeyir gətirən bir işin qulpundan yapışasan, əlinə bel götür, boş saatlarında çıx təbiətin qoynuna, onda görərsən orda nə qədər görüləsi iş var, həm öz sağlamlığının, həm də ana təbiətin nəfinə hər adam gündə bir çöpü burdan götürüb ora qoysa, özünü zəhmətə versə, inanın ki, hər yan cənnətə dönər, tənbəlliyin də axırına çıxılar bilmərrə. Sözümüzün qüvvəti, deyir bir kişinin üç tənbəl oğlu olur. İşləri, peşələri veyl-veyl gəzib-dolaşmaq, ona-buna sataşmaq imiş. Kişi ömrünün qürubunda bunların sonrakı taleyindən bərk nigaran qalır, nə qədər yalvarıb-yaxarır ki, ay uşaqlar, özünüzə gəlin bir, mən bu gün varam, sabah yox, əlinizi işə alışdırın, sonra gec olacaq, qalacaqsız bir parça çörəkdən yana əsir-yesir. Korazehin oğlanlara bu öyüd-nəsihəti kar eləmir. Bəli, ilbəil qoca əldən düşür, daha ağır işlərə əl yetirə bilmir. İndiyəcən torpağından çörək çıxardıqları həyət-bacaya bel dəymir, bellənmir, ot-ələf basıb yeyir sahəni. Kasıbçılıq alır ailənnn başının üstünü, di gəl ki, oğlanlar ayılmır ki, ayılmır. Bir müddət keçir, günlərin bir günü qoca əl-ayağını uzadır ki, bəs belə, yığılın başıma, ölürəm. Görürlər kişinin üzü doğrudan da oyanlıqdı, bir azdan ocağın ağsaqqalı daha olmayacaq, tez yığışırlar həndəvərinə. Qayıdırlar ki, dədə, tez vəsiyyət elə görək sənnən sonra biz başımıza nə çarə qılmalıyıq. Qocanın halı xarablaşsa da ağlı yerində olur, odur ki, vəsiyyətini harda

yarımçıq kəsəcəyini özlüyünə yəqinləşdirir. Qayıdır ki, oğlanlarım, bu fərasət ki, sizdə var, bilirəm mən öləndən sonra acından günorta duracaqsız yuxudan. Odur ki, hələ siz balaca olandan bəri hər cürə tədarükünüzü görmüşəm. O ki var qızıl ehtiyatı görmüşəm sizinçin. Qoymuşam iri bir küpəyə, basdırmışam həyətin...

Oğlanların gözünə elə bil işıq gəlir, tez səs-səsə verib çığırışırlar:

— Hə, dədə, de görək, həyətin harasında?!

Kişi işini əvvəldən qayım tutmuşdu, daha bundan oyanasına bir kəlmə belə söz buraxmır ağzından. Bu yannan da ölüm kəsdirir başının üstünü, beləcənə ömrünü bağışlayır bu fərsiz övladlarına. Elə buna bənd imiş kimi tez hərəsi bir bel qapıb düşürlər həyətin canına, başlayırlar şumlamağa. Bir öynə qazıb qurtarırlar, küpdən əsər-əlamət görünmür. Bu hesabla düz beş kərə torpağın altını üstünə çevirirlər, yenə bir şey çıxmır. Axırda küpdən əl üzüb yorğun-arğın xanələrinə dönürlər. O yatan, bu yatan, bir də yazda oyanırlar. Durub həyətə boylananda görürlər, nə?! Həyət bar-bəhərin əlindən, bolluğundan çağnam-çağnam qaynayır. Özləri də mat qalır bu işə, balam bu yerə nə olub belə? Atalarının bir dostu vardı, varıllar onun yanına, bu hikmətin sirrini xəbər alırlar. Kişi də aqil adammış, o saat fəhm eləyir ki, iş nə yerdədir. Qayıdır ki, atanız öləndə sizə bir söz deyib, elədimi? Oğlanlar qayıdır ki, bəs hal-hekayət belə. Qoca zənninin dəqiqliyinə bir daha inanır. Deyir:

— Oğullarım, sizin rəhmətlik atanız çox arif adammış. Yaxşı bilirmiş ki, siz torpağa əl bulaşdıran deyilsiniz onnan sonra. Odur ki, bu qızıl məsələsin atır ortalığa, amma yerin demir. Nöşünkü, siz də həmin qızılı tapmaqçın başlayasınız torpaqda lağımlar atmağa, yəni onu belləməyə. Bax, elə onçu

da yengi ildə belə bol məhsul almısınız. İndi dədənizin vəsiyyət elədiyi qızıl var ha, hə, bax, o doğrudan da həyətinizdədir. Gedin becərin, yığıb-yığışdırın, yediyinizi yeyin, satdığınızı satın, amma adam olun. Unutmayın ki, işlək evdə aşdıq olar, tənbəl evdə boşluq. İş adamın cövhəridir, balalarım.

YAZ QAYĞILARI

Yaz ayı əkin, səpin ayıdır. Yaz əkini deyərlər buna. Oğlanlar, qızlar səriştəli rəncbərlərin məsləhətiylə tarlaya çıxar, torpağın qara bağrına bir vəlvələ salarlar ki, gəl görəsən. Bir günün içindəcə quru əllə bir aya görüləcək işin öhdəsindən gələrlər. Amma bir vaxtlar da vardı ki...

Bir vaxtlar da vardı ki, kotan vardı, xış vardı. Kotana üç boyun öküz qoşardılar. Bir boyun — bir cüt öküz deməkdi. Kotana üç boyun öküz qoşulanda yanında da üç adam olardı. Həmən adamlardan birinə majgəl deyərlərdi, ikincisinə ambıl, üçüncüsünə hodax. Majgəl kotanın dəstəyindən tutub cütü torpağa sıxırdı, qoymazdı çıxmağa. Ambıl da ki, ambıl öküzlərin haylayardı. Öküzlərin qüvvətliləri ambıl yerinə qoşulardı, bu da ona görəydi ki, həmən yerə çox güc düşür. Hodaqçı da hodaq öküzlərinə «ho-ho» deyərdi. Kotan daşlıq yerə dirənəndə hodaqçı göz olardı ki, kotanın dişi qırılmasın.

İndiyə nə var ki, dağ kimi maşınlar bir göz açıb-yuman saatdaca torpağın sinəsini lay-lay açırlar. Kotan, gavahın zəmanəsi gedibdi daha. Amma öz aramızdı, getmiş olsa da, qoy cavanların xəbəri olsun ki, bu kətan deyilən şey nə imiş, ata-babalarımız bərəkəti, ruzunu nə sayaq araya-ərsəyə gətirirmiş...

Baharın ilk şənbələrində iməciliklər başlayar ellərimizdə. Hər yan zəhmətin, işin-gücün hənirinə bürünər, adamların birliyiylə yaza elə bil üstəlik güc, təravət gəlir.

İməcilik əsrlərin sınağından çıxıb bu günümüzəcən gəlib çıxan qədim el adətlərimizdəndir. Bir də görərdin birisi qabağa çıxıb bir əlsiz-ayaqsızın, köməksizin xırman yerini göstərib dedi:

- Gəlsəniz bir övrəz eləyək, çox olsa bir günortalıq işdi, gəlin övrəz eləyib otun çalaq.

Ya da ki, filankəs həmişə xeyrə-şərə yarayan adam olub, indi bir ev qaralayıb orda, təkdi, özü də nasazlayıb, gəlin bir gün yığışıb torpaqatdısını eləyək, divarını qaldıraq.

Görərdin övrəz çağırmaq istəyən adam gedib gənəşərdi kəndin ağsaqqalına, deyərdi bax, mən istəyirəm cümə günü övrəz eləyim, ay filankəslər, indi məsləhət sizindir. Övrəz yiyəsi ərki çatan, sözü keçən adamların hamısına deyərdi. Vədə tamam olcağın həmin adamlar yığışardı övrəz yerinə. Xəbəri olan başıpapaqlı övrəzdə olaydı gərək. Gəlməsəydi ayıb sayılardı. Hamı çalışardı ki, övrəzə lap obaşdannan, gün çırtlamazdan əvvəl, bir ayaq tez gəlsin. Gələn kimi də işə başlardı. Day gözləməzdi ki, kimsə ona tapşırıq verə.

Şum övrəzində əkinə bir neçə baş kotan çıxardı. Övrəz günü həmin kotanı tez milə çıxıb birinci baş eləsəydi, ona düşərrik verərdilər. Ya da həmin kotanın macından övrəzçin kəsilən heyvanın döşündən hazırlanmış xörək asardılar. Övrəz şumunda qələbəlik olsun deyə gəlləri sınayardılar, bir növ imtahana çəkərdilər. Ən təpərli kəlləri qoşardılar kotanın lap dibinə. Qalan boyunlar açılardı. Belə höcətdən bir şey çıxmasa, təpərli gəl bilinməsə, onda kotanın çarxlarını da çıxarıb atardılar. İndi hayla görək kiminki fərlidi?! Şərti eləcə şum yerində kəsərdilər ki, kimin kəli diz yerə qoysa, o

uduzdu deməli. Təpərli kəlin belinə övrəzdə kəsilən qoyunun dərisini salardılar. Sonralar bu dəridən həmin kəl üçün boyunbağı tikilərmiş. Kəl sınağı yaman dəbdəymiş o vaxtlar. Heyvanları lap qabaqlardan yaxşıca yemləyib cana gətirərlərmiş ki, mərc vaxtı yiyəsinin başını aşağı eləməsin.

Övrəz çal-çağırnan başlardı. Günortaüstü övrəz yiyəsi günorta naharı verərdi. Övrəzçilər çalışardı nahar lap qısa olsun, eləcə ayaqüstü. Tələm-tələsik nahar eləyib yenə başlardılar işə. Odur ki, indinin indisində də el-obada belə bir misal çəkilir; birisi tələsə-tələsə yemək yeyəndə deyirlər ki, nə olub, ə, nə olub, asta-asta yesənə, övrəzdi məyər?!

Biçin övrəzi də olardı. Ən yaxşı biçinçini bu vaxtı üzə çıxarallarmış. Biçinçilərdən kim birinci dərzi biçib övrəzçinin qabağına qoysaydı, həmin adam övrəzin qalibi sayılırdı. O adama hədiyyə verərdilər. Biçin övrəzini o vaxt ələ götürəllərmiş ki, bir para güneylərin peşqurd taxılı vağamlanıb tərk olmasın. Ona görə də övrəz çağırıb həmən güney taxılını bircə günün içində yığıb qurtarardılar. Sonra birinci dərzi xırmana gətirib çıxaran arabaçıya da xələt verərlərdi.

İndi bunları sadalamaqda sözümüzün canı odur ki, övrəzdi, iməciliкdi, ellərimizdə könüllü olub. Amma di gəl ki, hamı bir-birinin səsinə, çağırışına hay verib, hazır olub. Fikirləşib ki, xeyirdi, şərdi elə bir tüstüdür ki, hamının bacasından çıxasıdı. Bu gün mən kömək eləməsəm, sabah özüm qalaram əlimyandıda, bir kimsə doqqazımı tanımaz.

İməciliklərdə adamlar bir-birinə daha da isinişər, dost çiynin, el köməyin yaxından hiss eləyər. Belə məqamlarda, aylarla üzü gülməyənin qırışığı açılar, ürəyi xıltdan, qərəmətlikdən azad olar. Kim bilir bəlkə elə bu iməciliкləri babalarımız ona görə icad eləyiblər ki, adamların bir-birinə mehrini, ülfətini artıralar. Fikir vermisizmi, sizlərdən iraq olsun, bir

kənddə, ya şəhərdə balaca bir qəza, tutaq ki, lap elə bir yanğın baş verəndə adamlar nə sayaq şəklənir, hamının ürəyi elə bil bir ahənglə vurur? Belə vaxtlarda heç kimin içində xəbislik, paxıllıq, dargözlük kimi insana yaraşmaz niyyətlər olmur. Hamı o çətində olanın, dara düşənin halına açıyır, ona əl tutmağa, kömək eləməyə can atır. Belə vaxtlarda bir də görürsən aylarla, illərlə küsülü qalan qonşular da barışır, kiniküdurəti bilmərrə unudurlar. Bax, buna deyərlər birliyin gücü. Vay o adamın halına ki, el içində təklənə, adamayovuşmaz ola, eləsinin günündən gün olmaz, yaşayışından yaşayış. İnsan deyilən kəsin daim el məsləhətinə, dost köməyinə, qonşu ülfətinə ehtiyacı var.

Deyir, nanəcibin birisi qonum-qonşunu ələ salmaqçın evinin qapı-pəncərəsini bağlayıb tüstünü buraxırmış içəri. Camaat yığışıb gəlirmiş köməyə, bu da kənarda dayanıb şaqqanaq çəkirmiş. Qonşular pərt olub dönürmüşlər evlərinə. Bu da baxıb həzz alırmış. Bir gün də bu mərifətsiz sobanı bərk-bərk qalayıb yatır. Sobadan bir çınqı sıçrayıb düşür xalçanın üstünə. Beş dəqiqə keçmiş alov alır evi ağzına. Qonşulardan birisi görür ki, genə bunun evindən tüstü çıxır, deyir yəqin keyfi qalxıb, adamları dolamaq istəyir, girir evinə, qapını da bağlayıb yatır. Səhər obaşdannan durub görürlər ki, adam ələ salmağı özünə peşə eləmiş qonşunun evinin yerində elə bil şum sürüblər.

Alimlərimiz gəzib gördüklərindən, eşitdiklərindən belə qənaətə gəliblər ki, «iməci» sözünün özü dilimizə qədim yunanlardan keçmədir. Yunan dilindəki iməci sözü kömək etmək, iştirak etmək, iştirakçı mənasında işlədilib. Ta qədimlərdən təsərrüfat, ev-məişət işlərinin görülməsi vaxtı təşkil olunardı. Su arxlarının qazılması, bənd vurulması, körpü salınması, əkin-biçində, xalça-palaz toxunuşunda el-oba tez-

tez tanıdıqlarını iməci adıyla köməyə çağırardı. El içində bəzən iməciliyi carçılar yayardı. Carçı iməciliyin kim tərəfindən, nə məqsədlə çağrıldığını bəyan edər, işin dərəcəsini başa salardı. Əgər dəvət olunan qız-gəlin yun daramağa çağrılardısa, buna yetdik alətləri də götürüb gələrdilər. Ağbirçəklər sözüdür ki, gəlin köçən qızlarımızın cehiz-corabı, xalça-palazı iməci yoluyla hazır olardı. Deyilənə görə keçmişdə qızlar ər evinə özləriylə 50—100 cütədək yun corab aparıblarmış. Bu miqdarda corabın toxunması əlbəttə bir-iki nəfərin işi deyildi. Elin gücü, köməyiylə bu sayaq işlər çox asanlıqla görülürdü. Xalqın bu xeyirxah, təmənnasız adəti onun zərb-məsəlinə də köçüb. Deyir, bir əl heç, iki əl güc, üç əl iməci. Ağbirçəklərimiz iməciyə gələn xatınları «yançı» adlandırmışlar. Xalq arasında iməçi adıyla köməyə gələn adamlara ayrıca hörmətlə yanaşılar, ailənin ən yaxşı yeməkləri onların adına bişirilərdi. Löyün-löyün çərəzlər, meyvə quruları, qovurğa, hədik gecə səhərəcən sürən iməciliklərin ləzzəti olardı. Sinəsi dolu qızlar-gəlinlər burda bir-biriylə təkcə işlə deyil, həm də çalmaq, oxumaqla yarışa çıxardılar. Deməli, iməci məclislərində həm əl qabiliyyətlərini göstərər, həm də hazırcavablıqlarını imtahana çəkərdilər. Bu məqamlarda ahıl-ağbirçəklərimiz də fürsəti fövtə verməz, öz ocaqlarıyçın elə burdaca qız gözaltı elərdilər. Neçə-neçə xalq oyunları, meydan tamaşaları ilkin mənbəyini bəlkə də iməciliklərdən almışlar. Ulularımızın binəsin qoyduqları hoydu, iməciliкdi, övrəzdi, bədəldi, avacadı, mədkəmdi, alışmadı, şəriklikdi, ortaqlıqdı, damazlıqdı, ziyanlıqdı, dayaqdurmadı, bir sözlə, köməklik adına nə varsa hamısı el-günü birliyə çağırmaq, bir xeyirli iş adıyla səsləmək üçündür.

İMƏCLİKLƏRDƏ SÖYLƏNƏNLƏRDƏN

Qədim zamanların söhbətidi, bir padşahın oğlu bərk xəstələnir, nə qədər dava-dərman eləyirlərsə, şahzadə sağalmır ki, sağalmır. Axır ki, düzü-dünyanı gəzib-dolaşıb bir loğman tapırlar, oğlanın dərdinə bir əlac diləyirlər ondan. Loğman oğlana baxıb qayıdır ki, bu xəstəyə heç bir dərdi-səri olmayan adamın alt köynəyini geyindirsəniz sağalacaq. Tez padşahın adamları rəiyyətin içinə çıxırlar, birəm-birəm adamların dərd-sərindən xəbər tuturlar, öyrənirlər ki, bu məmləkətdə heç dərdsiz adam yoxdur. Çar-naçar geri dönəndə yolları bir meşədən düşür. Bir də qulaqları çalır ki, kimsə meşənin ortasında çırtıq vurub oxuyur, oynayır, yaxınlaşıb görürlər ki, cavanca bir oğlandır, bir şələ odunun həndəvərində atılıb-düşür, şadlıq eləyir. Fikirləşirlər ki, deyəsən axtardığımızı tapmışıq axı. Soruşurlar ki, ay oğlan, niyə belə sevincəksən, nə olub ki? Cavan qayıdır ki, nə olacaq, bu günün də sabahın da, hələ üstəlik birisi günün də odun ehtiyatını tutmuşam, çu sevinirəm. Xəbər alırlar ki, bəs heç sənin ayrı dərd-sərin yoxdurmu? Deyir, nə dərdim olacaq, odunum hazır, canım sağ-salamat, daha bundan başqa adama nə lazımdır? Deyirlər, elə biz deyən sənsən ki varsan. Tez ol, can köynəyini çıxar ver bizə aparaq şahın oğluna, o da geyib sağalsın. Oğlanın üzü bulud təki tutulur, qəmli-qəmli dillənir:

— Allahdan gizli deyil, sizdən nə gizlədim, can köynəyim heç yerli-dibli olmayıb.

«ARADA, BİR GÜL AXITDIN»

Deyir, şeytanla binayi-qədimdən dostluq eləyən bir bənzi-adəm günlərin bir günü yaman şək-şübhəyə düşür, başlayır ehtiyatlanmağa. Çünki oğluna toy eləmək məqamı yaxınlaşırmış. İndi qorxur ki, toyun lap o şirin yerindəcə dostu şeytan araya şuluq sala, çəkdiyi xərc-xuraçat heç-puç ola. Odur ki, durub gəlir şeytanın yanına, dil-ağız eləyir, şərt kəsir ki, sən kəsdiyimiz o halal duz-çörək, məbadə oğlumun toyunda araya fitnə-fəsad salasan, qoy toyumuz səliqə-sahmanla ötüşsün, sonradan mən də qoşularam sənə, kimin toyunda nə qədər istəsən şuluq salarıq. Şeytan deyir, bay, bu nə sözdür, neçə illərdi ki, sənlə dostluq eləyirik, nə qədər evlər yıxmışıq, könüllər qırmışıq, dostu dosta, əri-arvada düşmən eləmişik, bəs elə şeymi olar?! Nə isə şərti kəsib ayrılırlar. Vaxt-vədə tamam olur, mağar qurulur, toy başlayır. Çalan kim, oynayan, oxuyan, yeyib-içən kim. Şeytan da bir küncdə dayanıb mağmın-mağmın bu mənzərəni seyr eləyirmiş. Amma hikkəsindən, dişi bağırsağını kəsir, bir iş görməkdən ötrü sino gedirmiş. Görür yox, balam, əgər işlər belə getsə, bu məclis şad-xürrəm başa çatacaq. Onda gərək baş götürüb bu məmləkətdən gedə, adını dəyişə. Odur ki, üsulluca sürüşüb mağardan çıxır. Bir qədər aralıdan axıb keçən su arxının qırağından bir qəşəng gülü dərib buraxır suya. Mağardan çıxıb deyə-gülə arxın kənarında gəzişən cavanlardan birinin gözü suda axan həmən gülə sataşır. İstəyir əyilib götürsün, bir başqası onu itələyib gülü özü götürür. O deyir gül mənimdir, bu deyir gülü əvvəl mən görmüşəm. Ara

qızışır, məzhəb itir, dava-dalaş toy mağarına yayılır. Neçə cavanın başı-gözü yarılır. Toy sovulur, adamlar yarımçıq dağılışıb gedirlər. Aradan bir gün ötür, şeytan gəlir dostunun yanına, qayıdır ki, hə, dost, necədir, oğlunun toyunda özümü aparmağım xoşuna gəldimi? Kişi kədərli-kədərli cavab verir:

—Hə, a dost, xoşuma gəlməyinə gəldi, hər şey yaxşı gedirdi, amma boynuna al ki, arada bir gül axıtdın.

AŞIQ ƏLƏSGƏRİN QORXMASI

Deyir, Dədə Ələsgər günlərin birində bir buğda zəmisinin qırağıynan gedirmiş. Bir də baxır ki, zəminin kənarında bir gözəl dayanıb ki, elə bil ay parçasıdı, qopub göylərdən gəlib. Ələsgərmi dözər bu yerdə, əlaman sazı çiynindən aşırıb istəyir ki, gəlinə tərif deyə. Gəlin bunu sezər-sezməz eləmə tənbəllik, tüfəngi çiynindən aşırıb tuşlayır ona sarı, sonra da başı üstündən bir güllə vızıldadır. Ələsgərin bayaq ha huşu başından çıxıb tirtab sərilir yerə. Hannan-hana özünə gələndə görür həmən gəlin, yanında da bir-iki əkinçi üzünə su çiləyir, sərin ayran içirirlər, özünə gələ. Ələsgər durub əli ətəyindən uzun düzəlir yolun ağına, gəlib çıxır dostu Həsəngilə. Aşığı görən Həsən əl-ayağa düşür, dostunun adına bir erkək kəsir. Oturub söhbətləşəndə Ələsgər başına gələn qəziyyəni Həsənə danışır. Həsən o saat bilir ki, gəlin kimdir, nəçidir. Qayıdır ki, ay Ələsgər hələ sən yaxşı qurtarmısan, yaxşı ki, başı-qulağı salamat çıxmısan onun əlindən. Ələsgər deyir, ayə, bir düz-əməlli nişan ver o gəlini mənə, görüm hansı yuvanın quşudu o elə. Həsən belə başlayır ki, o qız ki sən görübsən, əvvəl-əvvəldən yetimin birisi olub. Amma yetimliyini

neylərsən, təbiət buna bir yaraşıq verib ки, gəl görəsən. Nə isə, günlərin birində кosasaqqal bir varlının bu qıza gözü düşür. Başının dəstəsiylə hücum eləyib qızı qaçırırlar. Yolda кosa buna qayıdır ки, onsuz da iş-işdən кeçib, mənim adım səninlə çıxıb, el-oba şahiddir ки, qaçırmışam səni, daha bundan sonra bir кimsə sənə elçi düşməyəcəк. İnad eləmə, gəl saкitcə arvad ol mənə. Qız qayıdır ки, nə deyirəm, daha olan olub, bundan sonra qovlasan da səndən ayrılası deyiləm. Bu yan-yörəmizdəкiləri dağıt getsinlər. Nöşünкü, sonra deyəcəкlər bir balaca qızın öhdəsindən gələ bilmədi, üstünə qoşun çıxardı. Qızın sözü gözü qızmış кosanın ağlına batır. Dəstəsinə çımxırır ки, dağılın gedin iş-gücünüzə. Nə isə... Qız elə buna bənd imiş кimi fürsət düşcəyin кosanın sağ qulağını xəncərlə кəsir, aradan çıxır. Çox кeçmir ки, bu iyid qız Kəlbəcərdə adlı-sanlı bir igidin zövcəsi olur. İndi həmən o gəlindir ки, bu gün başının üstündən güllə atıb.

Dədə Ələsgər bayaqdanıydı özündə deyildi, Həsən danışdıqca beynində nə isə düzüb-qoşurdu. Elə ки, Həsən sözunü tamama yetirdi, Ələsgər sazını göynəкdən çıxardı, ürəyində hasil olmuş bir qoşmanı oxudu.

Ay Həsən, mən deyim sən onu tanı,
Gözləri can alan ceyranı gördüm.
Kosanı təкqulaq edən tərlanı,
Sara baş əyməyən sultanı gördüm.

Onun кimi gözəl, can alan hanı?
Höкmün verib aldı aşığın canın.
Diriltdi xəstəni, verdi dərmanın,
Yazıq canım, həкim-loğmanı, gördüm.

Yazıq Ələsgərin qırılıb кəndi,
Nə bilim bu zalım qulaq кəsəndi?
Zəhrimara döndü ağzımın qəndi,
Qətlimə yazılan fərmanı gördüm.

ŞAH ABBASIN BIĞ MƏSƏLƏSİ

(rəvayət)

Deyir, günlərin bir günü Şah Abbas кöhnə-кürüş paltar geyinib çıxır el içinə ки, rəiyyətin günündən, güzəranından xəbər tutsun. Bir baxçadan кeçəndə qəfildən öz aralarında pul bölüşən üç nəfərin üstünə çıxır. Bunlara məhəl qoymayıb uzaqlaşmaq istəyəndə bu adamlar onu saxlayır, deyirlər ки, üst-başından görünür ки, elə sən də bizim günlüsən, biz yolnan gedirdик, bu pulu tapdıq, elə təzəcə bölüşdürdүк, sən gəlib çıxdın. Deməli, qismətində varmış, gəl dördümüzün arasında bölək. Şah Abbas bunların təmiz qəlbinə ürəyində əhsən deyir, istəyir bir yaxşılıq eləyə bu adamlara. Deyir, gəlsəniz dördlүкdə bir iş görək. Deyirlər:

— Nə iş?

Şah Abbas öz xəzinəsinin gizli yolu olduğunu onlara başa salır. Bunlar da nə bilsinlər iş nə yerdədir, bu adam кimdir, nəçidir. Razılaşırlar. Yolda Şah Abbas xəbər alır ки, кimin əlindən nə gəlir?

Bunlardan biri qayıdır ки, mən bütün heyvanların dilini bilirəm. O biri deyir məndə də elə bir hiкmət var ки, hansı qapıya bir кərə gözucu baxsam açılasıdır. Üçüncüsü də belə deyir ки, gündüz heç, gecənin zıldır qaranlığında belə bir adamın üzünə bircə кərə baxmağım кifayətdir ки, əlli ildən sonra

da onu görsəm tanıyam. Sonra da bu üç nəfər Şah Abbasdan soruşur ki, bəs sənin əlindən nə gəlir? Bu da qayıdır ki, mən əlimi bircə kərə sağ bığıma çəksəm, yan-yörəmdə nə qədər adam varsa bir də göz açıb görər zindandadır. Yox, əgər sol bığıma çəksəm, zindanlarda nə qədər məhbus var, azadlığa çıxar. Nə isə, beləcə söhbət eləyə-eləyə gəlib yetişirlər şəhərə. Elə birinci küçəyə ayaq qoycağın bir it başlayır bunlara hürməyə. Şah soruşur ki, hə, de görək o it nə demək istəyir? İt dili bilən qayıdır ki, it keşikçiləri duyuq salır ki, ehtiyatlı olun, şəhərdə oğru var. Bəli, gəlib yetişirlər xəzinənin gizli qapısı ağzına. Qapı da nə qapı! Top vursan dağılmaz. Şah deyir:

— Hə, di göstər hikmətini görək.


Bağlı qapıları açan bir kərə gözucu baxmağıynan qapılar taybatay açılır. İçəri təpilib bəs deyincə qızıldan, gümüşdən yüklərin tuturlar. İşlərini görüb dağılışmaq istəyəndə Şah Abbas bunların yaşadıqları yerləri xəbər alır ki, bir də iş görmək lazım gələndə tapışa bilsinlər. Bunlar da nə bilsinlər nə var, hərə öz yerini-yurdunu bildirir. Beləcə dağılışırlar. Səhərisi şəhərə hay düşür ki, bəs, xəzinəni yarıblar. Şah bunu eşitcəyin qırmızı geyinib taxta çıxır, əmr eləyir ki, filan yerdə, filan ünvanda yaşayan filankəsləri tez tapıb hüzuruma gətirin. Öz-özünə fikirləşir ki, görən bu adamlar ki, bu qədər təmiz qəlbli, arif, səxavətlidirlər, dar ayaqda necə, biribirilərini satıb-eləməzlər ki? Həm də o üçüncü adamın fəhmini imtahana çəkmək istəyir ki, görək dünən gecənin zülmətində onu səfil-sərgərdan kökündə görən həmin adam bu dəbdəbəylə onu tanıyacaqmı? Bəli, həmin adamlar bir su içimlikdə tapılıb şahın hüzuruna gətirilirlər. Şah əvvəlcə heyvanların dilini biləni təklikdə dindirir, deyir bəs, filan ünvanda yaşayan dostun bizə xəbər gətirib ki, sən xəzinəni yarmısan. Heyvanların dilini bilən kəs ağzına nə sayaq su alıb dursa,

Şah Abbasın səbri tükənir, qovlayır bunu. Sonra da bağlı qapıları açanı dindirir. O da ayağını dirəyir bir başmağa ki, onu kim deyirsə qələt eləyir, heç mən bir aydır ki, şəhər üzü görmürəm. Axırda şah üçüncü adamı çağırtdırır. O gəlməmiş bir az da üz-gözünü, görkəmini, səsini dəyişib başqalarına dediklərini onunçun da təkrarlayır. Nə qədər çığırır, cavab tələb eləyirsə, kişidən cınqır çıxmır. Eləcə dayanıb zəndlə Şah Abbasa baxır. Axırda şahın lap təbdən çıxdığını görüb belə deyir:

— Şah sağ olsun, daha niyə əsib-coşursuz e... Əlinizi bircə kərə sol bığınıza çəkin məsələ xətm olunsun da!..

Şah Abbas bu yerdə bir qəhqəhə çəkir ki, şüşələr cingildəyir. Hər üçünü də çağırıb bu mərdliklərinin əvəzində onlara o ki var ənam verib yola salır.

Beləcə sözdən-söhbətdən bir bahar tonqalı çatdıq. Bir yaz gözəlləməsi yetirdik sizlərə. Ömrünüzün hər fəsli bahar ovqatlı, bahar nəfəsli olsun.



MÜNDƏRİCAT

Müəlliflərdən.....3
Yaz gəlir. M.Seyidov.....6

Ağıl kəsdiyindən

"Novruzlama" 12
Qar çiçəyi 14
Boz ay 15
Səməni, saxla məni 17
Novruz oyunları 24
Kosa-kosa 24
Şahbəzəmək 29
Artırma 29
Gözbağlıca 30
Budur yaz gəldi, yaz gəldi 30
"Haçaquyruq"-Qaranquş 33
Bir aylı gecəydi 39
Aylı gecənin nağılı 48

Göz gördüyündən

Dostluq üç almadır 53
Andlar, inanışlar 57
Min illərin dünyası 63
Bir tikənin savablığı 66
İlimizin min bir rəngi 68
Yaz toyunun söz soyları 75
"Kəklik-kəklik" oyunu 83
"Qarabirçək" oyunu.....86
Qış ilə yaz körpüsü 87

Sən haralısan, durna? 94
"Qəysəvə" 100
Yenə gəlib yaz ayları 105
Hər dərdin öz dərmanı 110
Novruz quraması 118
"Haydı, yolçu yolda gərək!" 120
Yaylaq qarəvəllilərindən 122
İş insanın cövhəridir 131
Yaz qayğıları....134
İməclıklərdə söylənənlərdən 139
"Arada, bir gül axıtdın"....140
Aşıq Ələsgərin qorxması....141
Şah Abbasın bığ məsələsi....143

Ağalar Mirzə

İntiqam Mehdiyev


NOVRUZ TÖHFƏLƏRİ

Redaktor Saminə Hidayətqızı
Texniki redaktor Mehri Xanbabayeva
Dizayner Süsən Zərbaliyeva
Korrektor Fəridə Ələsgərli
Rəssam Nərmin Abdullayeva

Çapa imzalanıb 10.03.2009.
Formatı 70x100 1/16. F.ç.v. 9,5.
Sayı 1000 nüsxə. Qiyməti müqavilə ilə.

"Xəzər – Etiket" mətbəəsi.

Qeyd üçün



İntiqam Mehdizadə 1945-ci ildə İsmayıllı şəhərində anadan olub. 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsini bitirib. 1970-73-cü illərdə "Azərbaycan gəncləri" qəzetində ədəbi işçi, 1973-2007-ci illərdəsə Dövlət Teleradio Verilişləri Şirkətində redaktor, böyük redaktor, şöbə müdiri, baş redaktor vəzifələrində çalışıb. 6 bədii-publisistik kitabın müəllifi, Ali "Dan ulduzu", H.B.Zərdabi adına və "Qızıl qələm" mükafatları laureatıdır.

Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Mətbuat katibi və nəşriyyat şöbəsinin müdiri vəzifəsini daşıyır.

Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Mətbuat katibi və nəşriyyat şöbəsinin müdiri vəzifəsini daşıyır.





Ağalar Mirzə (Ağalar Həmzə oğlu Mirzəyev) 25 dekabr 1954-cü ildə Şabran şəhərində (keçmiş Dəvəçi) anadan olmuşdur. 1979-cu ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakultəsini bitirmiş, həmin ildən təyinatla Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə işləməyə göndərilib. 1979-1986-cı illərdə radioda, sonra isə ömrünün sonuna kimi televiziyada müxtəlif vəzifələrdə çalışmışdır. 1999-cu ildən televiziyanın "Xalq yaradıcılığı" redaksiyasının baş redaktoru vəzifəsində çalışıb. Müxtəlif illərdə radioda "Bulaq", televiziyada "Karvan", "Yallı", "Ozan", "Oğuz", "Qala" kimi proqramların yaradıcısı, redaktoru və aparıcısı olub. 1983-cü ildə ilk kitabı çap olunub. On altı şeir, bədii-publisistik və elmi kitabın müəllifidir. 1996-cı ildə "Qızıl Qələm" mükafatına, 1998-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 2002-ci ildə filologiya elmləri namizədi adı alıb. "Şabran aşıq sənəti" mövzusunda doktorluq dissertasiyası yazılmışdır.

Ağalar Mirzə 5 mart 2008-ci ildə qəflətən dünyasını dəyişib.